**Lela Kakaşvili**
Beka Kvaçadze
Qiorqi Uqulava
İrakli Peradze
Nikoloz Qurqenidze



# TARİX 10

II HİSSƏ

## MÜƏLLİM KİTABI

Gürcüstan Təhsil və Elm Nazirliyi
tərəfindən 2022-ci ildə qrif verilmişdir.

სულაკაურის
გამომცემლობა

Tarix 10
Müəllim kitabı - II hissə

Müəllif **Lela Kakaşvili**
Müəlliflər qrupu: **Beka Kvaçadze, Qiorqi Uqulava, İrakli Peradze, Nikoloz Qurqenidze**

Redaktor **Nino Qoqoladze**
Dizayner **İa Maxatadze**
Texniki dizayner **Qiorqi Lomsadze**

Birinci nəşr, 2022
© Sulakauri nəşriyyatı, 2022
Bütün hüquqlar qorunur.

"Sulakauri nəşriyyatı" MMC
Ünvan: Davit Ağmaşenebeli 150, Tbilisi 0112
Tel.: 291 09 54, 291 11 65
Elektron poçt: info@sulakauri.ge

ISBN 978-9941-37-247-6

History 10
Teacher's Book – Part II

© Sulakauri Publishing, 2022
All rights reserved.

Tbilisi, Georgia
www.sulakauri.ge

## Mündəricat

Struktur....................................................................5
Orta pillənin standartı....................................................................13
Mövzunun əsas təsəvvürləri....................................................................33
Anlayışlar....................................................................38
Şagirdin qiymətləndirmə sistemləri....................................................................41
Təlim-tədris strategiyaları....................................................................52
Tematik matrislər....................................................................65
Müəllifin şərhləri....................................................................87

## STRUKTUR

Dərsliyin başlıca funksiyası ondan ibarətdir ki, bütövlükdə Üçüncü Nəsil Milli Tədris Planının məqsədlərinə uyğun olsun və bu məqsədlərin tətbiq edilməsində məktəb cəmiyyətinə şərait yaratsın. O, öz məğzi ilə daha çox resursu təqdim edir və müəllim bundan iş prosesində kənara çıxmaq imkanını verməyən sənəd kimi deyil, öz nəzərlərinə, məqsədlərinə, çağırışlarına və peşəkar səriştələrinə uyğun olaraq hərtərəfli istifadə edə bilər. Bu cəhətdən, dərslik iki əsas çağırışa cavab verir və onun qarşısında da məktəbin iş prosesində məktəb cəmiyyəti durur: bir tərəfdən, öyrənilәsi məsələni dərinlikdən aşılayır, onu müxtəlif perspektivdən təqdim edir; səbəb-nəticə məsələsini vurğulayır ki, şagirdin hər bir tarixi hadisə, proses və mövzu üzrə müzakirə zamanı suallara cavabı olsun ki, bu hadisə nə üçün və necə baş vermiş; orta pillə üçün uyğun tədqiqi, müzakirə və analitik diskursu daxil edir və xronoloji tarixi perspektivlə birlikdə, hadisələri tematik tarixi perspektivdən də işləyir.

Onun məqsədi ondan ibarətdir ki, iş prosesində məsələləri tam və dərinlikdən əhatə etsin ki, əlavə resursların istifadə ehtiyacı az olsun. Bu cəhətdən nəinki şagird, eləcə də müəllim üçün hərtərəfli resursdur, çünki məqsədi müəllimə dərsin hazırlanma prosesində tam, hərtərəfli, geniş və dərin iş təklif etməkdən ibarətdir ki, başqa, əlavə resursdan az istifadə etsin.

Digər tərəfdən, aşağıda ətraflı təhlil edəcəyimiz struktur çevikliyi məktəb cəmiyyətinə yardım edəcəkdir ki, hər bir məktəbin, müəllimin və ya sinfin reallığına və çağırışlarına yaxşı uyğunlaşsın ki, müvəqqəti qıtlıq fonunda materialın işlənilməməsi və ya dərinlikdən işlənilməməsi risklərinin qarşısı alınsın. O, öyrənilәsi məsələ haqqında bir neçə pilləli informasiyanı təklif edir və bu da məsələ üzərində lazımi-təməli, dərin və tədqiqi-elmi səviyyədə işlətdirir və müəllimə imkan verir ki, məktəb kurrikulumunun məqsədləri və prioritetlərinə, onun şəxsi peşəkar səriştə və nəzərlərinə, sinfin ehtiyacları və problemlərinə əsasən, hər bir öyrənilәsi məsələnin müvafiq səviyyədə və dərinlikdə işlənilməsini müəyyənləşdirsin. Dərslik imkan (zərurət deyil) yaradır, müəllim isə şagirdin ehtiyacına əsasən yuxarıda qeyd edilən amillərə əsasən, hər bir məsələnin hansı miqyaslarla və hansı dərinlikdə işlənilməsini seçir.

Ümumilikdə, dərsliyin işlənilməsi nəticəsi dərin, orta pillənin ehtiyaclarına uyğunlaşdırılmış, xassəcə yeni növ biliyin qəbulu olmalı, müxtəlif perspektivdən tarixi prosesi dərk etdirməli və onu müasir həyatla əlaqələndirən canlı, dinamik və aktual proses kimi qəbul etdirməlidir və bu da tarixi prosesi ardıcıl, inkişaf edən zəncir kimi təqdim edir və müxtəlif tarixi dövrü, o cümlədən müasirliyi bir-biri ilə əlaqələndirir. Bu cəhətdən onun nəticəsi baza pilləsində artıq qazanılan biliyin yeni perspektivdən aktivləşdirilməsi, onun birbaşa, anlayışların aydın işlənilməsi və onlara qarşı

tədqiqi, analitik və yaradıcı yanaşmasının formalaşması olmalıdır.

Ayrıca elə bir amili ayırmaq lazımdır ki, bir tərəfdən, dərsliyin metodoloji və struktur hissəsi müasir Avropa və Amerika dərsliklərinin təcrübələrinə tam uyğundur, digər tərəfdən isə onda müasir gürcü və qərb tədqiqatlarının nəticələri nəzərə alınmışdır. Tədris prosesində elmi və tədqiqi diskursun daxil edilməsinə xüsusi diqqət verilir.

Müxtəlif tarixi problematikanın müasir kontekstdə təhlilinə xüsusi diqqət verilir ki, şagird dünyanın tarixi inkişafın ardıcıllığını və bu sahənin aktuallığını qavrasın, eyni zamanda təsəvvürü yaransın ki, müasirlik üçün aktual problemlər, məsələn, məhdudiyyətsiz hökmranlıq riskləri, təbii kataklizmlər tərəfindən yaranmış böhranlar və cəmiyyətin tərəqqisinə texnologiyaların təsiri ilk növbədə məhz tarixi kontekstdə qavranılmalı və öyrənilməlidir.

Dərslik üç müstəqil struktur vahidindən – **Şagird kitabı, Müəllim kitabı və Şagird dəftərindən** ibarətdir. Öz tərəfindən Şagird kitabı iki əsas mövzuya bölünür, iki əsas hissəyə - 3. Son Qədim Dövr və Orta Əsrlər. Hər bir mövzu fəsillərə bölünmüşdür (cəmi 5 fəsil). Fəsillərə bölgü prinsipi bir fəslin çərçivəsində bir, bütöv tarixi dövrün və yarımdövrün cərəyanını nəzərdə tutur ki, bunda işlənilən material müstəqil, struktur və məzmun vahidini yaratsın.

Öz tərəfindən, hər bir fəsil paraqraflardan ibarətdir. Bir fəsildə ən azı üç, ən çoxu yeddi paraqraf ola bilər (bütövlükdə 33 paraqraf).

Hər bir fəsil ayrıca, müstəqil struktur və məzmun vahididir. Fəsli hər zaman kompleks tapşırıq açır ki, şagird elə birinci mərhələdən yerinə yetiriləsi tapşırıqla tanış olsun və növbəti dərs prosesi bu tapşırığa yönələrək, onun tələbləri və ya spesifikasını nəzərə alaraq aparılsın (bunda ona Şagird dəftərində verilən müxtəlif material və fəallıqlar yardım edir).

Ümumilikdə, beş fəsil çərçivəsində beş kompleks tapşırığı verilir və bu da müəllimə, bir tərəfdən, imkan verir ki, bütövlükdə tədris kompleks tapşırıqların yerinə yetirilməsi-həyata keçirilməsi prosesində aparılsın və hər bir üzərində işləniləsi məsələ və ya paraqraf bu prosesə uyğunlaşdırılsın. Digər tərəfdən isə onun imkanı olur ki, istədiyi bir və ya bir neçə tapşırığı seçsin, məktəb materialının qalan hissəsini isə müstəqil işləsin. Dərsliyin strukturu ona hər iki cür hərəkət etmək imkanını verir.

Hər bir fəsil giriş hissəsi ilə açılır və bu da sözügedən kompleks tapşırığından başqa qısa xülasə üslubunda yazılmış dövrün kiçik icmalı ilə, belə adlanan fəslin təqdimatı və ən mühüm və əsas tarixlərin siyahısı ilə başlayır. Kompleks tapşırığın vasitəsilə işlənilən anlayışlar da burada yerləşir.

Adətən, hər bir fəsildə iki anlayış ayrılır.

Ayrıca qeyd etmək lazımdır ki, hər bir fəsli, vəsait kimi, videofilmlər müşayiət edirlər. Bunlar gürcücə səsləndirilir və şagirdə imkan verir ki, ştrixkodu aktivləşdirməklə "smartfon" vasitəsilə fəsil çərçivəsində işlənilən ən mühüm məsələlər haqqında əlavə məlumat alsın.

Buradaca qeyd etmək lazımdır ki, belə adlanan fəslin bağlanılması – onun yekunlaşdırıcı hissəsi hər fəslin sonunda ayrıca verilir. O, fəsildə təhlil edilən materialı analitik fəallıqların vasitəsilə bir daha xatırladır və buradaca üzərində işlədir və burada tematik şöbələrdə, şagirdə əlavə bədii və ya qeyri-bədii ədəbiyyatı, sənədli və bədii filmləri, serialları və s. təklif edir. Bu yolla şagirdə təklif edirik ki, ədəbiyyat və pop-mədəniyyət vasitəsilə ona maraqlı məsələlər haqqında öz təşəbbüsü ilə əlavə məlumat alsın və eyni zamanda, tarixin aktuallığını və onun müasir aləmlə bağlantısını vurğulayırıq.

Hər bir paraqraf üç əsas komponentin – anlayışın, xronoloji tarixi məsələnin və tematik tarixi məsələnin vəhdətini təqdim edir. Hər üçü (anlayış, xronoloji məsələ və tematik məsələ) elə seçilmişdir ki, bir-biri ilə üzvi əlaqələndirmə yolu ilə bir məzmun və informasiya bütövlüyünü yaratsın və şagirdə yardım etsin ki, məsələni bir çox müxtəlif perspektivdən işləsin. Dərsliyə əsasən məsələnin yaxşı işlənilməsi onun anlayışlarının, eləcə də dərin tematik (məs., sosial tarixi məsələlər) perspektivindən öyrənilməsini bildirir ki, şagird orta pillədə ətraflı, hərtərəfli bilik əldə etsin və onda biliyin quruluşunun konstruktivist prinsiplərinə əsaslanan məsələnin analitik qavranılması formalaşsın.

Bilavasitə paraqraf əsas sualla (bunun üzərində iş də dərs prosesinin əsas laytmotivi olmalıdır) və anlayışlarla başlayır. Paraqrafın üzərində işləniləcək iki anlayış ayrılmışdır. Anlayışlar elə qruplaşdırılmışdır ki, şagird hər bir tarixi dövr çərçivəsində bu dövrü altı əsas anlayışın (vaxt, məkan, mənbə, hakimiyyət, cəmiyyət, tarixi hadisə/proses) perspektivindən işləyə bilsin. Kompleks tapşırığına çıxarılan anlayışlar xüsusi dərinliklə işlənilir. Məsələn, kompleks tapşırığı çərçivəsində hakimiyyət və cəmiyyət üzərində işlənildiyi halda, şagird konkret mövzu çərçivəsində anlayışların altısını da işləyir, amma paraqraflarda hakimiyyətə və cəmiyyətə daha tez-tez təsadüf edirik. Paraqrafın əvvəlində ayrıca verilən qısa annotasiya müşayiət edir və bu da şagirdə yardım edir ki, üzərində işləniləsi məsələni aydın təsəvvür etsin, onun əhəmiyyətini dərk etsin və ötən biliyin aktivləşdirilməsi-xatırlanması yolu ilə ardıcıl biliyi formalaşsın. Annotasiyanın bir hissəsi yeni materialın işlənilməsi üçün ön şərti yaradır.

Buradaca paraqrafın giriş hissəsində müvafiq dövrün mühüm fiquru tərəfindən söylənilən və ya konkret dövrü təsvir edən ifadə, sitat gəlir və bu da bir tərəfdən, materialı rəngarəngləşdirir, onu aktuallaşdırır və şagirdləri müxtəlif mühüm tarixi qəhrəmanlarla tanış edir, digər tərəfdən isə qısa, kompakt ismarıc şəklində bütün paraqrafın əsas ideyasını canlandırır və işləniləsi materialla əlaqələndirir.

Hər bir paraqrafda əsas və köməkçi mətn ayrılır (ayrı-ayrı struktur vahidlərinin b.a. haşiyəsi, "bu, maraqlıdır" şəklində) və material fərqli şəkildə çatdırılır. Əsas mətn köməkçi mətnin xaricində də vahid, bütöv və məntiqi qısa hekayəti yaradır, amma haşiyələrin vasitə-

silə material dərinlikdən öyrənilir və şagirdə əsas mətndə aktivləşdirilmiş məsələlər haqqında əlavə məlumat verir. Belə bir haşiyələrlə, o cümlədən, terminlərlə, tarixlərlə və digər spesifik materialla mətnin yükləndirilməsinin qarşısı alınmışdır. Eyni zamanda, şagirdin imkanı var ki, ətraflı və daha dərin bilik alsın.

"Bu, maraqlıdır" rubrikasının daha çox əlavə informasiya xarakteri var və müxtəlif maraqlı və yadda qalası detalları təklif etməklə şagirdin üzərində işləyəcəyi məlumatı canlandırmaq və aktuallaşdırmaq məqsədini daşıyır.

Hər bir paraqrafa Şagird dəftərində verilən sosial tarix mövzular əlavə olunur. Onlar əsas məsələlərlə əlaqələnir və bir tərəfdən, paraqrafın materialını dərinlikdən başa düşmək, məsələni fərqli perspektivlə qavramaq və eyni zamanda, tarixi nəinki hərbi və siyasi tarix perspektivindən görmək, eləcə də gündəlik məişətlə və rəngarəng məişət detalları ilə tanış olmaq imkanını verir. Buradaca qeyd etmək lazımdır ki, baza pilləsində bu növ tarixi kəsikdə aksent çox az edilir və bu da imkan verir ki, orta pillədə tədrisi yeni yüksəkliyə qaldıraq və yeni perspektivlə şagirdlərə çatdıraq.

Fəallıqlar mətnin əsas hissəsində açılırlar, bu da məsələlərin bilavasitə dərs prosesində işlənilməsində yardım edir.

Təbii ki, fəallıqlar məsələnin məzmunundan irəli gələrək tərtib edilmişlər. Amma hər bir fəallıq, məsələn, diskussiya, müzakirə, xəritə üzərində iş, koqnitiv diaqramın doldurulması və ya mənbə üzərində iş bir neçə məqsədə qulluq edir: şagird dərslikdə verilən məlumatı dərk etsin və alınan biliyi asanlıqla deklarativ bilikdən şərtiyə çevirə bilsin. Təbii ki, belə bir nəticə addım-addım, tanışdan naməluma tərəf gediş prinsipi ilə əldə edilir və dərsliyin fəallıqları da, bütöv mətnlər də, bu prinsiplərə istinad edir.

Şagird dəftərinə və Müəllim kitabına gəldikdə, onlar müstəqil vahidləri təqdim edirlər, amma dərsliyin sadəcə əlavəsini deyil. Əksinə, konsepsiyamıza əsasən, bunlardan hər biri bütövün bir hissəsidir və hər birinin özünün müvafiq funksiyası və yükü var.

Şagird dəftəri Müəllim kitabında verilən kompleks tapşırıqları və onun fəallıqlarını izləyir. Yazılı tapşırıqlar, diaqramlar, mənbənin analizi və sosial tarixi əhatə edən əlavələr şagirdə yardım edir ki, müxtəlif fəallıqların işlənilməsi yolu ilə kompleks tapşırığı asanlıqla yerinə yetirsin. Eyni zamanda, əlavə olaraq, Şagird kitabında verilən müvafiq tapşırıqlar üzərində yazılı işləsin. Bunların üzərində sinifdə iş dərs prosesini daha yüklü və maraqlı edir, ev tapşırıqları kimi yerinə yetirildiyi halda, şagirdlər üçün yeni materialın mənimsənilmə prosesində əlavə köməkçi alətə çevrilir. Dəftərin sonunda faydalı linklər verilir. Onlar şagirdlərə dərslikdə öyrəniləsi dövrün müvafiq əlavə internet resurslarını çatdırır.

Müəllim kitabı müəllimlər üçün köməkçi resurs hədəfini daşıyır ki, onlar Üçüncü Nəsil Milli Tədris Planı və illik proqramların əsasında təlim-tədris prinsiplərini daha yaxşı tətbiq

edə bilsinlər. Müəllim kitabında bu məqsədlərlə tanışlıq üçün lazımi sənədlər verilir: orta pillənin standartında, məzmunca yerləşdirilən məsələlərin siyahısı ilə birlikdə, hər bir mövzunun nəticələrinin əldə edilməsi indikatorları aydın şəkildə formalaşdırılmışdır. Onlar müəyyənləşdirirlər ki, təlim-tədris prosesində nəyi qiymətləndirmək olar. İndikatorlar hədəf anlayışlarına əsasən qruplaşdırılıblar.

Ardınca tematik əsas təsəvvürlər gəlirlər. Mövzu ilə bağlı əsas anlayışların funksiyası ondan ibarətdir ki, şagirdin öyrənilsi mövzunun konturlarında təsəvvürü yaransın. Müvafiq olaraq, bu və ya digər məsələ ilə münasibətdə müəllim üçün əldə edilən oriyentirlərin ayrılması asan olacaqdır.

Sonra fənnin hədəf anlayışları və şagirdin qiymətləndirmə sistemləri gəlir. Həm müəyyənləşdirici, eləcə də SOLO taksonomiyasına istinad edən inkişafetdirici qiymətləndirmə. Konkret tarixi məsələyə əsaslanan hər bir səviyyənin qiymətləndirmə nümunəsi ilə təqdim edilən inkişafetdirici qiymətləndirmə aləti, düşünürük ki, SOLO taksonomiyası prinsiplərini və təyinatını müəllim üçün daha aydın və qavranılan edir.

Dərs prosesinin effektiv keçirilməsi üçün müəllimlərə təlim-tədris strategiyalarını və müəyyən fəallıqların qiymətləndirmə xəritələrini təklif edirik və bu da onların təlim prosesini və sinif otağında təlim-tədris prinsiplərinin tətbiq edilməsini və keçirilməsini asanlaşdıracaqdır.

Təqdim edilən matrislər tədris prosesində müəllimin effektiv köməkçi resursu ola bilər və o, bir bütövün (Şagird kitabı, Şagird dəftəri, Müəllim kitabı) üzvi hissəsidir.

Tərəfimizdən hər bir fəsil üçün tərtib edilən kompleks tapşırıqlarla, müəllim istədiyi halda, bunların vasitəsilə dərslikdə verilən materialı ödəyə bilər. Konsepsiyamıza əsasən, kompleks tapşırıqların həyata keçirilməsi zamanı əsas resursu dərslik və digər vəsaitlər təqdim edir, dərslikdə verilən məsələlərin maraq doğurduğu halda, daha çoxu başa düşmək üçün alternativ variantı kimi vəsaitlərdən də istifadə olunur. Müvafiq olaraq, müəllim bu vəsaitlərdən bu və ya digər səbəblərə görə istifadə etmədikdə, kompleks tapşırığın həyata keçirilməməsi və məsələnin ötürülməməsi səbəbi olmayacaqdır.

Anlayışın əsas təsəvvürlərinə əsasən işlənilsi addımların ardıcıllığı və bu addımların həyata keçirildiyi zaman verilən suallar da aydındır və bu dərslikdəki sualların və fəallıqların ardıcıl davamını təqdim edir; bu da üç komponentin bütövlüyünün daha bir təsdiqidir.

Müəllim kitabının növbəti hissəsində müəllifin pedaqoqlara olan tövsiyələrini görə bilərsiniz. Bu fəsil müəllimlərə konsepsiyanın qavranılmasında və dərk edilməsində yardımçı olacaq və onların keçdikləri dərsləri daha effektiv edəcəkdir.

# X SİNİF "TARİX" ÜZRƏ ŞAGİRD KİTABININ II HİSSƏSİ 1 MÖVZU VƏ 33 MƏSƏLƏDƏN İBARƏTDİR.

## Dərslikdə rubrikalar təqdim olunurlar:

**Tarixə addım at: videonu izlə və Roma imperiyasının böhranı haqqında daha çox öyrən. İnternet səhifənin keçidinə kitabın sonunda baxa bilərsən.**

**Gürcü dilində səsləndirilən videomaterial,** smartfon vasitəsilə **QR kodla** aktivləşdirilir və ya ona göstərilən linkdə açıq mənbədən baxmaq olar.

"Qayda yox, hərəkət imperatoru yaradırdı, sistem parçalandı".

*Hayns Belen, alman tarixçisi, III əsrdə Roma böhranı haqqında*

**Sitat** – dövr və ya konkret tarixi hadisə haqqında məşhur tarixi şəxsiyyətin və ya tarixçinin ifadəsi




**Zaman xətti** – zəmanənin və konkret dövrün əsas hadisələrinin və tarixlərinin siyahısı, bunlar da zaman xəttində vizual olaraq asanlıqla başa düşülən şəkildə təqdim edilir.

**Meqalomaniya**

Öz gücünü nümayiş etdirmək və təkəbbürlənmək üçün həddindən artıq istək.

Mətnə paralel sahədə **Lüğət** təqdim edilir və bu da şagirdə tanış olmayan sözləri və ya anlayışları izah edir.



**İoan Dəməşqli**

təxm. 675/676-749

Bizans ilahiyyatçısı, filosofu və yazıçısı. Pravoslav Kilsəsinin müqəddəsi. O, ərəb xristian ailəsində anadan olub və Yerusəlimdə, Saba monastırında fəaliyyət göstərib.

**Qısa tərcümeyi-hal** – müvafiq dövrün xadimi haqqında mətnə paralel olaraq təqdim olunan qısa anlayışlar.

Bu, maraqlıdır

**Karakalla ləqəbi nə deməkdir**

Karakkala ləqəb idi və latınca qalların quyruqlu tunikaları belə adlanırdı. Karakalla uşaqlıqdan məhz belə tunika geyinirdi. Buna görə də onun ləqəbi Karakalla qalmışdı.

**Bu, maraqlıdır** – mətndə təqdim edilən maraqlı məsələ üzrə əlavə məlumat

TAPŞIRIQ

**5 Müzakirə et**

Diokletian öz hakimiyyətini qorumaq və gücləndirmək üçün hansı vasitələrə arxalanırdı?

**6 Müzakirə et**

Diokletian Romada daxili hakimiyyət mübarizələrini necə bitirdi?

**Tapşırıq -** Materialın başa düşülməsinə, onun analitik qavranılmasına və işlənilməsinə yardım edir, tənqidi və analitik və əqli bacarıqların formalaşmasına dəstək verir. Materialı yoxlamaq funksiyasına malikdir.




**Diaqramlar** – statistik və başqa məlumat strukturlaşdırılmış növdə verilir.

Mənbə 7

**Konstans yepiskopu Gebhart. 990-cı il**

"...Təhkimlilərini bir yerə topladı və onlardan ən yaxşılarını seçdi. O, elan etdi ki, bundan sonra onlar aşpaz və dəyirmançı, baqqal və bağban, dərzi, dabbaqçı və müxtəlif peşə bilən usta olacaqlar. Həm özlərinə, həm də ağalarına faydalı olacaq peşəni öyrənməlidirlər. Onlardan sonra nəsillər bu biliyə yiyələnəcək, qalan işlərdən azad olacaqlar".

**Mənbə** – şagirdə işlənilməmiş məlumatı ilkin şəkildə təqdim edir. Materiala qarşı şəxsi yanaşmalarının formalaşmasında ona yardım edir. Məqsədi ondan ibarətdir ki, şagirdin tənqidi və analitik təfəkkürünün formalaşmasına və tarixi hadisələrin fərqli interpretasiyasına dəstək versin.

**HAŞİYƏ** Helioqabal

Helioqabal ərəb mənşəli idi, Suriyanın Edes şəhərindən. O, uşaqlıqdan günəş allahı Elaqabalın kahini idi və hələ gənc yaşlarında çox nüfuzlu Yuliya Mesa, imperator Septimi Severin baldızı onu imperator edəndə, Romaya qara daşı, ehtimal ki, meteor qırığını gətirmiş və onu tanrı elan etmişdi.

**Haşiyə** - əlavə şəklində informasiya verilir, bu da mətnin dərinlikdən başa düşülməsinə yardım edir. Əsas mətndə verilən əhvalat məhz haşiyədə dərinləşdirilir.

**Nə olardı, əgər**

- Tarix cəmiyyətin və tarixin gələcək inkişafını əsaslı şəkildə dəyişdirən bir çox dönüş hadisələrini xatırlayır.

  Əvvəlki fəsildə öyrənilən materialı yadına sal. Əldə etdiyin biliklərdən və düşüncə bacarıqlarından istifadə edərək, inşa yaz - əgər Diokletian xristianları təqib etmək əvəzinə, yeni dindən imperiyanın üzləşdiyi problemləri həll etmək üçün istifadə etsəydi, nə baş verərdi.

- İnşanı yazarkən nəzərə al:

a. III əsrdə Roma İmperiyasının hansı problemlərlə üzləşdiyini;

b. Roma cəmiyyətində xristianların imperiya daxilində mövqelərinin nə qədər güclü olduğunu;

c. Xristianlığın Roma cəmiyyətini necə dəyişdirəcəyini;

d. Xristianlığın imperiyanın üzləşdiyi problemlərdən hansının həllində imperatora kömək edə biləcəyini.

**Çalışma** – bütövlükdə fəsli tamamlayır, onun hər bir paraqrafına toxunur, elmi və analitik bacarıqların inkişafına dəstək verir, mücərrəd təfəkkürə şərait yaradır.

## Əlavə

**ƏLAVƏ: İslamda qadın**

Quran buyurur: “qadınların işlərini kişilər idarə edir.” Bununla belə Quran kişi və qadının mömin kimi bərabər olduğunu da bildirir. Şəriət müsəlman qadınlara nikahla, ailə və əmlakla bağlı xüsusi qanuni hüquqlar verir. Buna baxmayaraq, kişilərin qadınlar üzərində böyük təsiri var idi, çünki müsəlman cəmiyyəti də patriarxal idi, müvafiq olaraq hakimiyyət kişilərin əlində idi.

**Əlavə** şəklində Şagird kitabında sosial tarixin müxtəlif aspektləri verilir (qida, paltar, memarlıq və s.), bunlar da bir tərəfdən, əsas mətndə verilən məlumatın dərinlikdən başa düşülməsinə dəstək verir, digər tərəfdən isə öz zəmanəsinin məişətini təsvir edir.

# ORTA PİLLƏNİN STANDARTI

## GİRİŞ

Standart orta pillənin şagirdləri üçün nəzərdə tutulmuşdir. Onun əsasında iki kurs hazırlanmalıdır: (1) bunlardan birincisi – „**tarix**“ dünyanın tarixi əhəmiyyətə malik hadisələrinin/proseslərinin öyrənilməsini və Gürcüstanın tarixi məsələlərini bunlarla əlaqələndirilməsini nəzərdə tutur; (2) ikinci kursun – “Gürcüstan tarixinin” hüdudlarında isə gürcü tarixçiləri üçün aktual problemlərin araşdırılması/dərinlikdən anlaşılması vurğulanır.

Standartda nəticələrin və hədəf anlayışlarının şəklində uzunmüddətli məqsədlər müəyyənləşdirilmişdir. Məzmun mövzuların (yarımmövzuların), məsələlərin və yarımməsələlərin şəklində təsvir olunur. Milli Tədris Planı icbari mövzuları müəyyənləşdirir. Mövzuların müvafiq məsələlərini isə məktəblərin özləri seçirlər.

Hər bir mövzunu nəticələrin əldə edilməsi indikatorları müşayiət edir. Onlar müəyyən edirlər ki, təlim-tədris prosesində nəyi qiymətləndirmək lazımdır. İndikatorlar hədəf anlayışlarına əsasən qruplaşdırılmışlar.

**Pillənin nəticələri**

Baza pilləsində standartda yazılmış hər bir nəticənin əvvəlində indeks verilir ki, bu da fənni, tədris mərhələsini və standartın nəticə nömrəsini göstərir; məs., **Tar.Ort.1:**

**„Tar.“** – Tarix fənnini göstərir;

**„Ort.“** – orta pilləni göstərir;

**„1“** – standartın nəticə nömrəsini göstərir.

| **Tarix standartının orta pillə nəticələri** | | |
|---|---|---|
| **Nəticələrin indeksi** | **Nəticələr** | **Hədəf anlayışları** |
| **Tar.ort.1** | **Şagird bacarmalıdır:**<br>Öz fikirlərini/mövqelərini əsaslandırmaq üçün tarixi mənbədən istifadə etməyi; yeni mənbələr/sübutlar aşkar edildiyi halda, hər hansı bir hadisənin yeni şəkildə dərk oluna/yenidən qiymətləndirilə biləcəyinin dərk edilməsini tarixşünaslığın inkişaf qanunauyğunluqları ilə əlaqələndirməyi; | **Tarixi mənbə** (Tar.ort.1,2,4,5) |
| **Tar.ort.2** | Tarixi hadisələrin analizində xronoloji vahidlər və tarixi-coğrafi terminlərdən adekvat istifadə etməyi; dəyişkənlik fenomenini dərk etmək üçün tarixi proseslərdə məkan-zaman aspektlərini tədqiq etməyi; | **Vaxt (Tarixi dövr)** (Tar. Ort. 1,2,3,4,5,6) |
| **Tar.ort.3** | Müxtəlif tarixi dövr və müasirlikdə mövcud tipik oxşar hadisələrin və proseslərin qarşılıqlı təhlili üçün tarixi hadisəni/prosesləri ayırd etməyi və tipoloji qruplaşdırmağı (siyasi, sosial, iqtisadi, mədəni və s. əlamətlə); | **Məkan (mühit, ərazi)** (Tar.Ort.1,2,3,4,5,6) |
| **Tar.ort.4** | Multi-perspektiv yanaşmaların üstünlüyünü dərk etmək üçün eyni tarixi hadisənin/prosesin/şəxsiyyətin fəaliyyətini fərqli şərh etməyi, analiz etməyi və qiymətləndirməyi; | **Cəmiyyət** (Tar.Ort.1,2,3,4,5,6) |
| **Tar.ort.5** | Həm konkret dövrdə yaşayan insanların gözü ilə, eləcə də zəmanədən uzaq, bir tərəfdən dövrün unikallığını, digər tərəfdən isə universal ideyaların inkişafının qanunauyğunluqlarını dərk etmək üçün tarixi hadisələri və prosesləri göstərməyi/qiymətləndirməyi. | **Hakimiyyət** (Tar.Ort.3,4,5,6,7,8) |
| **Tar.ort.6** | Ölkənin keçmişini, indiki vaxtını və gələcəyini vahid kontekstdə dərk etməyi; Tarixi misallara istinad edərək demokratiya prinsiplərinin (mədəni, etnik və dini müxtəlifliyə qarşı pozitiv yanaşma, bərabərlik, sülh prosesləri) dövlətçiliklə və vətənpərvərliklə əlaqələndirməyi. | **Tarixi hadisə / proses** (Tar.Ort.3,4,5,6) |

## İcbari mövzular:

„Tarix“ və „Gürcüstan tarixi“ kursunun təlim-tədrisi paralel keçirilir. Aşağıda verilən cədvəl göstərir ki, hansı icbari mövzular qarşılıqlı öyrənilməlidir.

| Tarix | Gürcüstan tarixi |
|---|---|
| **X sinif** | **X sinif** |
| 1. Tarixöncəsi və Qədim Şərq | Gürcüstan Daş və Bürünc dövründə |
| 2. Antik dövr | Gürcüstan Antik Dövrdə (eramızın III əsrinə qədər) |
| 3. Son Antik dövr və Erkən Orta Əsrlər | Gürcüstan Son Antik Dövrdə və Erkən Orta Əsrlər dövründə (1014-cü ilə qədər) |
| **XI sinif** | **XI sinif** |
| 4. Orta Əsrlər | Gürcüstanda inkişaf etmiş orta əsrlər |
| 5. Son Orta Əsrlər və Erkən Yeni Dövr | Gürcüstan XV-XVIII əsrlərdə |
| 6. “Uzun XIX əsr” | Gürcüstan Rusiya İmperiyasının tərkibində |
| **XII sinif** | **XII sinif** |
| 7. “Qısa XX əsr” | Gürcüstan Demokratik Respublikası<br>Gürcüstan Sovet İttifaqında |
| 8. Dünya minilliyin astanasında | Gürcüstan və müasir dünya |

Təlim-tədris prosesində məktəblər mövzuların yuxarıda təklif edilən ardıcıllığına riayət etməlidirlər.

**Milli Tədris Planı mövzuları genişləndirmək üçün lazımi məsələləri icbari şəkildə müəyyənləşdirmir. Belə ki, orta pillədə Müəllim kitabında icbari mövzuların və qiymətləndirmə indikatorlarının əlaqələndirici cədvəllərini təqdim edirik.**

**Hər bir cədvəldə qiymətləndirmə indikatorları verilir və bunlar da nəticələrin konkret mövzuda gerçəkləşdirildiyini göstərir.**

DÜNYA TARİXİ

## X SİNİF

| Mövzu: Tarixöncəsi və Qədim Şərq |
| --- |
| **Mövzu çərçivəsində nəticələrin əldə edilməsi indikatorları** |
| **Mənbə** – şagird bacarmalıdır:<br>● müxtəlif növ mənbələrə *(arxeoloji məlumatlar, yazılı mənbələr, epiqrafik material)* istinad edərək tarixöncəsi və Qədim Şərq dövrünün tarixi hadisələri/prosesləri analiz etməyi;<br>**Vaxt** – şagird bacarmalıdır:<br>● tarixöncəsi dövr və Qədim Şərq dövrü ilə bağlı tarixi hadisələrin/proseslərin dövrləşdirilməsini müxtəlif sistemlə əlaqələndirməyi (məsələn, arxeoloji dövrləşdirmə ilə; tarixi dövrləşdirmə ilə);<br>● dünya tarixinin dövrləşdirmə sxemlərini Gürcüstan tarixinin dövrləşdirmə sistemi ilə əlaqələndirməyi;<br>● tairxöncəsi və Qədim Şərq dövründə dəyişkənlik dövrünün fenomeninin spesifik qavranılmasına səbəb olan amilləri analiz etməyi;<br>**Məkan** – şagird bacarmalıdır:<br>● tarixöncəsi/Bürünc dövrü ilə bağlı hadisələri/prosesləri müzakirə etdikdə uyğun tarixi-coğrafi terminlərdən istifadə etməyi;<br>● Daş və bürünc dövrü üçün əsas əhəmiyyət kəsb edən tarixi-coğrafi məkanların (o cümlədən Qafqazın) əhəmiyyətini xarakterizə etməyi;<br>● Qədim Şərq dövründə coğrafi biliyin inkişafı üzrə müzakirə aparmağı;<br>**Cəmiyyət** – şagird bacarmalıdır:<br>● Tarixöncəsi/Bürünc dövrünün cəmiyyətinin xüsusiyyətlərinin *(mənsubiyyət vasitələri, "mədəni başqa" fenomeni, sosial təbəqələr, gündəlik həyat)* ayrılması və başqa tarixi dövrlərin cəmiyyətlə müqayisəsi;<br>**Hakimiyyət** – şagird bacarmalıdır:<br>● Hakimiyyət fenomeni ilə bağlı məsələlərin *(simvollar, hakimiyyət strukturları, hakimiyyət bölgüsü, hakimiyyət uğrunda mübarizə formaları, hakimiyyət fenomeninə olan yanaşma),* Qədim Şərq dövrünün Gürcüstan və Yaxın Şərq ölkələrinin misallarına istinad edərək analiz etməyi;<br>**Tarixi hadisə / proses –** şagird bacarmalıdır:<br>● Tarixöncəsi/Bürünc dövrü ilə bağlı sosial və siyasi hadisələri və prosesləri analiz etməyi *(öyrənilləsi mövzu ilə bağlı faktların və hadisələrin tipoloji qruplaşdırılması; müxtəlif perspektivdən analiz; bunların arasında səbəb-nəticə əlaqələrinin təyin edilməsi; öyrənilləsi mövzunun tarixi əhəmiyyətinin dərk edilməsi; hadisənin müasir gözlə şərhi);* onları müxtəlif dövrün Gürcüstan tarixinin məsələləri ilə əlaqələndirilməsi/müqayisəsi. |

GÜRCÜSTAN TARİXİ

# X SİNİF

| Mövzu: Gürcüstan Daş və Bürünc dövründə |
|---|
| Mövzu Daş və Bürünc dövründə Gürcüstan tarixi ilə bağlı əsas hadisələrin və proseslərin tədqiqini nəzərdə tutur. Tədqiqat məsələlərinə istinad edərək dövrün xüsusiyyətlərinin/əzmlərinin/xüsusiyyətlərinin göstərilməsi. |
| **Mövzu çərçivəsində nəticələrin əldə edilməsi indikatorları**<br>**Mənbə/ interpretasiya** – şagird bacarmalıdır:<br>● Müxtəlif növ mənbəyə *(arxeoloji məlumatlar, yazılı qaynaqlar, epiqrafik material)* istinad edərək Daş və Bürünc dövrünün Gürcüstan tarixi üçün aktual problemlərin tədqiqatı *(tədqiqat poblemini həll etmək üçün kompleks məsələsinin qarşıya qoyulması, biliklərin təşkili və şəxsi nəticələrinin istorioqrafiyada söylənilən fikirlərlə əlaqələndirilməsi);*<br>**Vaxt** – şagird bacarmalıdır:<br>● Daş və Bürünc dövrünün Gürcüstan tarixi ilə bağlı problemli məsələlərin dövrləşdirilməsinin müxtəlif sistemlə əlaqələndirilməsi (arxeoloji dövrləşdirmə; tarixi dövrləşdirmə); ötən və növbəti dövrün hadisələri ilə əlaqədə onların analizi;<br>**Məkan** – şagird bacarmalıdır:<br>● Daş və bürünc dövrünün Gürcüstan tarixi ilə bağlı problemli məsələlərin tədqiqatı zamanı düzgün tarixi-coğrafi terminlərdən istifadə etməyi; əsas əhəmiyyətli tarixi-coğrafi məkanların (məsələn, “Bərəkətli Hilal”, Mesopotamiya, Yaxın Şərq və s.) əhəmiyyətinin xarakterizə edilməsi;<br>**Cəmiyyət** – şagird bacarmalıdır:<br>● Daş və Bürünc dövründə Gürcüstan ərazisində mövcud cəmiyyətin xüsusiyyətlərini *(dünyagörüşü, mənsubiyyət vasitələri, “mədəni başqa” ilə münasibət)* və gündəlik həyatı *(təsərrüfat formaları, kommunikasiya vasitələri, yaşayış növləri, ənənələr və s.)* araşdırmağı; tarixi dövrün/arxeoloji dövrün müasirlərinin gözü ilə görməyi;<br>**Hakimiyyət** – şagird bacarmalıdır:<br>● Hakimiyyət fenomeni ilə bağlı məsələləri (simvollar, hakimiyyət strukturları, hakimiyyət bölgüsü, hakimiyyət üçün mübarizə formaları, hakimiyyət fenomeninə olan yanaşma) araşdırmağı, Daş və Bürünc dövrünün misallarından istifadə etməklə;<br>**Tarixi hadisə / proses** – şagird bacarmalıdır:<br>● Daş və Bürünc dövrünün Gürcüstan tarixi ilə bağlı hadisələrin/proseslərin araşdırılması (məsələn, Gürcüstan ərazisində “kompleks cəmiyyəti” nə vaxt meydana gəlib); tədqiqat mövzusu ilə bağlı faktları və hadisələri tipoloji qruplaşdırmağı; müxtəlif perspektivdən analiz etməyi; o cümlədən səbəb-nəticə əlaqələrini təyin etməyi; tədqiqat mövzusunun tarixi əhəmiyyətini dərk etməyi; hadisənin müasir gözlə şərh edilməsi). |

| Mövzu: Antik Dövr (eramızın III əsrinə qədər) |
|---|
| **Mövzu çərçivəsində nəticələrin əldə edilməsi indikatorları** |

**Mənbə –** şagird bacarmalıdır:

- müxtəlif növ mənbələrə *(arxeoloji məlumatlar, yazılı mənbələr, epiqrafik material, numizmatik material)* istinad edərək Antik dövrün tarixi hadisələrini/proseslərini analiz etməyi;

**Vaxt** – şagird bacarmalıdır:

- Antik dövrlə bağlı tarixi hadisələri/prosesləri dövrləşmənin müxtəlif sistemi ilə (məsələn, arxeoloji dövrləşdirmə ilə; tarixi dövrləşmə ilə) əlaqələndirməyi;
- Dünya tarixinin dövrləşdirmə sxemlərini Gürcüstan tarixinin dövrləşmə sistemi ilə əlaqələndirməyi;
- Antik dövrdə dəyişkənliyin/vaxt fenomeninin spesifik qavranılmasına səbəb olan amilləri analiz etməyi;

**Məkan** – şagird bacarmalıdır:

- Antik dövrlə bağlı hadisələri/prosesləri müzakirə etdikdə düzgün tarixi-coğrafi terminlərdən istifadə etməyi;
- Antik Dövr üçün əsas əhəmiyyətli tarixi-coğrafi məkanların (o cümlədən Qafqazın) əhəmiyyətini xarakterizə etməyi;
- Antik Dövrdə coğrafi biliyin inkişafı üzrə müzakirə etməyi;

**Cəmiyyət** – şagird bacarmalıdır:

- Antik Dövrün cəmiyyətinin xüsusiyyətlərini (mənsubiyyət vasitələri, "mədəni başqa" fenomeni, sosial təbəqələr, gündəlik həyat) ayrımağı və başqa tarixi dövrlərin cəmiyyətləri ilə müqayisə etməyi;

**Hakimiyyət –** şagird bacarmalıdır:

- Hakimiyyət fenomeni ilə bağlı məsələlərin *(simvollar, hakimiyyət strukturları, hakimiyyət bölgüsü, hakimiyyət uğrunda mübarizə formaları, hakimiyyət fenomeninə olan yanaşma),* Antik dövrün Gürcüstanının, Yaxın Şərq və Aralıqdənizsahili ölkələrinin misallarına istinad edərək analiz etməyi;

**Tarixi hadisə / proses** – şagird bacarmalıdır:

- Antik Dövrlə bağlı sosial və siyasi hadisələri və prosesləri analiz etməyi *(öyrəniləsi mövzu ilə bağlı faktların və hadisələrin tipoloji qruplaşdırılması; müxtəlif perspektivdən analiz; bunların arasında səbəb-nəticə əlaqələrinin təyin edilməsi; öyrəniləsi mövzunun tarixi əhəmiyyətinin dərk edilməsi; hadisənin müasir gözlə şərhi);* onları müvafiq dövrün Gürcüstan tarixinin məsələləri ilə əlaqələndirilməsi/müqayisəsi.

| Mövzu: Gürcüstan Antik dövrdə |
| --- |
| Mövzu Antik dövrün Gürcüstan tarixi ilə bağlı əsas hadisələrin və proseslərin tədqiqini nəzərdə tutur. Tədqiqat məsələlərinə istinad edərək dövrün xüsusiyyətlərinin/əzmlərinin/xüsusiyyətlərinin göstərilməsini də. |

**Mövzu çərçivəsində nəticələrin əldə edilməsi indikatorları**

**Mənbə/ interpretasi**ya – şagird bacarmalıdır:

- müxtəlif növ mənbəyə *(arxeoloji məlumatlar, yazılı qaynaqlar, epiqrafik material)* istinad edərək Antik dövrün Gürcüstan tarixi üçün aktual problemlərin tədqiqatı *(tədqiqat poblemini həll etmək üçün kompleks məsələsinin qarşıya qoyulması, biliklərin təşkili və şəxsi nəticələrinin istorioqrafiyada söylənilən fikirlərlə əlaqələndirilməsi);*

**Vaxt** – şagird bacarmalıdır:

- Antik dövrün Gürcüstan tarixi ilə bağlı problemli məsələlərin dövrləşmənin müxtəlif sistemi ilə əlaqələndirməyi; bunları ötən və gələcək dövrün tarixi hadisələri ilə əlaqədə analiz etməyi;

**Məkan** – şagird bacarmalıdır:

- Antik dövrün Gürcüstan tarixi ilə bağlı problemli məsələləri öyrəndikdə, düzgün tarixi-coğrafi terminlərdən istifadə etməyi; əsas əhəmiyyətli tarixi-coğrafi məkanları (məsələn, Kolxeti, İberiya, Ponto, Ermənistan) xarakterizə etməyi;

**Cəmiyyət –** şagird bacarmalıdır:

- Gürcüstan ərazisində mövcud cəmiyyətin xüsusiyyətlərini *(dünyagörüşü, mənsubiyyət vasitələri, "mədəni başqa" ilə münasibət)* və gündəlik həyatı *(təsərrüfat formaları, kommunikasiya vasitələri, yaşayış növləri, ənənələr və s.)* araşdırmağı; tarixi dövrü müasirlərinin gözü ilə görməyi;

**Hakimiyyət – ş**agird bacarmalıdır:

- Hakimiyyət fenomeni ilə bağlı məsələlərin *(simvollar, hakimiyyət strukturları, hakimiyyət bölgüsü, hakimiyyət uğrunda mübarizə formaları, hakimiyyət fenomeninə olan yanaşma),* Antik dövrün misallarına istinad edərək analiz etməyi;

**Tarixi hadisə / proses** – şagird bacarmalıdır:

- Antik dövrün Gürcüstanı ilə bağlı sosial və siyasi hadisələri və prosesləri analiz etməyi (məsələn, nə üçün yunanlar Gürcüstan ərazisində yeni tikililərin əsasını qoymuşdular?); tədqiqat mövzusu ilə bağlı faktları və hadisələri tipoloji qruplaşdırmağı; müxtəlif perspektivdən analiz etməyi; o cümlədən səbəb-nəticə əlaqələrini təyin etməyi; tədqiqat mövzusunun tarixi əhəmiyyətini dərk etməyi; hadisəni müasir gözlə şərh etməyi.

## Mövzu: Son Antik dövr və Erkən Orta Əsrlər (1014-cü ilə qədər)

### Mövzu çərçivəsində nəticələrin əldə edilməsi indikatorları

**Mənbə** – şagird bacarmalıdır:

- müxtəlif növ mənbəyə *(arxeoloji məlumatlar, yazılı qaynaqlar, epiqrafik material, numizmatik material)* istinad edərək Son Antik dövrün və Erkən Orta əsrlərin tarixi hadisələrini/proseslərini analiz etməyi;

**Vaxt** – şagird bacarmalıdır:

- Son Antik dövr və Erkən Orta əsrlərlə bağlı tarixi hadisələri/prosesləri dövrləşmənin müxtəlif sistemi ilə əlaqələndirməyi (məsələn, tarixi dövrləşmə ilə, dini dövrləşmə);
- dünya tarixinin dövrləşdirilməsi sxemlərini Gürcüstan tarixinin dövrləşməsi sistemi ilə əlaqələndirməyi;
- Son Antik Dövrdə və Erkən Orta Əsrlərdə dəyişkənlik/vaxt fenomeninin spesifik qavranılmasına səbəb olan amilləri analiz etməyi;

**Məkan** – şagird bacarmalıdır:

- Son Antik dövr və Erkən Orta əsrlərlə bağlı hadisələri/prosesləri müzakirə etdikdə düzgün tarixi-coğrafi terminlərdən istifadə etməyi;
- Son Antik dövr və Erkən Orta əsrlər üçün əsas əhəmiyyətli tarixi-coğrafi məkanların (o cümlədən Qafqazın) əhəmiyyətini xarakterizə etməyi;
- Son Antik dövrün və Erkən Orta əsrlərdə coğrafi biliyin inkişafı üzrə müzakirə etməyi;

**Cəmiyyət** – şagird bacarmalıdır:

- Son Antik Dövr və Orta Əsrlərin dövrünün cəmiyyətinin xüsusiyyətlərini *(mənsubiyyət vasitələri, "mədəni başqa" fenomeni, sosial təbəqələr, gündəlik həyat)* ayrımağı və başqa tarixi dövrlərin cəmiyyətləri ilə müqayisə etməyi;

**Hakimiyyət – şagird bacarmalıdır:**

- Son Antik Dövrün və Erkən Orta Əsrlərdə hakimiyyətlə bağlı məsələləri *(simvollar, hakimiyyət strukturları, hakimiyyət bölgüsü, hakimiyyət üçün mübarizə formaları, hakimiyyət fenomeninə olan yanaşma)* Gürcüstanın, Yaxın Şərqin və Avropa ölkələrin misallarına istinad edərək analiz etməyi;

**Tarixi hadisə / proses** – şagird bacarmalıdır:

- Son Antik dövrlə və Erkən Orta əsrlərlə bağlı sosial və siyasi hadisələri və prosesləri analiz etməyi *(öyrənilәsi mövzu ilə bağlı faktların və hadisələrin tipoloji qruplaşdırılması; müxtəlif perspektivdən analiz; bunların arasında səbəb-nəticə əlaqələrinin təyin edilməsi; öyrənilәsi mövzunun tarixi əhəmiyyətinin dərk edilməsi; hadisənin müasir gözlə şərhi);* onları müvafiq dövrün Gürcüstan tarixinin məsələləri ilə əlaqələndirilməsi/müqayisəsi.

| Mövzu: Son Antik və Erkən Orta Əsrlər dövründə Gürcüstan (1014-cü ilə) |
|---|
| Mövzu Son Antik və Erkən Orta Əsrlərin dövrünün Gürcüstan tarixi ilə bağlı əsas hadisələrin və proseslərin tədqiqatını nəzərdə tutur. Tədqiqat məsələlərinə istinad edərək dövrün xüsusiyyətlərini/əzmlərini/özünəməxsusluqları göstərməyi. |

**Mövzu çərçivəsində nəticələrin əldə edilməsi indikatorları**

**Mənbə/ interpretasi**ya – şagird bacarmalıdır:

- müxtəlif növ mənbəyə *(arxeoloji məlumatlar, yazılı qaynaqlar, epiqrafik material)* istinad edərək Son Antik Dövrün və Erkən Orta Əsrlər dövrünün Gürcüstan tarixi üçün aktual problemlərin tədqiqatı *(tədqiqat poblemini həll etmək üçün kompleks məsələsinin qarşıya qoyulması, biliklərin təşkili və şəxsi nəticələrinin istorioqrafiyada söylənilən fikirlərlə əlaqələndirilməsi);*

**Vaxt** – şagird bacarmalıdır:

- Son Antik dövrün və Erkən Orta Əsrlərin Gürcüstan tarixi ilə bağlı problemli məsələlərini dövrləşmənin müxtəlif sistemi ilə əlaqələndirməyi; bunları ötən və gələcək dövrün tarixi hadisələrii ilə əlaqədə analiz etməyi;

**Məkan** – şagird bacarmalıdır:

- Son Antik dövrün və Erkən Orta Əsrlərin Gürcüstan tarixi ilə bağlı problemli məsələlərini (məsələn, Dəryal qapısı, Dərbənd qapısı) öyrəndikdə, düzgün tarixi-coğrafi terminlərdən istifadə etməyi; əsas əhəmiyyətli tarixi-coğrafi məkanları xarakterizə etməyi;

**Cəmiyyət** – şagird bacarmalıdır:

- Son Antik dövrün və Erkən Orta Əsrlərin cəmiyyətinin xüsusiyyətlərini *(dünyagörüşü, mənsubiyyət vasitələri, "mədəni başqa" ilə münasibət)* və gündəlik həyatı *(təsərrüfat formaları, kommunikasiya vasitələri, yaşayış növləri, ənənələr və s.)* araşdırmağı; tarixi dövrün onun müasirlərinin gözü ilə görməyi;

**Hakimiyyət – ş**agird bacarmalıdır:

- Hakimiyyət fenomeni ilə bağlı məsələlərin *(simvollar, hakimiyyət strukturları, hakimiyyət bölgüsü, hakimiyyət uğrunda mübarizə formaları, hakimiyyət fenomeninə olan yanaşma),* Son Antik Dövrün və Erkən Orta Əsrlərin dövrünün misallarına istinad edərək analiz etməyi;

**Tarixi hadisə / proses** – şagird bacarmalıdır:

- Son Antik dövrün və Erkən Orta Əsrlərin Gürcüstan tarixi ilə bağlı sosial və siyasi hadisələri və prosesləri araşdırmağı (məsələn, Gürcüstan Son Antik dövrdə və Erkən Orta Əsrlərin dövründə sosial-siyasi məkanların hissəsini təqdim edirdi); tədqiqat mövzusu ilə bağlı faktları və hadisələri tipoloji qruplaşdırmağı; müxtəlif perspektivdən analiz etməyi; o cümlədən səbəb-nəticə əlaqələrini təyin etməyi; tədqiqat mövzusunun tarixi əhəmiyyətli dərk etməyi; hadisəni müasir gözlə şərh etməyi.

## XI SİNİF

| Mövzu: Orta Əsrlər |
|---|
| **Mövzu çərçivəsində nəticələrin əldə edilməsi indikatorları** |

**Mənbə** – şagird bacarmalıdır:

- müxtəlif növ mənbəyə (arxeoloji məlumatlar, yazılı qaynaqlar, epiqrafik material, numizmatik material) istinad edərək Orta Əsrlərin tarixi hadisələrini/proseslərini analiz etməyi;

**Vaxt** – şagird bacarmalıdır:

- Orta Əsrlərlə bağlı tarixi hadisələri/prosesləri dövrləşmənin müxtəlif sistemi ilə əlaqələndirməyi (məsələn, tarixi dövrləşmə ilə, dini dövrləşmə ilə);
- dünya tarixinin dövrləşməsinin sxemlərini Gürcüstan tarixinin dövrləşməsi sistemi ilə əlaqələndirməyi;
- Orta Əsrlərdə dəyişkənlik/vaxt fenomeninin spesifik qavranılmasına səbəb olan amilləri analiz etməyi;

**Məkan** – şagird bacarmalıdır:

- Orta Əsrlərlə bağlı hadisələri/prosesləri müzakirə etdikdə düzgün tarixi-coğrafi terminlərdən istifadə etməyi;
- Orta Əsrlər üçün əsas əhəmiyyətli tarixi-coğrafi məkanların (o cümlədən Qafqazın) əhəmiyyətini xarakterizə etməyi;
- Orta Əsrlərdə coğrafi biliyin inkişafı üzrə müzakirə aparmağı.

**Cəmiyyət** – şagird bacarmalıdır:

- Orta Əsrlərin dövrünün cəmiyyətinin xüsusiyyətlərini *(mənsubiyyət vasitələri, "mədəni başqa" fenomeni, sosial təbəqələr, gündəlik həyat)* ayrımağı və başqa tarixi dövrlərin cəmiyyətləri ilə müqayisə etməyi;

**Hakimiyyət – şagird bacarmalıdır:**

- Orta Əsrlərdə hakimiyyətlə bağlı məsələləri *(simvollar, hakimiyyət strukturları, hakimiyyət bölgüsü, hakimiyyət üçün mübarizə formaları, hakimiyyət fenomeninə olan yanaşma)* Orta Əsrlər Gürcüstanının, Yaxın Şərq və Avropa ölkələrinin misallarına istinad edərək analiz etməyi;

**Tarixi hadisə / proses** – şagird bacarmalıdır:

- Orta Əsrlərlə bağlı sosial və siyasi hadisələri və prosesləri analiz etməyi (öyrənilməsi mövzu ilə bağlı faktların və hadisələrin tipoloji qruplaşdırılması; müxtəlif perspektivdən analiz; bunların arasında səbəb-nəticə əlaqələrinin təyin edilməsi; öyrənilməsi mövzunun tarixi əhəmiyyətinin dərk edilməsi; hadisənin müasir gözlə şərhi); onları müvafiq dövrün Gürcüstan tarixinin məsələləri ilə əlaqələndirilməsi/müqayisəsi.

## XI SİNİF

| Mövzu: Gürcüstanda inkişaf etmiş Orta Əsrlər |
|---|
| Mövzu inkişaf etmiş Orta Əsrlərin Gürcüstan tarixi ilə bağlı əsas hadisələrin və proseslərin tədqiqatını nəzərdə tutur. Tədqiqat məsələlərinə istinad edərək dövrün xüsusiyyətlərini/əzmlərini/özünəməxsusluqları göstərməyi. |

**Mövzu çərçivəsində nəticələrin əldə edilməsi indikatorları**

**Mənbə/ interpretas**iya – şagird bacarmalıdır:

- müxtəlif növ mənbəyə *(arxeoloji məlumatlar, yazılı qaynaqlar, epiqrafik material)* istinad edərək Orta Əsrlər dövrünün Gürcüstan tarixi üçün aktual problemlərin tədqiqatı *(tədqiqat poblemini həll etmək üçün kompleks məsələsinin qarşıya qoyulması, biliklərin təşkili və şəxsi nəticələrinin istorioqrafiyada söylənilən fikirlərlə əlaqələndirilməsi);*

**Vaxt** – şagird bacarmalıdır:

- Orta Əsrlərin Gürcüstan tarixi ilə bağlı problemli məsələlərin dövrləşmənin müxtəlif sistemi ilə əlaqələndirməyi; bunları ötən və gələcək dövrün tarixi hadisələrlə əlaqədə analiz etməyi;

**Məkan** – şagird bacarmalıdır:

- Orta Əsrlərin Gürcüstan tarixi ilə bağlı problemli məsələləri öyrəndikdə, düzgün tarixi-coğrafi terminlərdən (məsələn, Samsğe-Saatabaqo, Kldekari Saeristavo) istifadə etməyi; əsas əhəmiyyətli tarixi-coğrafi məkanları xarakterizə etməyi;

**Cəmiyyət –** şagird bacarmalıdır:

- Orta Əsrlərin cəmiyyətinin xüsusiyyətlərini *(dünyagörüşü, mənsubiyyət vasitələri, "mədəni başqa" ilə münasibət)* və gündəlik həyatı *(təsərrüfat formaları, kommunikasiya vasitələri, yaşayış növləri, ənənələr və s.)* araşdırmağı; tarixi dövrün onun müasirlərinin gözü ilə görməyi;

**Hakimiyyət – ş**agird bacarmalıdır:

- Hakimiyyət fenomeni ilə bağlı məsələlərin *(simvollar, hakimiyyət strukturları, hakimiyyət bölgüsü, hakimiyyət uğrunda mübarizə formaları, hakimiyyət fenomeninə olan yanaşma),* Orta Əsrlərin dövrünün Gürcüstan tarixinin misallarına istinad edərək analiz etməyi;

**Tarixi hadisə / proses** – şagird bacarmalıdır:

- Orta Əsrlərin Gürcüstan tarixi ilə bağlı sosial və siyasi hadisələrini və proseslərini araşdırmağı (məsələn, Gürcüstanda feodal münasibətlər nə vaxtdan formalaşırdı; onun hansı xüsusiyyətləri var idi?); tədqiqat mövzusu ilə bağlı faktları və hadisələri tipoloji qruplaşdırmağı; müxtəlif perspektivdən analiz etməyi; o cümlədən səbəb-nəticə əlaqələrini təyin etməyi; tədqiqat mövzusunun tarixi əhəmiyyətini dərk etməyi; hadisəni müasir nəzərlə şərh etməyi.

| Mövzu: Son Orta Əsrlər və Erkən Yeni dövr |
| --- |
| **Mövzu çərçivəsində nəticələrin əldə edilməsi indikatorları**<br><br>**Mənbə** – şagird bacarmalıdır:<br>● müxtəlif növ mənbəyə *(məsələn, yazılı qaynaqlar)* istinad edərək Orta Əsrlərlə və Erkən Yeni Dövrlə bağlı tarixi hadisələri/prosesləri analiz etməyi;<br><br>**Vaxt** – şagird bacarmalıdır:<br>● Son Orta əsrlərin və Erkən Yeni dövrün tarixi hadisələrini/proseslərini dövrləşmənin müxtəlif sistemi ilə əlaqələndirməyi (məsələn, tarixi dövrləşmə ilə, dini dövrləşmə ilə);<br>● dünya tarixinin dövrləşməsinin sxemlərini Gürcüstan tarixinin dövrləşməsi sistemi ilə əlaqələndirməyi;<br>● Son Orta Əsrlərdə və Erkən Yeni Dövrdə dəyişkənlik/vaxt fenomeninin spesifik qavranılmasına səbəb olan amilləri analiz etməyi;<br><br>**Məkan** – şagird bacarmalıdır:<br>● Son Orta Əsrlərlə və Erkən Yeni Dövrlə bağlı hadisələri/prosesləri müzakirə etdikdə düzgün tarixi-coğrafi terminlərdən istifadə etməyi;<br>● Son Orta Əsrlər və Erkən Yeni dövr üçün əsas əhəmiyyətli tarixi-coğrafi məkanların (o cümlədən Qafqazın) əhəmiyyətini xarakterizə etməyi;<br>● Son Orta Əsrlərdə və Erkən Yeni Dövrdə coğrafi biliyin inkişafı üzrə müzakirə aparmağı.<br><br>**Cəmiyyət** – şagird bacarmalıdır:<br>● Son Orta Əsrlərin və Erkən Yeni Dövrün cəmiyyətinin xüsusiyyətlərini *(mənsubiyyət vasitələri, "mədəni başqa" fenomeni, sosial təbəqələr, gündəlik həyat)* ayrımağı və başqa tarixi dövrlərin cəmiyyətləri ilə müqayisə etməyi;<br><br>**Hakimiyyət** – şagird bacarmalıdır:<br>● Hakimiyyət fenomeni ilə bağlı məsələləri *(simvollar, hakimiyyət strukturları, hakimiyyət bölgüsü, hakimiyyət üçün mübarizə formaları, hakimiyyət fenomeninə olan yanaşma)* Son Orta Əsrlərin və Erkən Yeni Dövrün Gürcüstanının, Yaxın Şərq və Avropa ölkələrinin misallarına istinad edərək analiz etməyi;<br><br>**Tarixi hadisə / proses** – şagird bacarmalıdır:<br>● Son Orta Əsrlərin və Erkən Yeni dövrün Gürcüstanı ilə bağlı sosial və siyasi hadisələri və prosesləri analiz etməyi (öyrənilәsi mövzu ilə bağlı faktların və hadisələrin tipoloji qruplaşdırılması; müxtəlif perspektivdən analiz; bunların arasında səbəb-nəticə əlaqələrinin təyin edilməsi; öyrəniləsi mövzunun tarixi əhəmiyyətinin dərk edilməsi; hadisənin müasir gözlə şərhi); onları müvafiq dövrün Gürcüstan tarixinin məsələləri ilə əlaqələndirilməsi/müqayisəsi. |

| Mövzu: Gürcüstan XV-XVIII əsrlərdə |
| --- |
| Mövzu "Uzunmüddətli Orta Əsrlər" dövrünün (XIV-XVIII əsrlər) Gürcüstan tarixi ilə bağlı əsas hadisələrin və proseslərin tədqiqatını nəzərdə tutur. Tədqiqat məsələlərinə istinad edərək dövrün xüsusiyyətlərini/əzmlərini/özünəməxsusluqları göstərməyi. |

**Mövzu çərçivəsində nəticələrin əldə edilməsi indikatorları**

**Mənbə/ interpretas**iya – şagird bacarmalıdır:

- müxtəlif növ mənbəyə *(arxeoloji məlumatlar, yazılı qaynaqlar, epiqrafik material)* istinad edərək XV-XVIII əsrlərin Gürcüstan tarixi üçün aktual problemlərin tədqiqatı *(tədqiqat poblemini həll etmək üçün kompleks məsələsinin qarşıya qoyulması, biliklərin təşkili və şəxsi nəticələrinin istorioqrafiyada söylənilən fikirlərlə əlaqələndirilməsi);*

**Vaxt** – şagird bacarmalıdır:

- XV-VIII əsrlərin Gürcüstan tarixi ilə bağlı problemli məsələləri dövrləşmənin müxtəlif sistemi ilə əlaqələndirməyi; bunları ötən və gələcək dövrün tarixi hadisələrlə əlaqədə analiz etməyi;

**Məkan** – şagird bacarmalıdır:

- XV-VIII əsrlərin Gürcüstan tarixi ilə bağlı problemli məsələləri öyrəndikdə, düzgün tarixi-coğrafi terminlərdən (məsələn, Sabaratiano, mülki) istifadə etməyi; əsas əhəmiyyətli tarixi-coğrafi məkanları xarakterizə etməyi;

**Cəmiyyət** – şagird bacarmalıdır:

- XV-VIII əsrlərdə Gürcüstan cəmiyyətinin xüsusiyyətlərini *(dünyagörüşü, mənsubiyyət vasitələri, "mədəni başqa" ilə münasibət)* və gündəlik həyatı *(təsərrüfat formaları, kommunikasiya vasitələri, yaşayış növləri, ənənələr və s.)* araşdırmağı; tarixi dövrün onun müasirlərinin gözü ilə görməyi;

**Hakimiyyət – ş**agird bacarmalıdır:

- Hakimiyyət fenomeni ilə bağlı məsələləri *(simvollar, hakimiyyət strukturları, hakimiyyət bölgüsü, hakimiyyət uğrunda mübarizə formaları, hakimiyyət fenomeninə olan yanaşma)* XV-XVIII əsrlərin Gürcüstan tarixinin misallarına istinad edərək analiz etməyi;

**Tarixi hadisə / proses** – şagird bacarmalıdır:

- XV-XVIII əsrlərdə Gürcüstan tarixi ilə bağlı sosial və siyasi hadisələri və prosesləri araşdırmağı (məsələn, nə üçün Gürcüstanda knyazlıqlar yarandı? Nə üçün Gürcüstan knyazlıqlara bölündü?); öyrənilməsi mövzu ilə bağlı faktları və hadisələri tipoloji qruplaşdırmağı; müxtəlif perspektivdən analiz etməyi; bunların arasında səbəb-nəticə əlaqələrini təyin etməyi; öyrənilməsi mövzunun tarixi əhəmiyyətini dərk etməyi; hadisəni müasir gözlə şərh etməyi.

| Mövzu: „Uzunmüddətli XIX əsr“ |
| --- |

**Mövzu çərçivəsində nəticələrin əldə edilməsi indikatorları**

**Mənbə** – şagird bacarmalıdır:
- müxtəlif növ qaynaqlara istinad edərək XIX əsrlə (“Uzunmüddətli XIX əsr” nəzərdə tutulur) bağlı tarixi hadisələri/prosesləri analiz etməyi;

**Vaxt** – şagird bacarmalıdır:
- XIX əsrin (“Uzunmüddətli XIX əsr” nəzərdə tutulur) tarixi hadisələrini/proseslərini dövrləşmənin müxtəlif sistemi ilə əlaqələndirməyi);
- dünya tarixinin dövrləşməsinin sxemlərini Gürcüstan tarixinin dövrləşməsi sistemi ilə əlaqələndirməyi;
- XIX əsrdə (“Uzunmüddətli XIX əsr” nəzərdə tutulur) dəyişkənlik/vaxt fenomeninin qavranılmasına təsir göstərən amilləri analiz etməyi;

**Məkan** – şagird bacarmalıdır:
- XIX əsrlə (“Uzunmüddətli XIX əsr” nəzərdə tutulur) bağlı hadisələri/prosesləri müzakirə etdikdə düzgün tarixi-coğrafi terminlərdən istifadə etməyi;
- XIX əsr (“Uzunmüddətli XIX əsr” nəzərdə tutulur) üçün əsas əhəmiyyətli tarixi-coğrafi məkanların (o cümlədən Qafqazın) əhəmiyyətini xarakterizə etməyi;
- XIX əsrdə (“Uzunmüddətli XIX əsr” nəzərdə tutulur) coğrafi biliyin inkişafı üzrə müzakirə aparmağı.

**Cəmiyyət** – şagird bacarmalıdır:
- XIX əsrin (“Uzunmüddətli XIX əsr” nəzərdə tutulur) cəmiyyətinin xüsusiyyətlərini *(mənsubiyyət vasitələri, “mədəni başqa” fenomeni, sosial təbəqələr, gündəlik həyat)* ayrımağı və başqa tarixi dövrlərin cəmiyyətləri ilə müqayisə etməyi;

**Hakimiyyət** – şagird bacarmalıdır:
- Hakimiyyət fenomeni ilə bağlı məsələləri *(simvollar, hakimiyyət strukturları, hakimiyyət bölgüsü, hakimiyyət üçün mübarizə formaları, hakimiyyət fenomeninə olan yanaşma)* XIX əsr (“Uzunmüddətli XIX əsr” nəzərdə tutulur) Gürcüstanının və Avropa ölkələrinin misallarına istinad edərək analiz etməyi;

**Tarixi hadisə / proses** – şagird bacarmalıdır:
- XIX əsrlə (“Uzunmüddətli XIX əsr” nəzərdə tutulur) bağlı sosial və siyasi hadisələri və prosesləri analiz etməyi *(öyrəniləsi mövzu ilə bağlı faktların və hadisələrin tipoloji qruplaşdırılması; müxtəlif perspektivdən analiz; bunların arasında səbəb-nəticə əlaqələrinin təyin edilməsi; öyrəniləsi mövzunun tarixi əhəmiyyətinin dərk edilməsi; hadisənin müasir gözlə şərhi);* onları müvafiq dövrün Gürcüstan tarixinin məsələləri ilə əlaqələndirilməsi/müqayisəsi.

| Mövzu: Gürcüstan Rusiya İmperiyasının tərkibində |
|---|
| Mövzu 1801-1917-ci illərin Gürcüstan tarixi ilə bağlı əsas hadisələrin və proseslərin tədqiqatını nəzərdə tutur. Tədqiqat məsələlərinə istinad edərək dövrün xüsusiyyətlərini/əzmlərini/özünəməxsusluqları göstərməyi. |

**Mövzu çərçivəsində nəticələrin əldə edilməsi indikatorları**

**Mənbə/ interpretasi**ya – şagird bacarmalıdır:

- müxtəlif növ qaynaqlara istinad edərək 1801-1917-ci illərin Gürcüstan tarixi üçün aktual problemləri *(tədqiqat poblemini həll etmək üçün kompleks məsələsinin qarşıya qoyulması, biliklərin təşkili və şəxsi nəticələrinin istorioqrafiyada söylənilən fikirlərlə əlaqələndirilməsi)* araşdırmağı;

**Vaxt** – şagird bacarmalıdır:

- 1801-1917-ci illərin Gürcüstan tarixi ilə bağlı məsələləri dövrləşmənin müxtəlif sistemi ilə əlaqələndirməyi; bunları ötən və gələcək dövrün tarixi hadisələri ilə əlaqədə analiz etməyi;

**Məkan** – şagird bacarmalıdır:

- 1801-1917-ci illərin Gürcüstan tarixi ilə bağlı problemli məsələləri öyrəndikdə, düzgün tarixi-coğrafi terminlərdən (məsələn, Tbilisi quberniyası, Qori mazrası) istifadə etməyi; əsas əhəmiyyətli tarixi-coğrafi məkanları xarakterizə etməyi;

**Cəmiyyət** – şagird bacarmalıdır:

- 1801-1917-ci illərin cəmiyyətinin xüsusiyyətlərini *(dünyagörüşü, mənsubiyyət vasitələri, "mədəni başqa" ilə münasibət)* və gündəlik həyatı *(təsərrüfat formaları, kommunikasiya vasitələri, yaşayış növləri, ənənələr və s.)* araşdırmağı; tarixi dövrü onun müasirlərinin gözü ilə görməyi;

**Hakimiyyət** – şagird bacarmalıdır:

- Hakimiyyət fenomeni ilə bağlı məsələləri *(simvollar, hakimiyyət strukturları, hakimiyyət bölgüsü, hakimiyyət uğrunda mübarizə formaları, hakimiyyət fenomeninə olan yanaşma)* 1801-1917-ci illərin Gürcüstan tarixinin misallarına istinad edərək analiz etməyi;

**Tarixi hadisə / proses** – şagird bacarmalıdır:

- 1801-1917-ci illərdə Gürcüstan tarixi ilə bağlı sosial və siyasi hadisələri və prosesləri araşdırmağı (məsələn, Mixail Vorontsovun islahatları Gürcüstana hansı nəticələri gətirdi); öyrəniləsi mövzu ilə bağlı faktları və hadisələri tipoloji qruplaşdırmağı; müxtəlif perspektivdən analiz etməyi; bunların arasında səbəb-nəticə əlaqələrini təyin etməyi; öyrənilməsi mövzunun tarixi əhəmiyyətini dərk etməyi; hadisəni müasir gözlə şərh etməyi.

## XII SİNİF

| Mövzu: "Qısamüddətli XX əsr" |
| --- |

### Mövzu çərçivəsində nəticələrin əldə edilməsi indikatorları

**Mənbə** – şagird bacarmalıdır:

- müxtəlif növ mənbələrə (məsələn, yazılı mənbələr, audio-foto-fono material) istinad edərək XX əsrlə ("Qısamüddətli XX əsr" nəzərdə tutulur) bağlı tarixi hadisələri/prosesləri analiz etməyi;

**Vaxt** – şagird bacarmalıdır:

- XX əsrlə ("Qısamüddətli XX əsr" nəzərdə tutulur) bağlı tarixi hadisələri/prosesləri dövrləşmənin müxtəlif sistemi ilə əlaqələndirməyi;
- dünya tarixinin dövrləşmə sxemlərini Gürcüstan tarixinin dövrləşmə sistemi ilə əlaqələndirməyi;
- XX əsrdə ("Qısamüddətli XX əsr" nəzərdə tutulur) dəyişkənlik/vaxt fenomeninin yenidən qavranılmasına təsir göstərən amilləri analiz etməyi;

**Məkan** – şagird bacarmalıdır:

- XX əsrlə ("Qısamüddətli XX əsr" nəzərdə tutulur) bağlı hadisələri/prosesləri müzakirə etdikdə düzgün tarixi-coğrafi terminlərdən istifadə etməyi;
- XX əsr ("Qısamüddətli XX əsr" nəzərdə tutulur) üçün əsas əhəmiyyətli tarixi-coğrafi məkanların (o cümlədən Qafqazın) əhəmiyyətini xarakterizə etməyi;
- XX əsrdə ("Qısamüddətli XX əsr" nəzərdə tutulur) məkan fenomeninin yenidən dərk edilməsinə təsir edən amilləri analiz etməyi;

**Cəmiyyət** – şagird bacarmalıdır:

- XX əsrin ("Qısamüddətli XX əsr" nəzərdə tutulur) cəmiyyətinin xüsusiyyətlərini (mənsubiyyət vasitələri, "mədəni başqa" fenomeni, sosial təbəqələr, gündəlik həyat) ayrımağı və başqa tarixi dövrlərin cəmiyyətləri ilə müqayisə etməyi;

**Hakimiyyət** – şagird bacarmalıdır:

- Hakimiyyət fenomeni ilə bağlı məsələləri *(simvollar, hakimiyyət strukturları, hakimiyyət bölgüsü, hakimiyyət üçün mübarizə formaları, hakimiyyət fenomeninə olan yanaşma)* XX əsr ("Qısamüddətli XX əsr" nəzərdə tutulur) Gürcüstanının və Avropa ölkələrinin misallarına istinad edərək analiz etməyi;

**Tarixi hadisə / proses** – şagird bacarmalıdır:

- XX əsrlə ("Qısamüddətli XX əsr" nəzərdə tutulur) bağlı sosial və siyasi hadisələri və prosesləri analiz etməyi (öyrəniləsi mövzu ilə bağlı faktların və hadisələrin tipoloji qruplaşdırılması; müxtəlif perspektivdən analiz; bunların arasında səbəb-nəticə əlaqələrinin təyin edilməsi; öyrəniləsi mövzunun tarixi əhəmiyyətinin dərk edilməsi; hadisənin müasir gözlə şərhi); onları müvafiq dövrün Gürcüstan tarixinin məsələləri ilə əlaqələndirilməsi/müqayisəsi.

# XII SİNİF

| Mövzu: Gürcüstan Demokratik Respublikası |
|---|
| Mövzu Gürcüstan Demokratik Respublikasının tarixi ilə bağlı əsas hadisələrin və proseslərin tədqiqatını nəzərdə tutur. Tədqiqat məsələlərinə istinad edərək dövrün xüsusiyyətlərini/əzmlərini/özünəməxsusluqları ayırmağı. |

**Mövzu çərçivəsində nəticələrin əldə edilməsi indikatorları**

**Mənbə/ interpretas**iya – şagird bacarmalıdır:
- müxtəlif növ mənbələrə istinad edərək 1918-1921 -ci illərin Gürcüstan tarixi üçün aktual problemləri *(tədqiqat poblemini həll etmək üçün kompleks məsələsinin qarşıya qoyulması, biliklərin təşkili və şəxsi nəticələrinin istorioqrafiyada söylənilən fikirlərlə əlaqələndirilməsi)* araşdırmağı;

**Vaxt** – şagird bacarmalıdır:
- 1918-1921-ci illərin Gürcüstan tarixi ilə bağlı problemli məsələləri dövrləşmənin müxtəlif sistemi ilə əlaqələndirməyi; bunları ötən və gələcək dövrün tarixi hadisələri ilə əlaqədə analiz etməyi;

**Məkan** – şagird bacarmalıdır:
- 1918-1921 -ci illərin Gürcüstan tarixi ilə bağlı problemli məsələləri öyrəndikdə, düzgün tarixi-coğrafi terminlərdən istifadə etməyi; əsas əhəmiyyətli tarixi-coğrafi məkanları xarakterizə etməyi;

**Cəmiyyət** – şagird bacarmalıdır:
- 1918-1921 illərin cəmiyyətinin xüsusiyyətlərini *(dünyagörüşü, mənsubiyyət vasitələri, "mədəni başqa" ilə münasibət)* və gündəlik həyatı *(təsərrüfat formaları, kommunikasiya vasitələri, yaşayış növləri, ənənələr və s.)* araşdırmağı; tarixi dövrü onun müasirlərinin gözü ilə görməyi;

**Hakimiyyət – şagird** bacarmalıdır:
- Hakimiyyət fenomeni ilə bağlı məsələləri *(simvollar, hakimiyyət strukturları, hakimiyyət bölgüsü, hakimiyyət uğrunda mübarizə formaları, hakimiyyət fenomeninə olan yanaşma)* 1918-1921 -ci illərin Gürcüstan tarixinin misallarına istinad edərək analiz etməyi;

**Tarixi hadisə / proses** – şagird bacarmalıdır:
- 1918-1921 -ci illərdə Gürcüstan tarixi ilə bağlı sosial və siyasi hadisələri və prosesləri araşdırmağı (məsələn, nə üçün Gürcüstanı Millətlər Liqasına qəbul etmədilər?); öyrəniləsi mövzu ilə bağlı faktları və hadisələri tipoloji qruplaşdırmağı; müxtəlif perspektivdən analiz etməyi; bunların arasında səbəb-nəticə əlaqələrini təyin etməyi; öyrənilməsi mövzunun tarixi əhəmiyyətini dərk etməyi; hadisəni müasir gözlə şərh etməyi.

| Mövzu: Dünya minilliklərin astanasında |
|---|
| **Mövzu çərçivəsində nəticələrin əldə edilməsi indikatorları** |
| **Mənbə** – şagird bacarmalıdır:<br>● müxtəlif növ mənbələrə *(məsələn, yazılı qaynaqlar, audio-foto-fono material)* istinad edərək "soyuq müharibədən" sonrakı dövrlə bağlı tarixi hadisələri/prosesləri analiz etməyi;<br>**Vaxt** – şagird bacarmalıdır:<br>● "Soyuq müharibədən" sonrakı dövrlə bağlı tarixi hadisələri/prosesləri dövrləşmənin müxtəlif sistemi ilə əlaqələndirməyi;<br>● dünya tarixinin dövrləşmə sxemlərini Gürcüstan tarixinin dövrləşmə sistemi ilə əlaqələndirməyi;<br>● "Soyuq müharibədən" sonrakı dövrdə dəyişkənlik/vaxt fenomeninin qavranılmasına təsir göstərən amilləri analiz etməyi;<br>**Məkan** – şagird bacarmalıdır:<br>● "Soyuq müharibədən" sonrakı dövrlə bağlı hadisələri/prosesləri müzakirə etdikdə düzgün tarixi-coğrafi terminlərdən istifadə etməyi;<br>● "Soyuq müharibədən" sonrakı dövr üçün əsas əhəmiyyətli tarixi-coğrafi məkanların (o cümlədən Qafqazın) əhəmiyyətini xarakterizə etməyi;<br>● "Soyuq müharibədən" sonrakı dövrdə məkan fenomeninin dərk edilməsinə təsir edən amilləri analiz etməyi;<br>**Cəmiyyət** – şagird bacarmalıdır:<br>● "Soyuq müharibədən" sonrakı dövrün cəmiyyətinin xüsusiyyətlərini *(mənsubiyyət vasitələri, "mədəni başqa" fenomeni, sosial təbəqələr, gündəlik həyat)* ayrımağı və başqa tarixi dövrlərin cəmiyyətləri ilə müqayisə etməyi;<br>**Hakimiyyət – ş**agird bacarmalıdır:<br>● Hakimiyyət fenomeni ilə bağlı məsələləri (simvollar, hakimiyyət strukturları, hakimiyyət bölgüsü, hakimiyyət üçün mübarizə formaları, hakimiyyət fenomeninə olan yanaşma) "Soyuq müharibədən" sonrakı dövrün Gürcüstanının və dünya başqa ölkələrinin misallarına istinad edərək analiz etməyi;<br>**Tarixi hadisə / proses** – şagird bacarmalıdır:<br>● "Soyuq müharibədən" sonrakı dövrlə bağlı sosial və siyasi hadisələri və prosesləri analiz etməyi (öyrəniləsi mövzu ilə bağlı faktların və hadisələrin tipoloji qruplaşdırılması; müxtəlif perspektivdən analiz; bunların arasında səbəb-nəticə əlaqələrinin təyin edilməsi; öyrənilәsi mövzunun tarixi əhəmiyyətinin dərk edilməsi; hadisənin müasir gözlə şərhi); onları müvafiq dövrün Gürcüstan tarixinin məsələləri ilə əlaqələndirilməsi/müqayisəsi. |

| **Mövzu: Gürcüstan Sovet İttifaqında** |
| --- |
| Mövzu Sovet dövrünün Gürcüstan tarixi ilə bağlı əsas hadisələrin və proseslərin tədqiqatını nəzərdə tutur. Tədqiqat məsələlərinə istinad edərək dövrün xüsusiyyətlərini/əzmlərini/özünəməxsusluqları ayırmağı. |

**Mövzu çərçivəsində nəticələrin əldə edilməsi indikatorları**

**Mənbə/ interpretas**iya – şagird bacarmalıdır:

- müxtəlif növ mənbələrə istinad edərək, Sovet dövrünün Gürcüstan tarixi üçün aktual problemləri *(tədqiqat poblemini həll etmək üçün kompleks məsələsinin qarşıya qoyulması, biliklərin təşkili və şəxsi nəticələrinin istorioqrafiyada söylənilən fikirlərlə əlaqələndirilməsi)* araşdırmağı;

**Vaxt** – şagird bacarmalıdır:

- Sovet dövrünün Gürcüstan tarixi ilə bağlı problemli məsələləri dövrləşmənin müxtəlif sistemi ilə əlaqələndirməyi; bunları ötən və gələcək dövrün tarixi hadisələrlə əlaqədə analiz etməyi;

**Məkan** – şagird bacarmalıdır:

- Sovet dövrünün Gürcüstan tarixi ilə bağlı problemli məsələləri öyrəndikdə, düzgün tarixi-coğrafi terminlərdən istifadə etməyi; əsas əhəmiyyətli tarixi-coğrafi məkanları xarakterizə etməyi;

**Cəmiyyət –** şagird bacarmalıdır:

- Sovet dövrünün cəmiyyətinin xüsusiyyətlərini *(dünyagörüşü, mənsubiyyət vasitələri, "mədəni başqa" ilə münasibət)* və gündəlik həyatı *(təsərrüfat formaları, kommunikasiya vasitələri, yaşayış növləri, ənənələr və s.)* araşdırmağı; tarixi dövrün onun müasirlərinin gözü ilə görməyi;

**Hakimiyyət –** şagird bacarmalıdır:

- Hakimiyyət fenomeni ilə bağlı məsələləri (simvollar, hakimiyyət strukturları, hakimiyyət bölgüsü, hakimiyyət uğrunda mübarizə formaları, hakimiyyət fenomeninə olan yanaşma) Sovet dövrünün Gürcüstan tarixinin misallarına istinad edərək analiz etməyi;

**Tarixi hadisə / proses** – şagird bacarmalıdır:

- Sovet dövrünün Gürcüstan tarixi ilə bağlı sosial və siyasi hadisələri və prosesləri araşdırmağı (məsələn, Sovet İttifaqının süqutuna hansı amillər şərait yaratdı?); öyrənilәsi mövzu ilə bağlı faktları və hadisələri tipoloji qruplaşdırmağı; müxtəlif perspektivdən analiz etməyi; bunların arasında səbəb-nəticə əlaqələrini təyin etməyi; öyrənilәsi mövzunun tarixi əhəmiyyətini dərk etməyi; hadisəni müasir gözlə şərh etməyi

| Mövzu: Gürcüstan və müasir dünya |
| --- |
| Mövzu 1990-cı illərin və sonrakı dövrün Gürcüstan tarixi ilə bağlı əsas hadisələrin və proseslərin tədqiqatını nəzərdə tutur. Tədqiqat məsələlərinə istinad edərək dövrün xüsusiyyətlərini/əzmlərini/özünəməxsusluqları ayırmağı. |

**Mövzu çərçivəsində nəticələrin əldə edilməsi indikatorları**

**Mənbə/ interpretas**iya – şagird bacarmalıdır:

- müxtəlif növ qaynaqlara istinad edərək 1990-cı illərdən sonrakı dövrün Gürcüstan tarixi üçün aktual problemləri (tədqiqat poblemini həll etmək üçün kompleks məsələsinin qarşıya qoyulması, biliklərin təşkili və şəxsi nəticələrinin istorioqrafiyada söylənilən fikirlərlə əlaqələndirilməsi) araşdırmağı;

**Vaxt** – şagird bacarmalıdır:

- 1990-cı illərdən sonrakı dövrün Gürcüstan tarixi ilə bağlı problemli məsələləri dövrləşmənin müxtəlif sistemi ilə əlaqələndirməyi; bunları ötən və gələcək dövrün tarixi hadisələrlə əlaqədə analiz etməyi;

**Məkan** – şagird bacarmalıdır:

- 1990-cı illərdən sonrakı dövrün Gürcüstan tarixi ilə bağlı problemli məsələləri öyrəndikdə, düzgün tarixi-coğrafi terminlərdən istifadə etməyi; əsas əhəmiyyətli tarixi-coğrafi məkanları xarakterizə etməyi;

**Cəmiyyət –** şagird bacarmalıdır:

- 1990-cı illərdən sonrakı dövrün cəmiyyətinin xüsusiyyətlərini (dünyagörüşü, mənsubiyyət vasitələri, "mədəni başqa" ilə münasibət) və gündəlik həyatı (təsərrüfat formaları, kommunikasiya vasitələri, yaşayış növləri, ənənələr və s.) araşdırmağı; tarixi dövrün onun müasirlərinin gözü ilə görməyi;

**Hakimiyyət – ş**agird bacarmalıdır:

- Hakimiyyət fenomeni ilə bağlı məsələləri (simvollar, hakimiyyət strukturları, hakimiyyət bölgüsü, hakimiyyət uğrunda mübarizə formaları, hakimiyyət fenomeninə olan yanaşma) 1990-cı illərdən sonrakı dövrün Gürcüstan tarixinin misallarına istinad edərək analiz etməyi;

**Tarixi hadisə / proses** – şagird bacarmalıdır:

- 1990-cı illərdən sonrakı dövrün Gürcüstan tarixi ilə bağlı sosial və siyasi hadisələri və prosesləri araşdırmağı (məsələn, Sovet İttifaqının süqutuna hansı amillər şərait yaratdı?); öyrənilənsi mövzu ilə bağlı faktları və hadisələri tipoloji qruplaşdırmağı; müxtəlif perspektivdən analiz etməyi; bunların arasında səbəb-nəticə əlaqələrini təyin etməyi; öyrənilənsi mövzunun tarixi əhəmiyyətini dərk etməyi; hadisəni müasir gözlə şərh etməyi).

## MÖVZUNUN ƏSAS TƏSƏVVÜRLƏRİ

Tematik əsas təsəvvürlər xassəcə hədəf anlayışları ilə bağlı əsas təsəvvürlərdən fərqlənir.

**Mövzu ilə bağlı əsas təsəvvürlərin** funksiyası ondan ibarətdir ki, şagirdin öyrəniləsi mövzu konturları haqqında təsəvvürü yaransın. X sinifdə öyrəniləsi mövzuların əsas təsəvvürlərini təklif edirik:

**Orta pillə**

**Mövzu 1. Daş və Bürünc dövrü**

| Hədəf anlayışı: | Şagird başa düşməlidir ki: |
|---|---|
| **Vaxt** | ● Tarixçilər tarixöncəsi/Daş dövrünü insanın yarandığından yazının və dövlətin yaranmasına qədər əhatə edən dövrü adlandırırlar.<br>● Daş dövründə cəmiyyətin inkişafına iqlim şərtləri böyük təsir göstərirdi; buna görə arxeoloji dövrləşmə geoloji dövrlərin əvəz edilməsini nəzərdə tutur.<br>● Alimlər arasında ilk sivilizasiyanın/kompleks cəmiyyətinin nə vaxt yarandığı və ya onun hansı əsas xüsusiyyətlərinin olduğuna dair fərqli fikirlər mövcuddur;<br>● Daş və Bürünc dövründə Gürcüstan ərazisində yaşayan insanların Yaxın Şərqlə intensiv əlaqələri var idi, müvafiq olaraq Gürcüstan tarixinin dövrləşməsi Yaxın Şərq tarixinə/ arxeoloji dövrləşmə sxemlərinə yaxındır;<br>● Qədim Şərq xalqları arasında tarixin dövrləşməsinin ilk cəhdlərinə təsadüd edirik (vaxt hesabının ilk sistemləri (təqvim, il tarixi)). |
| **Məkan** | ● Daş dövründə ən çox Yaxın Şərqin belə adlanan "Bərəkətli Hilal" ərazisi irəli getmişdi. "Neoloit inqilabının" nailiyyətləri Avrasiyanın başqa bölgələrinə də məhz buradan gəlmişdi;<br>● Gürcüstan və Zaqafqaziya ərazisi bilavasitə arxeoloqlar tərəfindən "Bərəkətli Hilal" adlandırılan məkanla qonşuluq edirdi;<br>● Qədim Şərq dövründə „kompleks cəmiyyəti" bir neçə yerdə inkişaf etmişdi (Mesopotamiya, Misir, Aralıqdənizsahili, Suriya-Fələstin, Şərqi Avropa, Şimali İran, Pəncab, Xuanxe vadisi);<br>● E.ə.IV-I minilliklərdə Mesopotamiya, Anatoliya, Misir və İran ərazisində mövcud sivilizasiyaların əlaqəsi var idi, Hindistan, Çin ərazisində mövcud sivilizasiyaların onlarla həmin mərhələdə ünsiyyətləri yox idi;<br>● Gürcüstan ərazisində yaşayan etnik qrupların Qədim Şərq dövlətləri arasında ən intensiv əlaqələri hetlərlə, mitanilərlə, assurlarla, urartularla idi;<br>● Qədim Şərq dövründən xəritələr qalmamışdır, amma müxtəlif növ mətnlərin analizindən məlum olur ki, Qədim Şərq dövlətləri həm qonşu, eləcə də uzaq yerlərdən yaxşı məlumatlı idilər; |

| | |
|---|---|
| **Məkan** | ● Qədim Şərq dövründən xəritələr və səyahət qeydləri qalmamışdır və bu da bizi düşündürür ki, coğrafi bilik geniş cəmiyyət üçün əlçatan deyildi, amma mətnlərin analizindən görünür ki, müxtəlif sosial təbəqə nümayəndələri (məsələn, tacirlər, diplomatlar) nəinki qonşu, eləcə də çox uzaq yerlər haqqında yaxşı məlumatlı idilər; Qədim Şərqin döyüşçü dövlətlərinin coğrafi biliyi regionda və ondan kənarda həm ticari-iqtisadi əlaqələrlə, eləcə də qonşu və uzaq, nabələd ölkələrə/xalqlara qarşı təşkil edilən hərbi yürüşlərlə doldurulurdu;<br>● Daş və Bürünc Dövründə Zaqafqaziyada yaşayan xalqların ən çox intensiv əlaqələri Kiçik Asiya və Şimali Mesopotamiyada yaşayan xalqlarla var idi. Eləcə də Aralıqdənizsahili və Avrasiya steplərində baş verən hadisələr Qafqaz əhalisinin inkişafına da müəyyən təsir göstərirdi. |
| **Mənbə** | ● Daş dövründə Gürcüstan ərazisində yaşayan insanlar haqqında informasiya arxeoloji məlumatlar vasitəsilə əldə edilir. Son Bürünc dövründən isə arxeoloji məlumatlarla yanaşı maraqlı məlumatları mixi lövhələrdən və epiqrafik abidələrdən almaq olar;<br>● Daş, bürünc və dəmir dövrünün cəmiyyətinin kompleks təsviri üçün arxeqoloqlar arxeoloji mədəniyyətləri ayırırlar;<br>● Alimlər tez-tez mübahisə edirlər ki, arxeoloji mədəniyyət nəyin əsasında ayrılmalıdır və onun yaranması, inkişafı, tənəzzülü/süqutu hansı tarixi proseslərlə əlaqədardır;<br>● Mixi lövhələr və epiqrafik abidələr müxtəlif növ mətnləri ötürür (qanunvericilik abidələri, dini mətnlər, Mesopotamiya çarları, ədəbi abidələr, məktublar və s.), alimlər onları Qədim Şərq cəmiyyətini öyrənmək üçün müxtəlif intensivliklə istifadə edirlər. |
| **Cəmiyyət** | ● Daş dövründə qəbilə icması ictimai təşkilatların yeganə forması idi;<br>● Sehr ibtidai insanın başlıca dünyagörüşünün əsasını təşkil edirdi, amma alimlər arasında ibtidai dinlərin mahiyyəti və klassifikasiya prinsipləri ilə bağlı fikir müxtəlifliyi mövcuddur;<br>● Qədim Şərq dövründə cəmiyyətin əsas özəyini icma təqdim edirdi, təsərrüfatın aparılması forması isə - əsasən kollektiv idi;<br>● Qədim Şərq cəmiyyəti azad və azad olmayanların sosial qruplarından ibarət idi, burada azadlığın hər növ məhdudlaşdırılması quldarlıq kimi başa düşülürdü;<br>● Qədim Şərq kompleks cəmiyyəti qanunlarla aparılırdı, bunun ilk kodifikasiyası da məhz həmin dövrlə bağlanır;<br>● Qədim Şərq cəmiyyətinin dini müxtəlif idi - əsasən politeist (antropomorfik/qeyri-antropomorfik) panteonu ilə, yaxud da dualist inancı və hətta monoteizm formaları ilə də təqdim olunurdu. |
| **HAKIMIYYƏT** | ● İbtidai cəmiyyətdə hökmranlıq uğrunda mübarizə təşkilati xarakter daşımırdı;<br>● Qədim Şərqdə sülalələrin, şəhərlərin, ərazi imperiyalarının hökmranlıq urğunda mübarizələri dinlə və bütə qulluqla sıx əlaqədə idi;<br>● Burada xalq və dini hakimiyyət bir-birindən ayrılmırdı;<br>● Çar hökmranlığının simvollarını monumental abidələr və məbədlər təqdim edirdi, bunlar da Qədim Şərq aləmi üçün tipik idi;<br>● Qədim Şərq dövrü üçün aydın mərkəzləşdirilmiş hakimiyyət və hökmranlığım bir şəxsin əlində cəmləşməsi xarakterik hal idi, baxmayaraq ki, dövlət hakimiyyəti həm şəhər-dövlətlərin, eləcə də mərkəzləşdirilmiş dövlətin və ərazi imperiyaların şəklində təqdim olunurdu. |

| | |
|---|---|
| **Tarixi hadisə/ proses** | ● Bəşər tarixində ilk dövlətlər böyük çayların ətrafında yaranmışdı.<br>● Qədim Şərq dövründə diplomatiya və beynəlxalq münasibətlərin kamil sistemi var idi, bu da e.ə. IV-III-II-I minilliklərdə müxtəlif intensivliklə fəaliyyət göstərirdi;<br>● Qədim Şərqdə sosial-siyasi problemlərin həlli himayəçi tanrılarla və büt qulluqçuları ilə bağlı idi;<br>● Qədim Şərq dövrü bir neçə dövlət tipini tanıyır – şəhər-dövlətləri, mərkəzləşdirilmiş monarxiya və imperiyanı, bu da Orta və Yaxın Şərqin sivil məkanının bir hakimiyyətinin altında birləşə bilmişdi;<br>● Köçəri xalqların hücumları Qədim Şərq sivilizasiyaları üçün böyük təhlükə yaradırdı;<br>● Gürcüstan ərazisi Qədim Şərq dünyasının şimal periferiyasını təqdim edirdi, çünki gürcüdilli birliklərin beynəxalq sosial-siyasi proseslərə cəlb olunması haqqında çox az məlumat qalmışdı. |

**Orta pillə**

**Mövzu 2. Daş və bürünc dövrü**

| Hədəf anlayışı: | Şagird dərk etməlidir ki: |
|---|---|
| **Vaxt** | ● Antik dövr Aralıqdənizsahili xalqlarının, xüsusilə də yunan elementi tərəfindən hegemonluğun əldə edilməsi ilə assosiasiya yaradır;<br>● Antik dövr Ellin, Ellinist və Roma dövrlərini əhatə edir. Bu bölgü müasirdir və elmi interpretasiyanın nəticəsidir.<br>● Alimlər arasında tez-tez diskussiya olur ki, Antik dövrün başlanğıcı və ya sonu hansı xüsusiyyətlərlə müəyyənləşdirilməlidir;<br>● Ellin (yunan) tarixinin dövrləşməsi yunanların qədim yaşayış yerlərinin, həyat qaydasının, mədəni qavranışı və hökmranlığının dominant formasının dəyişikliyi ilə bağlıdır.<br>● Roma tarixinin dövrləşməsini hökmranlıq formasının dəyişikliyi ilə müəyyən edirik və çarların hakimiyyətinin, respublikanın və imperial idarəetmənin dövrləri ayrılır.<br>● Antik dövrdə yunan-roma dünyası ilə sıx əlaqəyə görə tipik dövrləşmə prinsipləri həmin dövrün Gürcüstanında da aktual idi.<br>● Yunanların və romalıların fərqli vaxt hesablama sistemləri var idi, bu cəhətdən Roma ötən sivilizasiyanın (Misir) təcrübəsini daha çox nəzərə alırdı. |
| **Məkan** | ● Antik məkanın mərkəzini Aralıq dənizi və Qara dəniz hövzələri təqdim edirdi.<br>● Yunan müstəmləkəsi, İskəndərin yürüşü və Roma işğalları Antik coğrafi-siyasi məkanın formalaşmasına həlledici təsir göstərdi.<br>● Coğrafi-iqlim amilləri yunanların və romalıların həyat qaydasını və siyasi-iqtisadi təşkilat tipi çox müəyyənləşdirmişdir.<br>● Qafqaz Antik məkanın qırağında yerləşirdi və bu məkanın inteqral hissəni təqdim edirdi.<br>● Bu, həm siyasi-iqtisadi əlaqələrlə, eləcə də tarixi, arxeoloji və epiqrafik mənbələrlə və mifoloji əhvalatlarla təsdiq olunur.<br>● Roma-Parfiya və Roma-Sasani qarşıdurması dövründə Qafqaz iki böyük imperiyanın maraqlarının münaqişə sahəsini təqdim edirdi.<br>● Antik Dövrün müxtəlif parçalarında yunan-romalıların dominantlığı ilə qeyd edilən məkanın siyasi və mədəni mərkəzləri dəyişir.<br>● Antik dövrlərdə bir elm kimi, coğrafiya formalaşdı. Antik coğrafiyaçılar öz dövrlərinin aləmini çox yaxşı tanıyırdılar. Onların maraq sahələrinə Qafqaz da düşürdü. |

| | |
|---|---|
| **Mənbə** | ● İstorioqrafiya, keçmişi analitik öyrənən bir elm kimi Qədim Yunanıstanda yaranmış və inkişaf etmişdi. Bu, yunan-roma aləmi üçün xarakterik dünyanın analitik öyrənilmə istəyi ilə şərtlənirdi.<br>● Antiklik haqqında əsasən istorioqrafiya, epiqrafiya, arxeoloji mənbələr xəbər verirlər. Eləcə də mifologiya, linqvistika və bədii ədəbiyyat mühüm mənbəni təqdim edir. Antik mənbələrin analizi və interpretasiya məsələsi alimlər arasında diskussiya predmetidir.<br>● Antik dövr Gürcüstan tarixinin rekonstruksiyası məhz yunan-roma mənbələrinin vasitəsilə baş verir.<br>● Antik mənbələrin etibarlılıq dərəcəsi fərqlidir. Etibarlılıq dərəcəsinə qaynağın növü, yazılı mənbə halında müəllifin məlumatlılığı, onun ilk qaynağa əlçatması, onun siyasi-ictimai mövqeyi və janr xüsusiyyətləri səbəb olur.<br>● Tarixi hadisələrin, etnosların və ya dünyagörüşlərin qiymətləndirilməsində antik dövrdə yaranmış yunan-roma konstruktları (məs., bərbər, vandalizm...) müasir günümüzdə də istifadə olunur. |
| **Cəmiyyət** | ● Bütün antik dövr ərzində dəniz və şəhər mədəniyyəti dominantdır.<br>● Siyasi təşkilat formalarının müxtəlifliyinə, coğrafi yerləşmə və polis qarşıdurmasına baxmayaraq, yunan dünyasının aydın ifadə edilmiş identiklik vasitələri var idi, bunlar da ellin mədəni məişətini yaradırdı.<br>● Antik dövr üçün qərb-şərq mədəni-dəyər qarşıdurması kontekstində inkişaf xarakterik idi. İran İmperiyasında birləşən şərq ellinlilər üçün mədəni “başqa” hesab edilirdi.<br>● Antik dövrdə Qədim Şərq məkanının əksəriyyətini ellinlərin təsiri altına keçirmək mümkün oldu;<br>● Makedoniyalı İskəndərin yürüşü həm ictimai həyat formalarını diametrik dəyişdi, eləcə də özünün aydın ifadə edilən identiklik vasitələri ilə qlobalist prinsiplərinə əsaslanan ellinizmə əsas verdi.<br>● Antik cəmiyyət quldarlıq cəmiyyətidir, onun iqtisadi və ictimai ehtiyacları üçün qul əməyinin böyük əhəmiyyəti var idi.<br>● Respublika dövrünün Roma cəmiyyəti sosial və ictimai siniflərin qarşıdurması şərtlərində inkişaf edirdi.<br>● Respublika dövrünün Roma cəmiyyəti mədəni müxtəlifliyə çox açıq deyildi. İmperiya idarəetməsi dövründə Roma cəmiyyəti açıq, multimədəni və multietnik olmuşdu.<br>● Antik dövrün Aralıqdənizsahili üçün Yunan-Roma panteonu dominant idi, amma bu dövrdə dualist və monoteist dinləri canlanmağa başlayır.<br>● Antik dövrün Kolxeti və İberiya cəmiyyəti şərq və qərb, İran və Yunan-Roma dünyalarının siyasi-mədəni kəsişməsində inkişaf edirdi. |

| | |
|---|---|
| **Hakimiyyət** | • Antik dünya üçün hakimiyyətin əsas formalarının konseptual dərk edilməsi və dövlətin siyasi inkişafı formaları üzrə açıq və geniş diskussiya xarakterik idi.<br>• Siyasi formaların müxtəlifliyi və fərqli siyasi ideyaların və strukturların qarşıdurması yunan siyasi mədəniyyətinin ayrılmaz hissəsidir;<br>• Klassik dövrün yunan və respublika dövrünün Roma dövlətinin quruluş idealı hakimiyyətin bölgü prinsipi üzərində dururdu, Şərq imperiyaları isə təkbaşına hökmranlıq kontekstində inkişaf edirdilər.<br>• Demokratiya, idarəetmə forması kimi, antikliyin məhsuludur.<br>• Hökmranlığın formaları və siyasi quruluş baxımından müasir dünya çox hissədə antik əsas üzərində durur.<br>• Həm yunan, eləcə də Roma siyasi mədəniyyəti öz inkişafının Son mərhələsində hökmranlığın şərq formalarından çox şeylər götürmüşdü. |
| **Tarixi hadisə/ proses** | • Antik dövrdə yunan kolonizasiyası həm Aralıqdənizsahili, eləcə də Qara dəniz hövzəsini əhatə edirdi.<br>• Antik dövrdə şərq və qərb/Aralıqdənizkənarı dövlətlər bir-biri ilə qarşılaşırdı;<br>• Makedoniyalı İskəndərin fəaliyyəti ellin və şərq mədəniyyətlərinin birləşməsinə (ellinizmə) əsas verildi;<br>• Antik dövrdə Roma hərbi üstünlüyün hesabına Avropa, Asiya və Afrika əraziləri genişlənə bilsə də, şərqdə onun genişlənməsinə Sasani İranı çalışırdı.<br>• Antik dövrdə tarixi hadisə-proseslərə əsasən, qədim dünyanın siyasi və mədəni mərkəzləri, coğrafi məkan və sosial-iqtisadi mühit dəyişir, yeni dövlətlər və imperiyalar yaranırdı.<br>• Antik tarixin mühüm hadisələrinin səbəbləri, onların nəticələri və şərhi üzrə diskussiya müasir elmi tədqiqatların və diskussiyaların üzvi hissəsidir.<br>• Antik dövr Gürcüstanında baş verən tarixi proseslər qlobal tarixi hadisə-proseslərlə sıx əlaqədədir. Antik dövr Gürcüstanının tarixinin qlobal kontekst xaricində qavranılması mümkün deyil. |

## ANLAYIŞLAR

MƏLUMAT KİTABÇASINDAN ÇIXARIŞ

**a) Fənnin hədəf anlayışları** – Milli Tədris Planı ilə hər bir nəticə fənn üzrə hədəf anlayışına bağlıdır. Milli Tədris Planında hər fənn üçün bir neçə hədəf anlayışı müəyyənləşdirilmişdir. Pillə səviyyəsində bunların (nəticələr/hədəf anlayışları) mənimsənilməsi, nəticələrlə birlikdə, fənnin təlim-tədrisinin uzunmüddətli məqsədini təqdim edir. Aşağıda tarix fənni üçün hər anlayışın yanında mötərizədə hansı nəticələrlə əlaqələnən hədəf anlayışları sadalanır:

**Tarixi mənbə** (Tar.ort.1,2,4,5)
**Vaxt (tarixi dövr)** (Tar.ort. 1,2,3,4,5,6)
**Məkan (mühit, ərazi)** (Tar.ort. 1,2,3,4,5,6)
**Cəmiyyət** (Tar.ort.1,2,3,4,5,6)
**Hakimiyyət** (Tar.ort .3,4,5,6,7,8)
**Tarixi hadisə/proses** (Tar.ort.3,4,5,6)

Uzunmüddətli məqsədlər (nəticələr və hədəf anlayışları) anlayışla bağlı (a) yarımanlayışları, (b) əsas təsəvvürləri, və (c) pillənin əsas suallarını dəqiqləşdirir və daha aydın edir. A) Yarımanlayışlar hədəf anlayışından irəli gəlir. Onların vasitəsilə məktəb kurrikulumunda konkret məsələlər və yarımməsələlər müəyyənləşdirilir.

| Hədəf anlayış | Yarımanlayış | Məsələ |
|---|---|---|
| **Tarixi mənbə** | Arxeoloji abidələr və artefakt | *Konkret arxeoloji abidə/artefakt* |
| | Epiqrafik material | *Konkret epiqrafik abidə* |
| | Narrativ mənbələr | *Konkret narrativ mənbə (gürcü, xarici)* |
| | Sənədlər | *Konkret hüquqi sənəd* |
| | Ədəbi əsərlər | *Konkret ədəbi əsərlər (tarixi mənbə kimi)* |
| | Memuarlar və epistolyar miras | *Konkret şəxsiyyətin memuarları və məktubları* |
| | Audio-foto-fono materiallar | *Audio-foto-fono materiallar (konkret tarixi hadisələrlə bağlı)* |
| **Vaxt (tarixi dövr)** | Vaxtın hesablama sistemi | *Vaxtın hesablanmasının konkret sistemi (təqvim, dövrləşmə və tarix hesablanması sistemi)* |
| | Tarixi dövr, arxeoloji dövr | *Konkret dövr /tarixi dövr* |
| | Hər hansı bir şəxsiyyətin adı ilə eyniləşmiş dövr | *(məsələn, çariça Tamaranın dövrü, kraliça Viktoriyanın dövrü)* |
| | Hər hansı bir miqyaslı tarixi hadisə ilə eyniləşdirilmiş dövr | *(məsələn, Səlib yürüşü dövrü, Böyük Coğrafi Kəşflərin Dövrü).* |

| | | |
|---|---|---|
| **Məkan (mühit, ərazi)** | Tarixi-mədəni məkan | *Konkret tarixi-coğrafi məkan (məsələn, mezoamerika, Aralıqdəniz-kənarı).* |
| | Tarixi-coğrafi ərazi | *Konkret tarixi-coğrafi vahid (məsələn, Cənubi Mesopotamiya, Attika, Lakoniya).* |
| | Qədimdə mövcud dövlətin/imperiyanın inzibati vahidi/vahidləri (məsələn, Kartli çarlığının knyazlıqları, Əhəmənilər İranının satrapları). | *Qədim dövlətin/imperiyanın konkret inzibati vahidi/vahidləri (məsələn, Kartli çarlığının knyazlıqları, Əhəmənilər İranının satrapları).* |
| | Kult şəhərləri/yerlər | *Konkret kult şəhərləri/yerləri (məsələn, Qədim Msxeta, Delfos, "Müqəddəs Torpaq").* |
| **Cəmiyyət** | Gündəlik həyat (gündəlik məişət) | *Bu və ya digər tarixi dövr üçün xarakterik etnoqrafik məişət.* |
| | Din | |
| | İdeya/ideologiya | *Konkret din (dünyagörüşü kimi).* |
| **Hakimiyyət** | İdarəetmə forması | *Konkret idarəetmə strukturu* |
| | İctimai təşkilat | *Konkret ictimai təşkilatın formalaşma tarixi* |
| | İdarəetmə sistemi ilə bağlı islahat | *İdarəetmə sisteminin dəyişməsi ilə bağlı konkret islahatı* |
| **Tarixi hadisə/proses** | Tarixi şəxsiyyət | *Konkret tarixi şəxsiyyətin fəaliyyəti* |
| | İslahat | *Konkret islahat* |
| | Üsyan | *Konkret üsyan* |
| | İnqilab | *Konkret inqilab* |
| | Diplomatik danışıq/sülh/müqavilə | *Konkret barışıq/diplomatik danışıq/müqavilə* |
| | Mübarizə/müharibə | *Konkret mübarizə/müharibə* |

| Hədəf anlayışı | Hədəf anlayışının əsas təsəvvürləri |
|---|---|
| **Tarixi mənbə** | ● Keçmiş haqqında məlumatı tarixçilər mənbələrdən alırdılar;<br>● Keçmişi öyrəndikdə tarixçilər müxtəlif növ mənbələrə (əşyayi, yazılı, linqvistik, kino-foto-fonosənədlər) istinad edirlər;<br>● Mənbələrin hamısı eyni şəkildə etibarlı deyillər.<br>● Mənbələrdən əldə edilən informasiya birmənalı deyil, buna görə də interpretasiya tarixçilər arasında diskussiya predmetidir. |
| **Vaxt**<br>(tarixi dövr) | ● Tarix vaxtda davam edən dəyişikliyi öyrənən sahədir;<br>● Bəşəriyyətin keçdiyi yol müxtəlif tarixi dövrlərə və mərhələlərə bölünür;<br>● Müxtəlif xalqların fərqli vaxt hesablama sistemləri var idi. |
| **Məkan**<br>(mühit, ərazi) | ● Coğrafi mühit və coğrafi bilik insanlar cəmiyyətinin inkişafına təsir göstərir;<br>● Kommunikasiyanın sıxlığı böyük/kiçik ölçülü sosial-mədəni məkanların formalaşmasına səbəb olur;<br>● Konkret tarixi-coğrafi sahələrin müəyyən iqtisadi, strateji və mədəni əhəmiyyəti var. |
| **Cəmiyyət** | ● Tarixən çoxlu cəmiyyət mövcud idi, amma bunlardan hər birini ümumi əlamətlər xarakterizə edirdi: onların üzvlərinin ümumi identikliyi, marağı, qayğısı var idi və davranış qaydaları və dəyərləri üzrə razılığa gəlirdilər;<br>● Cəmiyyət daha kiçik ictimai qruplara bölünürdü;<br>● Kiçik cəmiyyətlər daha böyük cəmiyyətin bir hissəsini təqdim edirlər;<br>● Cəmiyyət üzvlərinin rəngarəngliyə qarşı müxtəlif yanaşmaları. |
| **Hakimiyyət** | ● Hakimiyyət uğrunda mübarizə tarixin ayrılmaz hissəsidir;<br>● Hakimiyyət uğrunda mübarizə həm şəxslər, eləcə də ictimai qruplar arasında aparılır. Onlar mübarizədə ölkədə mövcud ictimai-siyasi strukturlardan istifadə edirdilər;<br>● Hakimiyyətin əldə edilməsi və qorunub saxlanılması üçün lazımi vasitələr resurslara (maliyyə, insan resursları) malik olmaq, simvollar və ideologiyadır;<br>● Bəzi cəmiyyətlərdə hakimiyyət bir nəfər tərəfindən idarə edilir, bəzilərində isə insanlar/ictimai qruplar arasında bölünmüşdür;<br>● Demokratik dövlətdə hakimiyyət qaynağı xalqdır. |
| **Tarixi hadisə/ proses** | ● Hər bir tarixi hadisənin özünün səbəbi/səbəbləri və nəticəsi/nəticələri olur;<br>● Tarixçilər bir çox hallarda tarixi hadisələrin səbəbləri və nəticələri haqqında mübahisə edirlər;<br>● Bəzi tarixi hadisənin yerli, bəzilərinin isə qlobal əhəmiyyəti olur;<br>● Tarixi faktlar və hadisələr tipoloji olaraq siyasi, sosial, iqtisadi və mədəni əlamətlə qruplaşdırıla bilər. |

## ŞAGİRDİN QİYMƏTLƏNDİRMƏ SİSTEMLƏRİ

Şagirdin qiymətləndirməsi təlim-tədris prosesinin uzunmüddətli məqsədlərinə yönəlmə ilə bilavasitə əlaqədardır. Tədris və qiymətləndirmə bir medalın iki tərəfidir və bir-birindən təcrid olunmuş iki komponenti təqdim etmir. Şagird bilavasitə dərs prosesində, xüsusi təyin edilmiş sorğular və yoxlama yazılar xaricində qiymətləndirilə bilər.

**Milli Tədris Planında iki növ qiymətləndirmədən istifadə edilir:**
**İnkişafetdirici və müəyyənləşdirici.**

| | İnkişafetdirici | Müəyyənləşdirici |
|---|---|---|
| **Məqsədlər** | Tədrisin keyfiyyətinin yaxşılaşdırılması; şagirdin irəliləyişi və inkişafına dəstəyin verilməsi. | Fənnin tədris planının nəticələri ilə münasibətdə şagirdin akademik nailiyyət səviyyəsinin təyin edilməsi. |
| **Məsələlər** | Biliyin quraşdırılması və biliklərin qarşılıqlı əlaqəsi prosesinin qiymətləndirilməsi;<br>Ötən biliyin/təsəvvürlərin təyin edilməsi;<br>Şagirdin güclü və zəif tərəflərinin təyin edilməsi bacarığının qiymətləndirilməsi;<br>Şagirdin öz irəliləyişinə dəstək vermək üçün düşünülmüş addımları atmaq bacarığının qiymətləndirilməsi;<br>Biliyin hər üç kateqoriyasının mənimsənilmə prosesinin qiymətləndirilməsi;<br>Bilik vəhdətlərinin funksional istifadəsi bacarığının qiymətləndirilməsi. | Biliklərin qarşılıqlı əlaqələndirmə bacarığının qiymətləndirilməsi;<br><br>Biliyin hər üç kateqoriyası bacarığının qiymətləndirilməsi;<br><br>Bilik vəhdətlərinin funksional istifadəsi bacarığının qiymətləndirilməsi. |
| **Nailiyyət meyarı** | Ötən nəticələrə/ötən səviyyəyə nisbətən həyata keçirilmiş irəliləyiş. | Fənnin tədris planının tələblərinə nisbətən nailiyyət səviyyəsi |
| **Qiymətləndirici və qiymətləndirmə formaları** | **Müəllim:** şifahi və ya yazılı əks əlaqə, həvəsləndirici göstərişlər, simvolik qiymətlər və s.<br>**Şagirdlər:** öz-özünü qiymətləndirmə ilə; bir-birini qiymətləndirmə ilə. | **Müəllim:** bal (güclü və zəif tərəfləri təsvir etməklə, nöqsanların düzəlişini göstərməklə şərh verilə bilər). |

**Müəyyənləşdirici qiymətləndirmə üçün Milli Tədris Planına əsasən iki modeldən istifadə edilir.**

**Model 1 –** qiymət cari sinif, ev və ümumiləşdirici tapşırığın komponentlərində yazılır, semestr balı isə bu üç komponentin orta hesablaması əsasında yazılır.

**Model 2 –** qiymət yalnız yekunlaşdırıcı tapşırıqlarda yazılır. Bunların sayını məktəbin özü müəyyən edir, məktəbin dərs planının prioritetlərindən irəli gələrək. Məktəbin ixtiyarı var ki, ayrı-ayrı siniflərdə, müxtəlif fənlərdə müəyyənləşdirici qiymətləndirmənin müxtəlif modelindən istifadə etsinlər. Aşağıda qiymətləndirmə rubrikası təqdim edilir və bu da göstərir ki, təlim-tədris prosesində hansı xırdalıqlar qiymətləndirilməlidir.

| **Ümumi meyar (ümumi)** | **Qiymətləndirmə meyarları (konkret)** | **Bal** | **Şərh** |
|---|---|---|---|
| Şagird dərs prosesinə aktiv cəlb olunmuşdur | Şagird kompleks tapşırığının şərtini düzgün başa düşdü | | |
| Şagird faktiki material üzrə biliyi büruzə verir; prosedur biliyindən istifadə edərək hədəf anlayışı ilə bağlı fikirləri ümumiləşdirir. | Fənn üzrə məsələ/məsələlər: | | |
| Şagird kompleks tapşırığın qiymətləndirmə meyarı şəklində formalaşmış fikirləri ümumiləşdirə bilir. | Kompleks tapşırığın qiymətləndirmə meyarı 1. | | |
| | Kompleks tapşırığın qiymətləndirmə meyarı 2. | | |

**Yekunlaşdırıcı (inkişafetdirici və müəyyənləşdirici) qiymətləndirmə**

Yekunlaşdırıcı qiymətləndirmə ölçməlidir ki, şagird hədəf anlayışlarına nə dərəcədə sahibdir və ya bunlardan nə dərəcədə funksional istifadə edir. Anlayışların mənimsənilmə səviyyəsini qiymətləndirmək üçün b.a. Solo taksonomiyasından istifadə edilir (müşahidə olunan dərs nəticələrinin struktur taksonomiyası – ingil. SOLO – Structure of Observed Learning Outcomes) və bu da qiymətləndirmə meyarlarının hazırlanması üçün platformanı təqdim edir. Solo taksonomiyası şagirdlərin nailiyyətlərini 5 səviyyəyə əsasən ölçür. Bu səviyyələrdir:

| |
|---|
| **SOLO 1: Prestruktur səviyyəsi**<br>Şagird, ümumiyyətlə, məsələni dərk etməmişdir. Qeyri-müvafiq, qeyri-relevant məlumatdan istifadə edir və ya ümumiyyətlə, məsələdən kənara çıxmışdır. |
| **SOLO 2: Unistruktur səviyyəsi**<br>Şagird yalnız bir aspekti təhlil etməyi bacarır və sadə, açıq-aydın əlaqələri qura bilir. Şagird terminologiyadan istifadə edə bilir, şifahi ötürür (yadına salır), sadə təlimatları/alqoritmləri yerinə yetirir: parafraz şəklinə salır, tapır, adlandırır və ya sadalayır. |
| **SOLO 3: Multistruktur səviyyəsi**<br>Şagird ayrı-ayrılıqda bir neçə aspekti təhlil edir, bir-biri ilə əlaqə xaricində. Sadalaya, təsvir edə, çeşidlərə ayıra, kombinə edə bilir; metodlardan, strukturdan istifadə edir; prosedurları yerinə yetirir və s. |
| **SOLO 4: Yanaşma səviyyəsi**<br>Şagird bir neçə aspekt arasında əlaqəni, eləcə də bu aspektlərin bir-birinə nə qədər uyğun olduğunu dərk edə bilir və bütövü yaradır. Onun düşündükləri strukturlaşdırılmış və belə ki, şagirdin müqayisə etmək, əlaqələndirmək, analiz etmək, nəzəriyyədən istifadə etmək, səbəblər və nəticələr cəhətindən məsələni izah etmək qabiliyyəti var. |
| **SOLO 5: Genişləndirilmiş mücərrədlik səviyyəsi**<br>Şagird veriləndən/təklif ediləndən kənarda strukturu ayırmağı bacarır, bir çox müxtəlif cəhətdən/nəzərdən strukturu qavrayır və ideyaları yeni sahəyə keçirir. Ümumiləşdirməyi, fərziyyəni yürütməyi, tənqid və ya nəzəriyyəni formalaşdırmağı bacarır. |

Yekunlaşdırıcı qiymətləndirmə üçün kompleks tapşırıqlardan istifadə edilir və bunların yerinə yetirilməsi standartla müəyyən edilən biliyin və bacarıqların inteqrativ və funksional istifadəsini tələb edir.

Kompleks tapşırığın konkret nümunəsinə əsasən yaradılmış inkişafetdirici qiymətləndirmə rubrikasını təqdim edirik.

Aşağıda verilən qiymətləndirmə rubrikasını həm hədəf anlayışı ilə münasibətdə şagirdin nailiyyətini təsvir etmək üçün, eləcə də inkişafetdirici şərh üçün istifadə edə bilərik. Bu, müəllimin iş vərəqidir və onun əsasında da konkret məsələ hüdudlarında hədəf anlayışı ilə münasibətdə şərhi formalaşdıracaqdır.

**İnkişafetdirici qiymətləndirmə rubrikasının təsviri:**

Cədvəlin ilk üfüqi, titul sətrində verilən məlumat vurğulayır ki:

- Bu forma ilə **şagirdlərin hamısı fərdi** qiymətləndirilir;
- Şagirdlər **uzunmüddətli məqsədlərlə** qiymətləndirilirlər, yəni fənn üzrə hədəf anlayışları ilə münasibətdə;
- Fənn anlayışı üzrə iş **konkret (və ümumi deyil) fənn məsələsinə** istinad edərək baş verir;
- Fənn məsələsi ilə bağlı şagirdin biliyinin yoxlanılması **kompleks tapşırığın vasitəsilə** baş verir.

Mavi (boz) üfüqi sütunda hədəf anlayışları (burada konkret fənn üzrə neçə hədəf anlayışı sayında şaquli sütun var), mavi (boz) şaquli sütunda isə bu hədəf anlayışlarının dərk edilməsi səviyyələri verilmişdir (SOLO taksonomiyasına əsasən). Mavi sütunda ümumi təsvir verilir, anlayış və səviyyənin kəsişməsində bu təsvirlər aşağıda verilən misallara uyğun olaraq konkretləşdirilir.

Şagirdin adı, soyadı ____________________________________________
Fənn və hədəf anlayışı ____________________________________________
Məsələ ____________________________________________

<table>
<tr><th>Hədəf anlayışı<br>Meyar</th><th colspan="2">Hədəf anlayışı 1</th><th colspan="2">Hədəf anlayışı 2</th><th colspan="2">Hədəf anlayışı 3</th></tr>
<tr><td>Mücərrədlik səviyyəsi<br>Şagird məsələnin mahiyyətini/mahiyyət xüsusiyyətlərini dərinlikdən başa düşür və bu da ona bu biliyini cəmləşdirmək və onu dekontekstuallaşdırmaq/başqa oxşar misallarla müqayisə etmək imkanını verir.Təhlil edilәsi məsələləri öz təcrübəsi ilə əlaqələndirir.</td><td colspan="3">təsvir</td><td colspan="3">şərh</td></tr>
<tr><td>Yanaşma səviyyəsi<br>Şagird təhlil edilәsi məsələnin mahiyyətini başa düşür; məsələ ilə bağlı əsas struktur vahidləri arasında qarşılıqlı yanaşmaları görür.</td><td>təsvir</td><td>şərh</td><td>təsvir</td><td>şərh</td><td>təsvir</td><td>şərh</td></tr>
<tr><td>Multistruktur səviyyəsi<br>Şagirdin təhlil edilәsi məsələ ilə bağlı yalnız bir neçə, bir-biri ilə əlaqəsiz, sistemsiz assosiasiyası/təqdimatı var.</td><td>təsvir</td><td>şərh</td><td>təsvir</td><td>şərh</td><td>təsvir</td><td>şərh</td></tr>
<tr><td>Unistruktur səviyyəsi<br>Şagirdin təhlil edilәsi məsələ ilə bağlı yalnız bir qeyri-strukturlaşdırılmış assosiasiyası/təsəvvürü var.</td><td>təsvir</td><td>şərh</td><td>təsvir</td><td>şərh</td><td>təsvir</td><td>şərh</td></tr>
<tr><td>Prestruktur səviyyə<br>Şagirdin məsələ ilə bağlı relevant informasiyası yoxdur.</td><td>təsvir</td><td>şərh</td><td>təsvir</td><td>şərh</td><td>təsvir</td><td>şərh</td></tr>
</table>

**İnkişafetdirici qiymətləndirmə üçün şərh necə edilməlidir?**

Məsələn, təsəvvür edək ki, şagirdə Çariça Tamaranın fəaliyyətini öyrədirik və bu məsələ ilə bağlı növbəti kompleks tapşırığını veririk: “Kartlinin həyatından” Kutlu Arslanın dəstəsinin çıxışı haqqında naməlum müəllifin məlumatları ilə tanış olun. Burada hadisələr Çariça Tamaranın xeyrinə təsvir edilir. Təsəvvür edin ki, Tamaranın dövründə yaşayan salnaməçisiniz və çariçanın rəqibi Kutlu Arslana xoş münasibət göstərirsiniz və “İsani düşərgəsi”-nin yaranmasını dəstəkləyirsiniz. Qısa “salnamə” yaradın və bunda da Kutlu Arslanın dəstəsinin çıxışını Çariça Tamaranın naməlum salnaməçisindən fərqli şərhlə göstərəcəksiniz.

*İşinizdə/işinizin təqdimatında xüsusilə qeyd edin:*

1. Dövrün müasir tarixçisinin tendensivliyinə hansı amillər səbəb olurlar?
2. Kutlu Arslanın dəstəsinin çıxışı haqqında sizin və rəqib tarixçinin – məs., Basili Ezosmodzğvarinin fikirləri bir-birindən hansı xırdalıqlarda fərqlənir; fərqli şərh səbəbi nədən ibarətdir;
3. Çariça Tamaranın dövrü haqqında daha hansı mənbələr mövcuddur; onlar nə qədər etibarlıdırlar.

Kompleks tapşırıq “Mənbə” hədəf anlayışının dərk edilməsinə yönəlmişdir və müvafiq olaraq onun kriteriləri (başlıq altında „işdə/işin təqdimatında xüsusilə göstərin”) “Hədəf anlayışı”-nın əsas təsvirləri ilə əlaqələndirilir:

- Keçmiş haqqında məlumatı tarixçilər mənbələrdən götürürlər;
- Keçmişi öyrəndikdə tarixçilər müxtəlif növ mənbələrə (əşyayi, etnoqrafik, yazılı, linqvistik, kino-foto-fono sənədlərə) istinad edirlər;
- Mənbələrin hamısı eyni şəkildə etibarlı deyil;
- Mənbələrdən əldə edilən informasiya birmənalı deyil, buna görə də interpretasiya tarixçilər arasında diskussiya predmetidir.

Əlbəttə ki, bu tapşırığı ayrı-ayrı şagird müxtəlif səviyyədə yerinə yetirəcəkdir. Müvafiq olaraq, bizim tərəfimizdən onların nailiyyətlərinin qiymətləndirilməsi və inkişafetdirici şərh fərqli olmalıdır. Aşağıda çariça Tamara haqqında 5 şagirdin kompleks tapşırığı qiymətləndirilmişdir. Bunlardan birincisi prestruktur səviyyəsinə aiddir, ikinci - unistruktur, üçüncü – multistruktur, dördüncü – yanaşma, beşinci – mücərrəd səviyyəyə. Hər bir şagirdin halında iki qrafa doldurulmuşdur: biri şagirdin nə etdiyini göstərir və bunun əsasında hansı nəticə çıxartdım (təsvir) və ikinci göstərir ki, şagirdə hansı məsləhəti verdim (şərh).

**Birinci şagirdin işi – prestruktur**

Şagird tapşırığın mahiyyətini və bununla bağlı sualları başa düşmür və müvafiq olaraq, müəllimin şərhi prestruktur səviyyənin “Mənbə” hədəf anlayışında veriləcəkdir.

| **HƏDƏF ANLAYIŞI** | **MƏNBƏ** | |
|---|---|---|
| **Meyar** | Təsvir<br>**Şagird nə etdi və bunun əsasında hansı nəticə çıxardım** | Şərh<br>**Şagirdə hansı məsləhəti verdim (inkişafetdirici qiymətləndirmə)** |
| **Pre-struktur səviyyəsi**<br>Şagirdin məsələ ilə bağlı relevant məlumatı yoxdur. | Şagird tapşırığı yerinə yetirə bilmədi, Çariça Tamara ilə bağlı tapşırığın şərtini başa düşə bilmədi (əks salnamə yaratmağı) | Yadına sal ki, çariça Tamara haqqında nə eşitmisən. Əlavə məlumat axtar tap və ya fikirləş ki, haradan daha çox məlumat öyrənə bilərsən. Hadisəni yadına sal ki, eyni əhvalatı iki insan fərqli şəkildə nəql edir və fərqli mövqeləri ifadə edir. Çalış ki, tapşırığı bu iki amili nəzərə almaqla yerinə yetirəsən. |

**İkinci şagirdin işi – unistruktur səviyyə**

Şagird tapşırığın mahiyyətini başa düşsə də, onunla bağlı suallara yalnız əsas sözlərlə münasibətdə reaksiya verir, müvafiq olaraq, müəllimin şərhi unistruktur səviyyə qrafasında "Mənbə" sütununda olacaqdır.

| **HƏDƏF ANLAYIŞI** | **MƏNBƏ** | |
|---|---|---|
| **Meyar** | Təsvir<br>**Şagird nə etdi və bunun əsasında hansı nəticə çıxardım** | Şərh<br>**Şagirdə hansı məsləhəti verdim (inkişafetdirici qiymətləndirmə)** |
| **Unistruktur səviyyə**<br>Şagirdin məsələ ilə bağlı relevant məlumatı yoxdur. | Şagird tapşırığın mahiyyətini başa düşdü, "Salnamə"-yə oxşar bir abzasdan ibarət inşa yaratdı, halbuki bu mətn yalnız səthi qiymətləndirmə sözlərindən ibarətdir (özəlliklə də qeyd edir ki, "Tamara başqalarının hesab etdiyi kimi xeyirxah deyildi, çünki rəqiblərinə amansız idi və ya Tamaranın tərəfdaşı tarixçilər yalan danışırlar və onun pis işləri haqqında yazmırlar). Göründüyü kimi, şagird Tamaranın dövrü ilə bağlı faktlar haqqında heç nə bilmir. | Sən tapşırığın şərtini düzgün başa düşdün, amma göründüyü kimi, dərs materialını oxumamısan. Xahiş edirəm, diqqətlə oxu və konkretləşdir ki, Tamaranın salnaməçisi ilə nədə razılaşmırsan. |

**Üçüncü şagirdin işi – Multistruktur səviyyə**

Şagirdin öyrənilәsi məsələ ilə münasibətdə bir neçə assosiasiyası var, amma eyni məsələ/əsas ideya ilə bağlı ötürdüyü əhvalatların ardıcıl, mütəşəkkil şəkli yoxdur. Müvafiq olaraq müəllimin şərhi multistruktur səviyyə qrafasında “Mənbə” hədəf anlayışı sütununda olacaq.

| **HƏDƏF ANLAYIŞI** | **MƏNBƏ** | |
|---|---|---|
| **Meyar** | Təsvir<br>**Şagird nə etdi və bunun əsasında hansı nəticə çıxardım** | Şərh<br>**Şagirdə hansı məsləhəti verdim (inkişafetdirici qiymətləndirmə)** |
| **Multistruktur səviyyə**<br>Şagirdin məsələ ilə bağlı relevant məlumatı yoxdur. | Şagird tapşırığın mahiyyətini dəqiq başa düşüb və onu paraqrafda təqdim edilən materialla (özəlliklə də qeyd etmişdi ki, Tamara ona görə pis davrandı, çünki Demna Batonişviliyə məxsus taxt-tacı tutmuş, Kutlu Arslana düzgün yanaşılmamışdı) əlaqələndirmişdir. Amma tapşırığın əsas ideyasına diqqət vermir, Tamaranın tərəfdaşı olan tarixçinin tendensivliyini göstərmir. Tapşırığın forması üzərində də işlənilməlidir, şagird məsələ ilə bağlı əhvalatı “salnamə” kimi bəzəmir, ayrı-ayrı cümlələrlə verir. | Sən tapşırığın şərtini düzgün başa düşmüsən. Paraqrafda verilən materialı da oxumusan və tapşırıqla da əlaqələndirmisən, amma xahiş edirəm, tapşırıqda xüsusilə ayırasan ki, Tamaranın tarixçisi ilə nədə razılaşmırsan və xüsusilə qeyd etməlisən ki, nə üçün düşünürsən ki, camaat onun hekayətinə inanmasın. Nəzərə al ki, “salnamədə” tarix maraqlı əhvalat şəklində ötürülməlidir ki, dinləyicilər üçün daha aydın olsun. |

**Dördüncü şagirdin işi– yanaşma səviyyəsi**

Şagird hədəf anlayışı ilə bağlı əhvalatları ardıcıl və mütəşəkkil şəkildə ötürür. Hədəf anlayışının mahiyyət xüsusiyyətləri üzrə əlaqəli şəkildə müzakirə aparır. Kompleks tapşırığın qiymətləndirmə kriteriləri vasitəsilə müəyyən edilmiş incəlikləri ayırır. Müvafiq olaraq müəllimin şərhi yanaşma səviyyəsi qrafasında "Mənbə" hədəf anlayışı sütununda olacaqdır.

| **HƏDƏF ANLAYIŞI** | **MƏNBƏ** | |
|---|---|---|
| **Meyar** | Təsvir<br>**Şagird nə etdi və bunun əsasında hansı nəticə çıxardım** | Şərh<br>**Şagirdə hansı məsləhəti verdim (inkişafetdirici qiymətləndirmə)** |
| **Yanaşma səviyyəsi**<br>Şagirdin məsələ ilə bağlı relevant məlumatı yoxdur. | Şagird Çariça Tamara haqqında məlumatı maraqlı və yaradıcılıqla ötürür. Onun inşasında Tamaranın tarixçilərinin tendensivliyinə səbəb olan amillər özünü göstərir (xüsusilə deyir ki, tarixçi Çariçaya yaxın idi və bir sıra faktları gizlədirdi, məsələn, Çariça Tamaranın taxt-taca çıxmasını qabaqlayan III Qiorqinin repressiyalarını). Amma tapşırıqda səhvlərə yol verilmişdi, bunlar da bizi düşündürür ki, şagird sonuna qədər çariça Tamaranın yaşadığı dövrü anlamamışdı (məsələn, knyazların adını çəkir, deyir ki, Tamara XI əsrdə çariça olmuşdu). | Sən tapşırığı çox yaxşı yerinə yetirmisən. Sənin inşanda növbəti kriterilər ayrılmışdır:<br>Dövrün çağdaş tarixçisinin tendensivliyinə hansı amillər səbəb olmuşdu? Kutlu Arslanın dəstəsinin çıxışı haqqında sizin və qarşı tərəfin tarixçisinin fikirləri bir-birindən hansı incəliklərdə fərqlənir?; fərqli şərhin yaranma səbəbi nədən ibarətdir? Amma Çariça Tamaranın dövrü haqqında daha hansı mənbələrin olduğu kriterisi çox az vurğulanır ki, onlar nə qədər etibarlıdırlar. Bəlkə, təsvir etdiklərinin xeyrinə danışan Tamara dövrünü əks etdirən başqa mənbələri adlandırmağa çalışasan. Diqqəti faktiki səhvlərə də yönəltməlisən (məs., həmin dövrdə hələ ki, knyazlar və knyazlıqlar yox idi). Eləcə də Tamaranın çarlığından öncə hansı çarlar hökmranlıq edirdilər. |

**Beşinci şagirdin işi – mücərrədlik səviyyə**

Şagird kompleks tapşırıq vasitəsilə ayrılmış misallara istinad edərək əlaqəli şəkildə fənn çərçivəsində ayrılmış bir neçə/bütün hədəf anlayış hədəfi barəsində müzakirə edir. Kompleks tapşırıq vasitəsilə ayrılmış məlumatı şəxsi təcrübəsi və başqa həyat vəziyyətləri ilə əlaqələndirir. Müvafiq olaraq, müəllimin şərhi mücərrədlik səviyyəsinin qrafasında "mənbə" hədəf anlayışı sütununda olacaqdır.

| **HƏDƏF ANLAYIŞI** | **MƏNBƏ** | |
|---|---|---|
| **Meyar** | Təsvir<br>**Şagird nə etdi və bunun əsasında hansı qənaətə gəldim** | Şərh<br>**Şagirdə hansı məsləhəti verdim (inkişafetdirici qiymətləndirmə)** |
| **Mücərrədlik səviyyəsi**<br>Şagirdin məsələ ilə bağlı relevant məlumatı yoxdur. | Şagird tapşırığın mahiyyətini başa düşüb, "salnamə" hazırlamışdı, bunda da Tamaranın çarlığını əks etdirən tarixi fərqli şərhlə ötürür (məs., Kutlu Arslanın dəstə üzvlərinin çıxış motivini belə adlandırmışdı ki, III Qiorqinin dövründə yer alan zülmkarlıq təkrar olunmasın). Çariça Tamaranın tarixçisinin tendensivliyini onun Çar Sarayına yaxınlığı ilə izah edir (məs., Tamaranın salnaməçisinin müdrik Çxondideli olduğu faktını fikirləşmişdi). İnşadan görünür ki, şagird Tamara dövrü ilə bağlı materialı bilir və hədəf anlayışı kontekstindən onları dərk edir; xüsusilə də: 12-ci əsrin Gürcüstan və dünya siyasi xəritəsinin biliyini büruzə verir ("məkan" hədəf anlayışı), ölkənin sosial-siyasi təşkili üzrə biliyi, məs., adekvat şəkildə növbəti terminləri xatırladır: "qocaman Çxondideli", "əsilsizlərin yüksəlişi", "knyazlıqlar" (hədəf anlayışı "hakimiyyət"), çariça Tamaranın çarlığını onun ötən dövrünün tarixi hadisələri arasında və onun səbəb-nəticə əlaqələrini qurur (hədəf anlayışı "tarixi hadisə/proses").<br>Şagird dövrün əzmini daha yaxşı göstərmək üçün arxaik sözlərdən istifadə edir. | Sən tapşırığın öhdəsindən çox yaxşı gəlmisən. Sənin işindən görünür ki, tarixi mənbə kimi "Kartlinin həyatını" dərindən başa düşmüsən; Tamaranın dövründə hakimiyyət uğrunda mübarizə xüsusiyyətlərini; müvafiq dövrün Gürcüstanın xarici və daxili siyasəti üçün aktual məsələlərini; Kutlu Arslanın dəstəsinin çıxış səbəblərini və nəticələrini. Zəhmət olmasa, "salnamədə" ayrılmış incəliklərlə əlaqəli olan tarixdən, şəxsi həyatından misalları yadına sal: Tamaranın tarixçisinin tendensivliyi kimi isə və ya nəyi isə sənə xatırlatmır ki; Kutlu Arslanın dəstəsinin çıxışı hansı tarixi hadisəni sənə xatırladır; Tamaranın dövrü və ona xarakterik tarixi dövrlər başqa tarixi dövrlərdən nə ilə fərqlənirlər. |

**Ümumiləşdirici qiymətləndirmə üçün tipik tapşırıqlar**

Standartla nəzərdə tutulmuş tipik ümumiləşdirici tapşırıqlar siyahısını təklif edirik. Şagirddən və ya müəllimdən asılıdır ki, hansı tapşırığı/tapşırıqları seçəcəkdir.

- Mənbənin təhlili;
- Videomaterialın və filmlərin təhlili;
- Muzeyə baş çəkmək;
- Ekskursiya;
- Sorğu/tədqiqatın keçirilməsi;
- Rollarla oyun – pyesin qoyulması, nəyinsə oynanılması;
- ədəbi məzmunlu yaradıcılıq materialının yaradılması (birinci şəxsdə gündəliyin, cizginin yazılması).

## Təlim-tədris strategiyaları

Maarifləndirici ədəbiyyatda tədris metodlarının müxtəlif təsnifatı qəbul edilmişdir. Əsasən metodların iki qrupu ayrılır:

- konkret materialın mənimsənilməsini dəstəkləyən metodlar;
- Ümumi/transfer bacarıqların inkişafına yönəlmiş metodlar;
- Sözügedən bölgü bir növ şərti xarakter daşıyır, çünki metodların əksəriyyəti fənlə birlikdə şagirdlərə ümumi kompetensiyanın inkişafında da yardım edir.

Tədqiqatlarla məlum olmuşdur ki, heç bir metod universal deyil. Vacibdir ki, müəllim konkret fənlə münasibətdə, yaş qrupu, müəyyən fərdi xüsusiyyətlərə malik şagirdlərlə münasibətdə hər bir metodun istifadəsi imkanlarını analiz və dərk etsin, yalnız bundan sonra lazımi seçim etsin. “Metod” anlayışı məqsədin əldə edilməsi yolunu, üsulunu nəzərdə tutur. Tədris metodu şagirdlər arasında lazımi kompetensiyanın inkişafı üçün müəllimin məqsədyönümlü əməlini təqdim edir. Tədris metodunun seçimi üçün müəllim tərəfindən dərsin tədris məqsədləri və ehtimal nəticələrinin və ehtimal nəticələrin müəyyənləşdirilməsi vacibdir, çünki məhz dərs məqsədləri nəticədən asılıdır. Belə ki, konkret metodu seçdikdə, seçilən metodun fəallıqla, şagirdlərin imkanları və təcrübəsi ilə uyğunluğu nəzərə alınmalıdır, eləcə də fəallıq üçün lazımi resursun əlçatması, fəallıq üçün müəyyən edilmiş vaxtın uyğunluğu və s. önəmlidir.

Diqqətəlayiqdir ki, bir çox hallarda, dərs təcrübəsində fəallığın və metodun eyniləşdirilməsi baş verir. Fəallıqda sual verilir: “Müəllim nə edir?” Məsələn, müəllim siniflə birlikdə qrup işinin qaydalarını işləyib hazırlayır, sual isə belə səslənir: “müəllim necə edir?” (belə ki, bu fəallığı hansı didaktik üsulla həyata keçirir) – metodu.

Şagird tədris metodlarından effektiv istifadə etməsi üçün effektiv təlim strategiyalarına malik olmalıdır. Bu strategiyaların arasında ayırırlar: **1. koqnitiv strategiyaları.** Bunların vasitəsilə şagird biliyi əldə edir/qazanır, üzərində işləyir, analiz edir, tənqidi qiymətləndirir, başqa vəziyyətdə istifadə edir; **2. metakoqnitiv strategiyaları** (metakoqnisiya – öz təfəkkürü haqqında təfəkkür). Şagirdin şəxsi tədris prosesinə, idarə etməyə, monitorinqə və qiymətləndirməyə aktiv cəlb olunmasına dəstək verir, inkişaf etdirir ki, şagird analiz etsin və nəticə çıxarsın ki, nəyi və necə öyrənmiş və özünün inkişafını planlaşdırır; **3. sosial strategiya,** bu da sosial inteqrasiyaya əsaslanır və dərs mühitində biliyin quraşdırılması üçün üstünlüyü əməkdaşlıqla tədrisə verir (məsələn, qrup işi, diskussiya, qarşılıqlı təlim və s.); **4. Resurslara əsaslanan strategiya** (multimedia, şəbəkə dərs vasitələri, məsələn, internet, kitabxana və s.).

**1. Koqnitiv diaqramlar**

Qrafik sxemlərin istifadəsi təsəvvürün qeyri-linqvistik formaları arasında ən geniş yayılmış metodudur. Qrafik sxem, bir qayda olaraq, təsəvvürün hər iki formasını nəzərdə tutur – linqvistik və qeyri-linqvistik. Sözlər və ifadələr linqvistikdir.

Müxtəlif növ simvollar və oxlar qeyri-linqvistikdir, bunlar da simvollar arasında münasibətləri ifadə edirlər.

Koqnitiv diaqramlarla, yəni qrafik təşkilatçılarla iş şagirdlərə mühüm məlumatın qavranılmasında yardım edir. Şagirdlərə mətnə, ideyaya, məsələyə nəzarət mexanizmi verilir, bu da bütövün və hissənin, anlayışın və detalların qarşılıqlı əlaqəsinin təyin edilməsi və vizual görünməsində yardım edəcəkdir.

**Koqnitiv diaqramların vasitəsilə şagird:**

- Verilən məlumatı üzvlərə ayırır;
- Məlumatı təşkil edir;
- Bütövün və detalların qarşılıqlı əlaqəsini dərk edir;
- Tənqidi təfəkkürə adət edir;
- Müstəqil işi öyrənir.

**Koqnitiv diaqramlardan nə vaxt və necə istifadə edilir:**

- Həm yeni materialın tanışlığı-təqdimatında, eləcə də materialın mənimsənilməsindən sonra ümumiləşdirici işin keçirildiyi zaman istifadə edilir;
- Həm mətnin oxunulması və işlənilməsində, eləcə də yazılı işin başlandığı zaman istifadə olunur;
- Həm ev tapşırığının, eləcə də sinif işinin keçirildiyi zaman istifadə edilir;
- Həm fərdi, eləcə də qruplarda iş zamanı istifadə edilir.

Oxşarlıq və fərqlə əlaqələnən metodlar təlimin özəyi kimi hesab edilə bilər. Bu metodun effektivliyinin əsaslandığı eksperimental işin analizi əsasında aparılan tədqiqatlarda diqqət həmin fakta yönəlir ki, faktları, hadisələri və s. müqayisə etdikdə, ümumi və fərqləndirici əlamətlərin ayırd edilməsinə yönlənmə sualların yaranmasına, lazımi sübutlarla variantların ortaya çıxmasına, diskussiya vəziyyətinin yaranmasına səbəb olsun. Bundan başqa, bu növ tapşırıqlar üzərində iş zamanı şagirdlər qazandıqları biliyin aşkarlanmasını və fərqli kontekstdə istifadə edilən vərdiş-bacarıqları büruzə verirlər. Xüsusilə də oxşarlıq və fərq metodunun istifadəsi effektivdir, çünki şagirdlər müəllimin işarələri xaricində, birgə iş (qrup) şərtlərində lazımi nəticələr çıxarırlar və bunlar da yeni, bəzən qarşılıqlı fərqli ideyaların stimullaşdırılmasına dəstək verir. Biliyin dərk edilməsi və istifadəsinin effektivliyini şagirdlərin qrafiki sxemlərdən və diaqramlardan istifadəsi artırır və bu da ümumi və fərqləndirici əlamətlərin aşkarlanmasının stimulyasiyasına dəstək verir. Effektiv müqayisə üçün şagirdlər tərəfindən müqayisə ediləsi obyektlərin, faktların, hadisələrin mühüm xüsusiyyətlərinin aydın şəkildə müəyyənləşdirilməsi diqqətəlayiqdir və bu da sonra artıq oxşarlıq və fərqin eyniləşdirilməsinin əsasını verir. Vacibdir ki, müəllim müqayisə üçün aydın strukturlaşdırılmış çalışmalardan (nəyi və hansı xüsusiyyətlərinin əsasında

müqayisə edirlər) istifadə etsin və bu da şagirdlər tərəfindən göstərilən səyin müəyyən növ nəticələrə müraciəti nöqteyi-nəzərindən diqqətəlayiqdir. Bu növ tapşırıqlar şagirdlərin eyni xüsusiyyətlər arasında mövcud oxşarlıq-fərqləri tapmağa yönəlmişdir. Müqayisə və oxşarlıq-fərq məqsədilə istifadə edilir:

**Venn diaqramı**



Venn diaqramı iki fənnin və ya hadisənin, müzakirə ediləsi məsələlərin, faktların, müxtəlif sənətkarın yaradıcılığının, incəsənətin bir sahəsinin, janrının və s. nümunələrinin həm ümumi, eləcə də fərqli əlamətlərinin qeyd edilməsi üçün istifadə edilir: çevrələrin kəsişdiyi sahədə ümumi, sağ və sol sahələrdə isə - fərqli əlamətlər yazılır.

Venn diaqramında iş şagirdə təhlil ediləsi məsələni daha yaxşı dərk etməkdə və qavramaqda yardım edir, müşahidə, tənqidi və analitik təfəkkür və müstəqil iş vərdiş-bacarıqlarını inkişaf etdirir.

Venn diaqramında iş həm fərdi, eləcə də cütlükdə və qruplarda çalışmalarda mümkündür.

## MÜQAYİSƏ MATRİSİ

Bu qrafiki sxem ikidən çox fənn və ya hadisə, əsər və s. müqayisə edildiyi halda istifadə edilir, bu da müqayisə olunası obyektlərə daha ətraflı yanaşmanı nəzərə alır, müqayisə-fərqdən başqa hər bir obyektin xüsusiyyətləri də qeyd edilir.

**Diaqram 2**
**Müqayisə matrisi**
**Matris**

| Xüsusiyyətlər | Müqayisə üçün mövzular | | | |
|---|---|---|---|---|
| | # 1 | # 2 | # 3 | |
| 1 | | | | oxşarlıqlar |
| | | | | fərqlər |
| 2 | | | | oxşarlıqlar |
| | | | | fərqlər |
| 3 | | | | oxşarlıqlar |
| | | | | fərqlər |
| 4 | | | | oxşarlıqlar |
| | | | | fərqlər |

**T-diaqramı**

| Maraqlar | Təhlükələr |
|---|---|
| | |

Sxemdən təhlil ediləsi məsələləri (faktların, hadisələrin, bədii istiqamətlərin, dövrlərin, incəsənət nümunələrinin və s.) müqayisə etmək, qarşılaşdırmaq üçün istifadə edilir, yəni yalnız fərqləndirici əlamətləri qeyd etmək üçün. Müvafiq olaraq, sxemin hər bir qrafasında faktların, hadisələrin və s. fərqli işarələri yazılır. Sxem üzərində iş təhlil ediləsi məsələni daha yaxşı başa düşməkdə, onun mənasına çatmaqda şagirdin işini asanlaşdırır, müşahidə, nəticə çıxarmaq, tənqidi təfəkkür və müstəqil iş bacarıqlarını inkişaf etdirir. Sxem üzərində iş həm fərdi, eləcə də cütlükdə və qruplarda mümkündür.

**İkitərəfli qeydlər gündəliyi**

Bu sxem üzərində işdən şagirdin tənqidi təfəkkür və sübutlu müzakirə, müstəqil iş bacarıqlarının inkişafı üçün istifadə edilir. Verilən sxemin birinci qrafasında ("sitat") şagirdlərə təklif edirik ki, dərslikdən (bu məqsədlə başqa növ informasiyadan istifadə etmək olar) sitat yazsınlar, bununla əlaqədar da öz fikirlərini sxemin ikinci hissəsində ("şərh") yazsınlar.

| Sitat | Şərh |
|---|---|
| | |

**"Bilirəm, öyrəndim, öyrənmək istəyirəm"**

Yeni mövzunu başladıqda, şagirdlər verilən sxemin birinci qrafasında qeydlər aparırlar. Mövzunu başa çatdırdıqda isə, əsasən ümumiləşdirici dərsdə, ikinci və üçüncü qrafaları doldururlar. Müəllim üçün qeydlərin analizi vacibdir, bu da şagirdlər tərəfindən qazanılan biliyin mənimsənilmə səviyyəsini, eləcə də üçüncü qrafada yerinə yetirilən qeyddəki elmi maraqları aydın göstərir.

| Nə bilirəm | Nəyi öyrəndim | Nəyi bilmək istəyirəm |
|---|---|---|
| | | |

**“3, 2, 1”**

Verilən sxem üzərində iş həm qazanılan biliyi aşkar etmək, öz münasibətini göstərmək, həm də özünü qiymətləndirmək bacarıqlarını büruzə vermək üçün vacibdir. Verilən sxem üzərində iş tematik dövrün ümumiləşdirici dərsi üçün məqsədəuyğundur. Yaxşı olardı ki, şagirdlər əvvəlcədən məlumatlandırılsınlar ki, hər bir qrafada yalnız mövzuları və ya məsələləri sadalamaq kifayət etmir. Onlar öz fikirlərini sübut etməlidirlər, bu da dərs materialı üzərində diqqəti cəmləşdirmək, tənqidi təfəkkür və sübutli müzakirə vərdiş-bacarıqlarının inkişafına dəstək verir.

| | |
|---|---|
| Səndə xüsusi maraq yaradan 3 mövzunu/ məsələni yaz. | |
| Daha çox məlumat almaq istədiyin 2 mövzunu/ məsələni yaz. | |
| Dostlarınla müzakirə etmək istədiyin 1 mövzu/ məsələ | |

**Assosiativ xəritə (b.a. “tor”)**

Assosiativ xəritədən şagirdlərin diqqətinin maksimal səfərbər edilməsi və cəmləşdirilməsində, təfəkkürün aktivləşdirilməsi, qazanılan biliyin aşkar edilməsi-möhkəmlənməsi, ümumiləşdirilməsi məqsədilə istifadə edilir. Lövhənin və ya vərəqin mərkəzində əsas söz/ifadə yazılır, bu da konkret termini, dövrü, hadisəni, şəxsiyyəti və s. bildirə bilər. Sözügedən əsas sözün ətrafında şagirdlər sözləri, ifadələri yazırlar, hansıları bu sözlərlə/ifadələrlə bağlı yada salırlar. Bundan sonra məntiqi olaraq həm bir-biri ilə, eləcə də dayaq sözlər ilə bu sözləri, ifadələri əlaqələndirirlər və xətlərlə göstərirlər. Bu metoddan həm fərdi, eləcə də qrup işində istifadə etmək olar.



Bu koqnitiv sxemlərdən başqa, informasiyanın təşkilinin konkret paraqiqmalarına uyğun daha bir neçə qrafik sxemi təklif edirik.

- **Təsviri paradiqmalar.** Təsviri paradiqmadan konkret insanların, yerlərin, əşyaların və hadisələrin haqqında faktları təqdim etmək üçün istifadə olunur. Vacib deyil ki, təsviri paradiqmada verilən məlumat hər hansı bir ardıcıllığa əsasən yerləşdirilməlidir.




- **Vaxt ardıcıllığının paradiqmaları.** Vaxt ardıcıllığı paradiqması hadisələrin xronoloji prinsiplə düzülüşünü nəzərdə tutur. Belə bir sxemlərin doldurulması şagirdlərə xronologiyanı təyin etməkdə və görməkdə kömək edir.






Saat – hadisələrin ardıcıllığı

**Proses/səbəb-nəticə paradiqmaları.** Proses/səbəb-nəticə paradiqması informasiyanın düzülüşünü nəzərdə tutur.  Konkret nəticəyə aparan a. kauzatik şəbəkədə və ya b. konkret materialla məntiqi yerinə yetirilən hərəkətlər birliyində.

a.




b.

**Hadisə 1 bu ona görə baş verdi ki:**

**NƏTİCƏ**




**Epizodun paradiqmaları.** a. hadisənin vaxtı və yeri, b.konkret insanlar, c. hadisənin müddəti, d. hadisələrin konkret ardıcıllığı, e. konkret səbəb və nəticə kimi konkret informasiyanı əlavə edin.

HADİSƏNİN TƏSVİRİ



**2. Metakoqnitiv strategiyalar**

Metakoqnisiyanın hərfi tərcüməsi koqnisiya deməkdir (bilik, elm) və ya bilik və təlim haqqında bilik. Bu metakoqnitiv bilik ali sıranın koqnisiyasıdır və məntiqi düşüncə, anlayış-analiz, problemin həlli, təlim və s. kimi koqnitiv proseslərin monitorinqi və tənzimlənməsi üçün istifadə edilir. İnsanlar öz metakoqnitiv biliklərinə və bacarıqlarına əsasən, təlim keyfiyyətinə və sürətinə əsasən fərqlənirlər. Metakoqnisiya üç növ bilikdən ibarətdir:

**(1)** şagird kimi, özü haqqında, təliminə və yaddaşına və müəyyən tapşırığın yerinə yetirilməsi üçün lazımi vərdiş-bacarıqlara, strategiyalara və resurslara təsir göstərən amillər haqqında **deklarativ bilik**.

**(2) prosedur bilik** və ya strategiyalardan necə istifadə etmək biliyi.

**(3) tapşırığın yerinə yetirilməsini təmin etmək üçün şərti bilik** – strategiyalardan və prosedurlardan nə üçün və nə vaxt istifadə etmək biliyi.

Metakoqnisiya məqsədlərin əldə edilməsi və problemləri dəf etmək üçün deklarativ, prosedur və şərti biliyin strateji istifadəsidir.

Metakoqnitiv bilikdən təfəkkürün və təlimin tənzimlənməsi üçün istifadə edilir. Üç əsas bacarıq mövcuddur ki, bunların vasitəsilə də bu proses həyata keçirilir. Bunlardır: planlaşdırma, monitorinq və qiymətləndirmə.

Planlaşdırma tapşırığa nə qədər vaxtın ayrılacağını, hansı strategiyalardan istifadə ediləcəyini, tapşırığın yerinə yetirilməsinin necə başlanacağını, hansı resursların yığılacağını, hansı ardıcıllıqla aparılacağını nəzərdə tutur ki, nəyə çoxlu vaxt itirməyək, nəyə xüsusi diqqət yetirək və s.

Monitorinq verilən məqamın qavranılması, "nəyi etdiyimi" dərk etməkdir. Monitorinq sualı əhatə edir: "Buradan hər hansı bir fikir çıxırmı? Çox tələsmirəm ki? Yetərincə öyrəndim?"

Qiymətləndirmə təfəkkür, təlim prosesləri və nəticələri haqqında qiymətləndirmələrdən ibarətdir. "Bəlkə strategiyanı dəyişdirim? Kömək istəyimmi? Başını buraxım? Bu iş bitmişdirmi?"

Strategiyaların növbəti növlərini ayırırlar:

| Strategiyanın növü | Nümunə |
|---|---|
| **Materialın təkrarlanmasının sadə strategiyaları** | Faktiki məlumatların dəfələrlə təkrarlanması |
| **Materialın təkrarlanmasının mürəkkəb strategiyaları** | Mətndə mühüm maddələrin vurğulanması |
| **İnformasiyanın işlənilməsinin sadə strategiyaları** | Assosiasiyaların formalaşdırılması: |
| **İnformasiyanın işlənilməsinin mürəkkəb strategiyaları** | Analogiyaların formalaşdırılması, parafraz, nəticələrin ümumiləşdirilməsi, əlaqələndirmə |
| **İnformasiyanın təşkilinin sadə strategiyaları** | Qruplaşdırma, təsnifat |
| **İnformasiyanın təşkilinin mürəkkəb strategiyaları** | Əsas ideyanın eyniləşdirilməsi, ümumiləşdirilmiş anlayışları əks etdirən cədvəllərin üzərində iş. |
| **Materialın anlayışı, yoxlanılması strategiyaları** | Özünüyoxlama üçün suallar, əsas maddələrin, tezislərin sadalanması, məqsədlərin əks etdirilməsi və bu istiqamətdə özünün irəliləyişinə nəzər yetirmək. |
| **Affektiv və motivasiyalı strategiyalar** | Daxili motivasiyanın istifadəsi, "mən bunu edə bildim, sadəcə, vaxt, emosiyaların idarəetmə texnikaları, müsbət əhval-ruhiyyənin işlənilməsi lazımdır". |

**3. Sosial strategiya,** qeyd etdiyimiz kimi, belə bir strategiyalar qarşılıqlı əməkdaşlıq üzərində qurulmuşdur. Qrup işi üçün lazımi metodik tövsiyələri təklif edirik.

## Qrup iş

### Qrupda işin planlaşdırılması

- Qrup işi üçün vacibdir ki, şagirdlər bir-birini görsün və bir-birini başa düşsünlər; qruplara materialı paylamalıyıq; dərs vəsaitləri əlçatan olmalıdır.
- Vərəqdə şagird üçün aydın dildə və dəqiq formalaşdırılmış iş göstərilməlidir ki, bunlar müəllimin xaricində yerinə yetirilsin.
- Qrupda iş zamanı nəinki dərs məqsədlərinin əldə edilməsi üzrə düşünməliyik, eləcə də əməkdaşlıq bacarığının inkişafını da.

### Əməkdaşlığın əsas prinsipləri

- Qrup üzvləri qrup yoldaşlarını dinləməli, hər biri işdə iştirak etməli, lazım gəldiyi halda, yardım istəməli və qəbul etməlidir.
- Müəllim diqqət yetirməlidir ki, hər bir şagird müəyyən rolu yerinə yetirsin (təşkilatçı – lider, çıxış edən, ümumiləşdirən, vaxta nəzarət edən və s.), bununla belə müxtəlif tapşırıq vaxtının rolları dəyişməlidir.

**Qruplara necə bölək?**

- Qrupun optimal sayı – 4-5 şagird; bir neçə çalışmaya bölünmüş böyük həcmli tapşırıq üçün daha böyük qruplar da yaratmaq olar.
- Qruplar hər zaman dəyişkən olmalıdır, yalnız qrup üçün verilən tapşırığın bir neçə gün birgə iş tələb etdiyi hallardan başqa. Sinfin dəyişməz qruplara bölünməsi belə bir iş prinsipini poza bilər, çünki şagirdlərin hamısı aktiv çalışmalıdır.

**Şagirdlər işləyəndə müəllim nə edir?**

- Qrupların işinə göz gəzdirin, amma onlara başçılıq etməyin. Şagirdlər şəxsi məsuliyyət hissi ilə müstəqil işləyirlər. Qruplara yardım edə bilərsiniz – iş prosesi ilə bağlı məsələlər haqqında məlumatla bölüşə bilərsiniz.
- Şagirdlərdən xahiş edin ki, öz fikirlərini bir-biri ilə paylaşsınlar, başqalarını dinləsinlər və alınan informasiya əsasında müstəqil nəticələr çıxarsınlar.
- İş zamanı şərhlər edin. Şagirdlərin çıxışı haqqında məlumat konkret olmalıdır. Tez-tez, konkret və açıq şərhlərdən çəkinməyin. Bunu həm qrup işi zamanı, eləcə də əldə edilən nəticələri cəmləşdirdikdə etməlisiniz.
- Qruplar çətin nəzarət edilən olduqda, işi dayandırın və bu məsələni təhlil edin.
- Göstərin ki, hansı davranış problemlər yaradır, hansı şagird öz rolunu yerinə yetirmir və izah edin ki, tapşırığın yerinə yetirilməsində hamı məsuliyyət daşıyır. Hər qrupa 5 dəqiqəlik müşahidəçi təyin edin. Sonralar bu müşahidəçilər öz təəssüratlarını bildirirlər. Qrupun hərəkətini bütün sinif təhlil etməlidir.

**4. Resurslara əsaslanan strategiya** təbii ki, bu komponentin aktiv istifadəsi xaricində müasir məqsədləri və məsələləri əldə etmək mümkün deyil. Sadəcə maraqlı və yaradıcı dərs keçmək olar. Bir neçə növ resursun istifadəsi üçün lazımi metodoloji tövsiyələri təklif edirik.

**Yazılı mənbələr üzərində iş**

Yazılı mənbələr şagird kitabının əsas komponentlərindən biridir. Onların üzərində iş şagirdin tədqiqi-analitik bacarığının inkişafına dəstək verir və Milli Tədris Planının əsas maarifləndirici prinsiplərinə uyğundur, çünki biliyin həm deklarativ, eləcə də prosedur kateqoriyasını əhatə edir.

Yazılı mənbə tarixi bilik əldə edilən və onların üzərində iş nəticəsində keçmişin şəklinin yenidən quraşdırılması mümkün olan əsas resursdur. Mənbənin analizi, mətnin yaxşı dərk edilməsi amili nəzərə alınmalıdır, çünki cavabların böyük hissəsi mətndədir. Mənbə üzərində iş, ona qarşı yaranan suallara cavabın axtarışını nəzərdə tutur.

- Müəllif kimdir? Hansı dövrdə yaşamışdır? Öz təcrübəsi əsasında yazmışdı və ya hər hansı bir başqa məlumatdan faydalanırdı? Mətni hazırlayanda kimsə/nə isə müəllifə təsir göstərə bilərdimi?
- Hansı növ yazılarla işimiz var? Məs., xronika, narrativ inşa, ədəbi əsər, dövlət sənədi, səyahət gündəliyi və s.?
- Mənbədə təsvir edilən hadisələr harada və necə inkişaf edir? Burada söhbət nədən gedir? Hansı

nəticəni çıxarmaq olar?

- Müəllifin hekayət tonu necədir? Müəllif əhvalatı ötürməklə hansı məqsədi əks etdirir? Mətn müəllifin qiymətləndirmələrindən ibarətdirmi və ya yox? Qərəzlilik görünürmü? Oxucuya nəyi söyləmək istəyir?

Bu ümumi məlumatdan başqa, hər bir mənbə konkret dövr, konkret çar, dövlət və ya kilsə xadimi, hər hansı bir konkret mübarizə və ya insanların məişət həyatı haqqında informasiya çatdırır. Buna görə də hər bir mənbə mətnin məzmunundan irəli gələrək sualın qoyulmasını tələb edir.

**İllüstrasiya üzərində iş**

İllüstrasiya üzərində iş və onun analizi analitik təfəkkürün inkişafına xidmət edən vacib komponentlərdən biridir.

İllüstrasiya hər hansı bir vizual növdə çap işidir, məsələn, karikatura, poster, şəkil, foto, plakat, poçt markası və s.

İllüstrasiya hər zaman bahalı mənbədir, çünki onun üzərinə tarixi şəxsiyyət, tarix, hər hansı bir tarixi hadisə/proses köçürülə bilər. Şagird illüstrasiyada təsvir edilən bütün xırdalıqları diqqətlə müşahidə etməlidir. İllüstrasiyanın ümumi süjetini, tarixlərini, yazı dilini və məzmununu. Mənbə kimi, illüstrasiyanın da ümumi, universal sualları var:

- İllüstrasiya nə vaxt yaradılmışdır?
- İllüstrasiya hansı dövrün tarixini təsvir edir?
- İllüstrasiyanı kim yaratmış və bunu yaratdıqda hansı motivi rəhbər tuturdu?

**Xəritə üzərində iş**

Xəritə üzərində iş Şagird kitabı və dəftərinin ən mühüm komponentlərindən biridir və ilk öncə, tarixi məkanda yönlənmə bacarığının inkişafına xidmət edir.

Tövsiyə edilən çalışmalar arasında tarixi və müasir siyasi xəritələr üzərində eyni zamanda iş, onların müqayisə edilməsi var. Qədim dövlətlərin, imperiyaların yerinə hazırda hansı dövlətlərin yerləşdiyi təyin edilir.

Bundan başqa, tarixi xəritə çoxlu məlumatlar verir, onun üzərinə sərhədlərin dəyişiklikləri, miqrasiyalar köçürülmüşdür. Xəritə üzərində iş isə alınan nəzəri materialın praktiki işlə əlaqələndirilməsini tələb edir.

Şagirdlər xəritədə işə başlayana qədər xəritə leqendasını təhlil etməlidirlər.

## TEMATİK MATRİSLƏR

| Mövzu: Son Antik Dövr və Erkən Orta Əsrlər | |
|---|---|
| **Mövzu ilə bağlı əsas təsəvvürlər** | **Mövzu ilə bağlı əsas suallar** |
| • Roma qanunu və hakimiyyət sistemi müasir Avropa/Qərb qanunu və hakimiyyət sisteminin əsasını təşkil edir;<br>• Xristianlıq Romada imperator Konstantin dövründən əsas din olur;<br>• Son Antik dövrdə tez-tez kilsə parçalanmaları (məsələn, monofizitlər və diofizitlər arasında) baş verirdi; Dünya kilsə məclislərində mübahisəli məsələlər həll olunurdu;<br>• Alman tayfalarının basqınları nəticəsində Roma İmperiyası süqut etdi. Orta əsrlər Roma imperiyasının süqutundan sonrakı dövr adlanır;<br>• Xristianlıq və İslam monoteist dinlərdir;<br>• Orta əsrlərdə xristianlığın müxtəlif cərəyanları arasında tez-tez parçalanmalar baş verirdi; Dünya kilsə məclislərində mübahisəli məsələlər həll olunurdu;<br>• Orta əsrlərdə monastırlar təhsil mərkəzləri idi;<br>• Feodalizm (Avropada “üç üzvlü cəmiyyət”) Orta əsrlər üçün xarakterikdir. | • Roma İmperiyasının böhranının səbəbləri nə idi?<br>• Nə üçün Roma İmperiyasında Xristianlıq şiddətli təqiblərə baxmayaraq, üstünlük təşkil edirdi?<br>• Roma İmperiyasının süqutundan sonra Avropanın siyasi və etnik xəritəsi necə dəyişdi?<br>• Necə oldu ki, Frank Krallığı digər Alman krallıqlarını üstələdi və nəhəng Avropa imperiyası yaratdı?<br>• Nə üçün Bizans imperatoru dünyəvi və ruhani hakimiyyəti birləşdirdi?<br>• Nə üçün Böyük Yustinianın hakimiyyəti Qızıl Dövr hesab olunur?<br>• Sasani İranını hansı xüsusiyyətlər fərqləndirirdi?<br>• İranla Bizans arasındakı müharibələrin nəticələri nə oldu?<br>• Herakl Sezar Sasani İranını necə məğlub edə bildi?<br>• Məhəmməd yeni dinin və dövlətin başçısı necə oldu?<br>• Ərəblərin işğalçılıq nəticəsi nə idi?<br>• İslam sivilizasiyasının Xristian Avropasına təsiri necə oldu?<br>• Franklar krallığı necə gücləndi və onun süqutuna nə səbəb oldu?<br>• Feodalizm dövründə müxtəlif sosial qruplar bir-biri ilə necə qarşılıqlı əlaqədə olmuşlar?<br>• Normanların istilaçı müharibələri Avropanı necə dəyişdi?<br>• Bizansda daxili və xarici problemlər nə ilə nəticələndi?<br>• Makedonlar sülaləsinin hökmdarları Bizans imperiyasını necə gücləndirə bildilər?<br>• Nə üçün xristian dünyası latın və yunan ərazilərinə bölündü? |

| Kompleks tapşırıqlar (adı) | Hədəf anlayışları və yarımanlayışlar | Məsələlər | Əsas suallar |
|---|---|---|---|
| 1. İkisütunlu cədvəlin hazırlanması | **Anlayış/anlayışlar**: Hakimiyyət, vaxt **Altanlayış/altanlayışlar:** Tarixi dövr, idarəetmə sistemi ilə bağlı islahat | Diokletian islahatları | İki sütunlu cədvəl vasitəsilə böhran dövründə Romanın və Diokletianın islahatları ilə imperiyanın gücləndiyini necə təqdim edə bilərəm? |
| 2. Yazılı məruzələrin hazırlanması | **Anlayış/anlayışlar:** məkan, cəmiyyət **Altanlayış:** Tarixi-coğrafi ərazi; Sosial təbəqələr | VI əsrdə Bizans və Sasani İranının qarşıdurması | VI əsrdə Bizans-Sasani İranı arasındakı qarşıdurmada coğrafi məkanın əhəmiyyətini və müharibə bölgəsində yaşayan cəmiyyətlərin etnik, iqtisadi və dini xüsusiyyətlərini yazılı məruzə vasitəsilə necə təqdim etmək olar? |
| 3.Kartli knyazının adına məktubun hazırlanması | **Anlayış/anlayışlar:** Tarixi hadisə; cəmiyyət Altanlayış: Döyüş/müharibə, gündəlik həyat | Ərəblərin işğalları | Ərəb istilalarının nəticələrini və onların fəth edilən xalqlara münasibətini Kartli knyazına yazdığım məktubda necə təqdim edə bilərəm? |
| 4. Qısa xronikanın hazırlanması | **Anlayış/anlayışlar:** Mənbə/interpretasiya **Altanlayış:** Narrativ mənbə | IX əsrdə Bizans | IX əsrdə Bizansda baş verən hadisələrlə bağlı Bizans müəlliflərinin yaratdığı yazılı mənbələrin tənqidini qısa xronika vasitəsi ilə necə təqdim edə bilərəm? |
| 5. Qısa xronikanın hazırlanması | **Anlayış/anlayışlar:** Hakimiyyət, cəmiyyət Altanlayış: İdarəetmə formaları; gündəlik məişət həyatı | Frank İmperiyası | Orta əsrlərə xas olan idarəetmə və cəmiyyət formalarını xronikalar vasitəsilə necə təqdim etmək olar? |

<table>
<tr>
<td>Uzunmüddətli məqsəd<br><br>Hədəf anlayışı və onunla bağlı əsas təsəvvürlər</td>
<td>Məsələ/məsələlər: Diokletian islahatları<br><br>Yarımanlayışlar: Tarixi dövr, idarəetmə sistemi ilə bağlı islahat</td>
<td>Əsas sual / suallar<br>İki sütunlu cədvəl vasitəsilə böhran dövründə Romanın və Diokletianın islahatları ilə imperiyanın necə gücləndiyini necə təqdim edə bilərəm?</td>
<td>Aralıq dərs məqsədi Kompleks tapşırığın şərti</td>
</tr>
<tr>
<td>• <u>Hakimiyyət</u><br>1. Hakimiyyət uğrunda mübarizə tarixin ayrılmaz hissəsidir;<br>2. Hakimiyyət uğrunda mübarizə həm şəxslər, eləcə də ictimai qruplar arasında aparılır. Onlar mübarizədə ölkədə mövcud ictimai-siyasi strukturlardan istifadə edirdilər;<br>3. Hakimiyyətin əldə edilməsi və qorunub saxlanılması üçün lazımi vasitələr resurslara (maliyyə, insan resursları) malik olmaq, simvollar və ideologiyadır;<br>4. Bəzi cəmiyyətlərdə hakimiyyət bir nəfər tərəfindən idarə edilir, bəzilərində isə insanlar/ictimai qruplar arasında bölünmüşdür;</td>
<td>Kompleks tapşırığın üzərində iş mərhələləri (resurslar, fəallıqlar):<br>I mərhələ: kompleks tapşırığın forması<br>Öyrənilən məsələ ilə bağlı biliyimi necə göstərə bilərəm?<br>I mərhələ– təhlil edilləsi məsələ və kompleks tapşırığın şərti ilə tanışlıq<br>I mərhələdə şagirdlərin hamısı tapşırığı qəbul etməli və onu hansı forma ilə təqdim edəcəklərini razılaşdırmalıdırlar. Kompleks tapşırığın şərtini şagirdin ehtiyaclarına əsasən uyğunlaşdırmaq olar. Həmin mərhələdə yaradıcılıq materialı təhlil edilməli və şagirdlər bu materialın mahiyyətini başa düşməlidirlər.<br><br>Resurs/fəallıq:<br><br>1. İkisütunlu cədvəlin nümunəsi
<table>
<tr><th>Problemlər</th><th>Problemin həlli yolları</th></tr>
<tr><td></td><td></td></tr>
</table>
<br>Tapşırığın şərti və materialla tanışlıqdan sonra müəllim çağırış mərhələsini suallarla mini formatda aparmalıdır:<br>1. İkisütunlu cədvəldən istifadə edərək tapşırığı yerinə yetirmisənmi?<br>2. İkisütunlu cədvəldən istifadə edərək məsələni öyrəndikdə, hansı xüsusiyyətlərə diqqət yetirməlisiniz?<br>3. İkisütunlu cədvəldən istifadə edərək sualı öyrənmək nə üçün vacibdir?<br>4. Praktiki tapşırığı yerinə yetirin: öyrənilən materialı yadınıza salın və ikisütunlu cədvəldən istifadə edərək Perikl dövründə Afinadakı problemləri müzakirə edin;<br>Müəllim şagirdlərə praktiki tapşırığı yerinə yetirməyə kömək edir.</td>
<td></td>
<td>İmperator Diokletianın yaxın adamı, onun məsləhətçisi olduğunu təsəvvür et. İmperator genişmiqyaslı islahatlar keçirmək qərarına gəlib və məsləhət üçün sənə müraciət etdi. Bir tərəfində III əsrdə Roma İmperiyasının xarici və daxili problemləri təqdim edilən ikisütunlu cədvəl hazırlamalısan. Digər tərəfində isə, imperator hökumətinin bu problemləri necə həll edə biləcəyi ilə bağlı imperatora tövsiyə və məsləhətlər yazmalısan. Ən azı 5 mühüm problem ayrılmalıdır ki, dövrü yaxşı göstərsin.<br><br>Cədvəldə xüsusilə göstərməlisən:<br>➢ Dövr dəyişdikcə Roma İmperiyası necə dəyişirdi və nisbətən dinc II əsrdən sonra hansı çətinliklərlə üzləşdi. (Vaxt, əs.t. 1)<br>➢ III əsr, bir dövr kimi, Roma</td>
</tr>
</table>

| | | |
|---|---|---|
| 5. Demokratik dövlətdə hakimiyyət qaynağı xalqdır. | **II mərhələ: kompleks tapşırığın məzmunu**<br><br>**Addım 1.** Dövr dəyişdikcə Roma İmperiyası necə dəyişirdi və nisbətən dinc II əsrdən sonra hansı çətinliklərlə üzləşdi. (*Vaxt, əs.t. 1*)<br>III əsr, bir dövr kimi, Roma İmperiyası üçün hansı əsas xüsusiyyətlər və problemlərlə xarakterizə olunur. (Vaxt, əs.t.*2)*<br><br>**Əsas təsəvvürlərin üzərində iş üçün lazımi resurslar**<br>• Dərslik: paraqraf 33, 34, 35;<br>• Roma İmperiya dövründə #teleməktəb https://youtu.be/973jDZ1G6kM<br>• Roma İmperiyası https://youtu.be/xeGg3iL_18w<br><br>1. II əsrdə dövrün dəyişməsi ilə yanaşı, Roma İmperiyasında dəyişikliklər necə başlayır?<br>2. Roma İmperiyasında sabit dövr niyə böhran dövrünə çevrilir?<br>3. Romada sabit dövrdən böhran dövrünə keçidə hansı amillər səbəb olmuşdu?<br>4. III əsrin əvvəllərində Roma hansı çətinliklərlə üzləşir?<br>5. Romada başlayan dəyişikliklər dövrə necə təsir edir?<br>6. Roma İmperiyasında, bir dövr kimi, III əsrin əsas xüsusiyyətləri hansılardır?<br>7. III əsrdə Romada onu hərbi diktaturaya çevirən hansı siyasi və iqtisadi dəyişikliklər həyata keçirildi?<br>8. III əsrin əvvəllərində Roma sərhədləri ilə bağlı vəziyyət niyə çətinləşdi?<br>9. Böhran dövrü Romanın xarici siyasi arenasında necə əks olundu?<br>10. Romada başlayan böhran dövrü Sasani İranı və Kartli Çarlığına necə təsir etdi?<br>11. Qlobal böhran dünya və Roma tarixində hansı dəyişikliklərə səbəb oldu?<br>12. Roma və dünya tarixində yeni dövrü xarakterizə etmək üçün hansı meyarlardan istifadə edə bilərsən?<br>13. Nə üçün müasir tarixçilər III əsri yeni tarixi mərhələnin - Son Antik dövrün başlanğıcı hesab edirlər?<br>14. Nə üçün tarixçilər müxtəlif tarixi dövrlər üçün başlanğıc və bitmə tarixləri və meyarları haqqında mübahisə edirlər? | İmperiyası üçün hansı əsas xüsusiyyətlər və problemlərlə xarakterizə olunur. (*Vaxt, əs.t.2)*<br>➢ İmperatorun hökmranlığı necə dəyişdirilməli və problemlərin daha səmərəli həlli üçün hansı amillərə əsaslanmalıdır: tək olmalı və ya subyektlər arasında bölüşdürülməlidir. *(Hakimiyyət, əs.t. 2; 3; 4)* |

Addım 2. İmperatorun hökmranlığı necə dəyişdirilməli və problemlərin daha səmərəli həlli üçün hansı amillərə əsaslanmalıdır: tək olmalı və ya subyektlər arasında bölüşdürülməlidir. (Hakimiyyət, əs.t. 2; 3; 4)

**Əsas təsəvvürlərin üzərində iş üçün lazımi resurslar**

- dərslik, paraqraf 36;

• Roma İmperiya dövründə #teleməktəb
https://youtu.be/973jDZ1G6kM
• Roma İmperiyası
https://youtu.be/xeGg3iL_18w
• Diokletian islahatları
https://youtu.be/Y6M9zc7LSC4?t=451

1. Yadına sal, nə üçün Roma parçalanma ərəfəsində idi?
2. Romada Avrelinin qələbə çaldığı halda vəziyyət necə inkişaf edə bilərdi?
3. Diokletian hakimiyyəti necə böldü?
4. Diokletian öz hakimiyyətini qorumaq və gücləndirmək üçün hansı vasitələrə arxalanırdı?
5. Diokletian Romada daxili hakimiyyət mübarizələrini necə bitirdi?
6. Diokletianın xarici siyasəti Qafqaza, o cümlədən Kartli Çarlığına necə təsir etdi?
7. Diokletian öz islahatları ilə Romanın qarşısında duran problemləri və çağırışları nə dərəcədə həll edə bildi?
8. Romada iqtisadi və maliyyə böhranının səbəblərini yadına, Diokletian bu problemləri necə həll edə bildi?
9. Nəyə görə xristianlar Roma hakimiyyəti üçün qəbul edilməz idilər?
Bu təqib nə dərəcədə uğurlu ola bilərdi? Tarixi paralellər çəkin
10. İmperatorun hakimiyyəti problemlərin həllində daha təsirli olması üçün hansı amillərə əsaslanmalıdır?
11. Beş mühüm problemi ayır və bu problemlərin həlli variantlarını özün hazırla.

| | | | |
|---|---|---|---|
| | **Şagirdlər tərəfindən kompleks tapşırığın prezentasiyası prosesində müəllimin verdiyi suallar:**<br><br>• Tapşırıq üzərində iş prosesinin necə keçdiyini təsvir et;<br>• Hansı materialı hazırladığını təsvir et;<br>• Hazırladığın tapşırıq hansı məsələyə toxunur?<br>• İkisütunlu cədvəli nə üçün hazırladığını izah et? Onun vasitəsilə nə demək istəyirdin?<br>• Səncə, hazırladığın ikisütunlu cədvəllə kim maraqlana bilər və nə üçün?<br>• Tapşırıq üzərində iş prosesində hansı maneələrlə qarşılaşdın?<br>• Yenidən tapşırığın üzərində işə başlasaydın, nəyi başqa cür edərdin?<br>• Başqa vaxt oxşar forma və ya məzmunda tapşırığı yerinə yetirmisənmi?<br>• Səncə, tapşırığın sinif yoldaşlarının işlərinə nə ilə bənzəyir və nə ilə fərqlənir? | | |
| **Uzunmüddətli məqsəd**<br><br>**Hədəf anlayışı və onunla bağlı əsas təsəvvürlər** | **Məsələ/məsələlər:**<br>**VI əsrdə Bizans və Sasani İranı arasındakı qarşıdurma**<br><br>**Yarımanlayışlar**:<br>**Tarixi-coğrafi ərazi;**<br>**Sosial təbəqələr** | **Əsas sual/suallar**<br>VI əsrdə Bizans-Sasani İranı arasındakı qarşıdurmada coğrafi məkanın əhəmiyyətini və müharibə bölgəsində yaşayan cəmiyyətlərin etnik, iqtisadi və dini xüsusiyyətlərini yazılı məruzə vasitəsilə necə təqdim etmək olar? | **Aralıq dərs məqsədi**<br><br>**Kompleks tapşırığın şərti** |
| **Məkan**<br>1. Coğrafi mühit və coğrafi bilik insanlar cəmiyyətinin inkişafına təsir göstərir;<br>2. Kommunikasiyanın sıxlığı böyük/kiçik ölçülü sosial-mədəni məkanların formalaşmasına səbəb olur; | **Kompleks tapşırığın üzərində iş mərhələləri (resurslar, fəallıqlar):**<br>**I mərhələ: Kompleks tapşırığın forması**<br>**Addım 1. Öyrənilәsi məsələ ilə bağlı biliyimi necə göstərə bilərəm?**<br><br>Mərhələ I – təhlil ediləsi məsələ və kompleks tapşırığın şərti ilə tanışlıq<br>I mərhələdə şagirdlərin hamısı tapşırığı qəbul etməli və onu hansı forma ilə təqdim edəcəklərini razılaşdırmalıdırlar. Kompleks tapşırığın şərtini şagirdin ehtiyaclarına əsasən uyğunlaşdırmaq olar. Həmin mərhələdə yaradıcılıq materialı təhlil edilməli və şagirdlər bu materialın mahiyyətini başa düşməlidirlər. | | Təsəvvür et ki, Yustinian dövründə fəaliyyət göstərən hərbi strateqsən. İmperator səni saraya dəvət edib, imperiyanın şərq qoşunlarının sərkərdəsi təyin etdiyini bildirdi. O, sənə imperiyanın şərq sərhədlərini ətraflı öyrənməyi tapşırdı və bu da Sasani İranının hərbi potensialının təsvirini, eləcə də |

| | | |
|---|---|---|
| 3. Konkret tarixi-coğrafi sahələrin müəyyən iqtisadi, strateji və mədəni əhəmiyyəti var.<br>**Cəmiyyət**<br>1. Tarixən çoxlu cəmiyyət mövcud idi, amma bunlardan hər birini ümumi əlamətlər xarakterizə edirdi: onların üzvlərinin ümumi identikliyi, marağı, qayğısı var idi və davranış qaydaları və dəyərləri üzrə razılığa gəlirdilər;<br>2. Cəmiyyət daha kiçik ictimai qruplara bölünürdü;<br>3. Kiçik cəmiyyətlər daha böyük cəmiyyətin bir hissəsini təqdim edirlər;<br>4. Cəmiyyət üzvlərinin bir çox hallarda digər cəmiyyətlər (“mədəni başqa”) haqqında stereotip təsəvvürləri olur. | **Resurs/fəallıq:**<br>Şərtlə və materialla tanışlıqdan sonra müəllim çağırış mərhələsini suallarla mini formatda aparmalıdır:<br>• Hesabat nədir?<br>• Hesabatı hansı məqsədlə hazırlayırlar?<br>• Hesabatı hansı formada təqdim edilə bilər?<br>• Məlumatlara görə, yazılı hesabatın hansı formaları mövcuddur?<br>• Venn diaqramından istifadə edərək, təcili, təcili olmayan və ümümiləşdirici yazılı hesabatların xüsusiyyətlərini müqayisə et (Sxem 1)<br>• Yazılı hesabatın mətni necə tərtib edilməlidir?<br>• Yazılı hesabatı hazırlamaq təcrübəniz varmı?<br>• Tapşırığın vəziyyətindən asılı olaraq, hansı yazılı hesabat forması üzərində işləyəcəksiniz?<br>Müəllimin tapşırığı ilə şagirdlər N1 resurs üzərində işləyirlər və Venn diaqramından istifadə edərək, müəllim yazılı hesabatın forma və xüsusiyyətlərinə diqqət yetirir və əyani vəsait üçün N2 resursu təklif edir.<br><br>1.Yazılı hesabat<br>https://bit.ly/3fxQqol<br>2. Yazılı məruzənin nümunəsi<br>http://legionerebi.com/failebi/salute.pdf<br>**Venn diaqramından istifadə edərək, təcili, təcili olmayan və ümumiləşdirici yazılı hesabatın xüsusiyyətlərinin müqayisəsi**<br><br> | sərhəd bölgəsində yaşayan xalqların xüsusiyyətlərinin öyrənilməsini nəzərdə tutur.<br>Sən imperatora öz ideyalarını təfərrüatlandıran **yazılı hesabat** təqdim etməlisən: şərqdə hansı sərhədyanı ərazilər strateji əhəmiyyət kəsb edir və nə üçün; eləcə də bu ərazidə kimin yaşadığı, bu insanlara dəstək olmağın nə üçün vacib olduğu və onlara necə dəstək veriləcəyi haqqında məlumatı. Nə üçün imperator şərqə diqqət yetirməlidir? Hesabata müvafiq işarələri olan xəritə əlavə edilməlidir.<br><br>**Hesabatda xüsusilə göstərməlisən:**<br>• Bizansla Sasani İranı arasında münaqişə predmeti olan coğrafi məkanı. (*Məkan. əs. t. 1, əs. t. 3*)<br>• Bu məkanda yaşayan icmaların etnik, dini xüsusiyyətlərini, sizinlə hansı ortaqlığı olduğunu; onları necə cəlb edəcəyini. (*Cəmiyyət. əs. t. 1, əs.* t. 2, əs. t. 4)<br>• Bizans İmperiyası hansı şəhərləri və strateji obyektləri |

| | | |
|---|---|---|
| | **II mərhələ: Kompleks tapşırığın məzmunu**<br>Addım 1 **Coğrafi məkan** Bizans **və Sasani İranı arasındakı qarşıdurma predmetidir. Məkan, əs.təs. 1. Əs.təs. 3)**<br>**Əsas təsəvvürlərin üzərində iş üçün lazımi resurslar**<br>Dərslik: paraqraflar 43,44, 45, 46<br>• Bizans IV-VII əsrlərdə #teleməktəb<br>https://youtu.be/smijg81s9Cs<br>• Tarix- Bizans və Sasani İranı - EL.GE<br>https://youtu.be/CWFBJNE6Lw0<br><br>1. Bizans hansı coğrafi ərazini fəth etməyə çalışırdı və bu qərarın motivi nə idi?<br>2. Sasani İranı hansı coğrafi məkanı əhatə edirdi və Gürcüstan ərazisi bu məkanın bir hissəsi hesab olunurdumu?<br>3. Bizans və Sasani İranı arasındakı münaqişənin coğrafi ərazisini müəyyənləşdir və onun coğrafi xüsusiyyətlərini müzakirə et?<br>4. Bizansın nəzarət altına almağa çalışdığı coğrafi məkanın strateji əhəmiyyəti nə idi?<br>5. III-VI əsrlərdə Bizans-Sasani İran müharibələri nəticəsində siyasi vəziyyət necə dəyişirdi?<br>6. İran ərazisində ticarət yollarının mövcudluğuna nə üçün coğrafi amillərin səbəb olduğunu müzakirə et?<br>7. Niyə həm Bizans, həm də İran Qafqaza nəzarət etməyə çalışırdılar, qeyd edilən məkanın strateji əhəmiyyəti nə idi?<br>8. Sasani İranına qarşı hücuma keçəcəyiniz coğrafi məkanı seç;<br><br>**Addım 2. Bu məkanda yaşayan icmaların etnik, dini xüsusiyyətləri, sizinlə hansı ortaqlığı olduğu; onları necə cəlb edəcəyinə dair plan. (Cəmiyyət. əs. t. 1, əs. t. 2, əs. t. 4)**<br><br>**Əsas təsəvvürün üzərində iş üçün lazımi resurslar**<br>Dərslik: paraqraflar - 43, 44, 45, 46<br>• VI -VII əsrlərdə Bizans və Sasani İranı arasında qarşıdurma<br>• https://youtu.be/fMUHtHZn9L0<br>• Sənədli film: Dəra vuruşması, 530-cu il<br>• https://youtu.be/9GR_VRMq88Y | ələ keçirməlidir və nə üçün? (*Məkan, əs. t. 3)* |

| | | |
|---|---|---|
| | 1. İstər Bizans, istərsə də Sasanilərin İran cəmiyyəti hansı sosial təbəqələrdən ibarət idi və təbəqə bölgüsü hansı əsaslarla həyata keçirilirdi?<br>2. Xristianlıq daxilindəki iki cərəyan (Diofizitlər və Monofizitlər) arasındakı münaqişə müharibə bölgəsində yaşayan cəmiyyətin bütün təbəqələrinə necə təsir etdi? Onların arasında əsas fərq nə idi?<br>3. Yustinian dövründə Bizans imperiyasının əsas sosial problemlərini müzakirə et. Bizans cəmiyyəti hansı əsas qruplara bölünürdü?<br>4. Yustinianın xristian bidətlərinə qarşı öz bitərəfliyini nə üçün saxladığını izah et?<br>5. Yustinianın daxili siyasətinin əsas məqsədi nədən ibarət idi - onun imperiyasının cəmiyyəti hansı qruplara bölünürdü və onu necə birləşdirməyə çalışırdı.<br>6. Yustinianın fəaliyyətini qiymətləndir, onun hakimiyyəti dövründə həm siyasi, həm iqtisadi, həm də ictimai və mədəni cəhətdən ən mühüm nailiyyətləri və nəticələri qeyd et.<br>7. Monoteist dinin İran cəmiyyəti üçün nə kimi əhəmiyyəti var idi və İran cəmiyyətində hansı fəaliyyət növü lider oldu?<br>8. İran cəmiyyətinin əsas birləşdiricisi nə idi, onların eyniliyi (identliyi) və maraqları nəyə əsaslanırdı?<br>9. İran cəmiyyətində xristianlar hansı yeri tuturdular?<br>10. Ticarət yollarının olması İran cəmiyyətinə necə təsir edirdi?<br>11. Nə üçün İran mədəniyyətlərin görüş yerinə çevrilmişdi? Müxtəlif mədəniyyətlərlə qarşılıqlı əlaqə İran cəmiyyətinin inkişafına necə dəstək verirdi?<br>12. Şəhər həyatı iqtisadiyyatın və ictimai həyatın inkişafına necə dəstək verirdi?<br>13. Bizans İmperiyasının şərq qoşunlarının sərkərdəsi kimi, İran cəmiyyətinin hansı sosial təbəqəsinə üstünlük verərsən və necə?<br><br>**Bizans İmperiyası hansı şəhərləri və strateji obyektləri ələ keçirməlidir və nə üçün? (Məkan, əs. t. 3)**<br><br>**Əsas təsəvvürlərin üzərində iş üçün lazımi resurslar**<br>Dərslik: paraqraflar - 43, 44, 45, 45<br>• Sənədli film: Dəra vuruşması, 530-cu il<br>https://youtu.be/9GR_VRMq88Y<br>• Orta Əsrlərdə hərbi sənət<br>https://files.fm/f/eakbftaty | |

| | | |
| --- | --- | --- |
| | Suallara cavab ver və yazılı hesabat hazırla:<br>1. Bizans hansı problemi həll etməlidir?<br>2. Bizans hansı ərazini işğal etmək istəyirdi? Bu sahəni ələ keçirmək nə üçün vacibdir?<br>3. Ələ keçirməyi və zəbt etməyi planlaşdırdığınız şəhər və əraziləri adlandır, həm döyüş əməliyyatlarına təsir edəcək coğrafi mühiti, eləcə də özünün və düşmənin hərbi qüvvələrini, cəmiyyətin tərkibini, iqtisadiyyatı, mədəniyyəti təhlil et. Bu şəhərlərin ələ keçirilməsinin əhəmiyyətini əsaslandır;<br>4. SWOT analizin nəticələrini müzakirə et;<br>5. Yazılı hesabat hazırlayarkən diqqət edəcəyin məsləhətləri tezislər şəklində yaz;<br><br>**Şagirdlər tərəfindən kompleks tapşırığın prezentasiyası prosesində müəllimin verdiyi suallar:**<br><br>• Tapşırıq üzərində iş prosesinin necə keçdiyini təsvir et;<br>• Hansı materialı hazırladığını təsvir et;<br>• Hazırladığın tapşırıq hansı məsələyə toxunur?<br>• Yürüş planını nə üçün hazırladığını izah et? Onun vasitəsilə nə demək istəyirdin?<br>• Nə üçün yaratdığın materialın həqiqətən yürüş planı olduğunu düşünürsən?<br>• Səncə, hazırladığın kompleks tapşırıq ilə kim maraqlana bilər və nə üçün?<br>• Tapşırıq üzərində iş prosesində hansı maneələrlə qarşılaşdın?<br>• Yenidən tapşırığın üzərində işə başlasaydın, nəyi başqa cür edərdin?<br>•  Başqa vaxt oxşar forma və ya məzmunda tapşırığı yerinə yetirmisənmi?<br>• Səncə, tapşırığın sinif yoldaşlarının işlərinə nə ilə bənzəyir və nə ilə fərqlənir? | |

<table>
<tr>
<td>Uzunmüddətli məqsəd<br>Hədəf anlayışı və onunla bağlı əsas təsəvvürlər</td>
<td>Məsələ/yarımməsələlər: ərəblərin işğalları; ərəblərin zəbt etdikləri xalqlara qarşı münasibətləri<br><br>Altanlayışlar: Mübarizə/müharibə, gündəlik həyat</td>
<td>Əsas sual / suallar<br><br>Ərəb istilalarının nəticələrini və onların fəth edilmiş xalqlara münasibətini Kartli Knyazının adına yazılan məktubda necə təqdim edə bilərəm?</td>
<td>Aralıq dərs məqsədi<br>Kompleks tapşırığın şərti</td>
</tr>
<tr>
<td>Tarixi hadisə / proses<br>1. Bütün tarixi hadisənin özünün səbəbi/səbəbləri və nəticəsi/nəticələri var;<br>2. Tarixçilər tez-tez tarixi hadisələrin səbəbləri və nəticələri haqqında mübahisələr edirlər;<br>3. Bəzi tarixi hadisənin yerli, bəzisinin isə qlobal əhəmiyyəti var;<br>4. Tarixi faktlar və hadisələr tipoloji olaraq siyasi, sosial, iqtisadi, mədəni əlamətlə qruplaşdırıla bilər.<br>Cəmiyyət<br>1. Tarixən çoxlu cəmiyyət mövcud idi, amma bunlardan hər birini ümumi əlamətlər xarakterizə edirdi: onların üzvlərinin ümumi identikliyi,</td>
<td colspan="2">Kompleks tapşırığın üzərində iş mərhələləri (resurslar, fəallıqlar):<br>I mərhələ: Kompleks tapşırığın forması<br>Öyrənilləsi məsələ ilə bağlı biliyimi necə göstərə bilərəm?<br><br>Təhlil ediləsi məsələ və kompleks tapşırığın şərti ilə tanışlıq<br>I mərhələdə şagirdlərin hamısı tapşırığı qəbul etməli və onu hansı forma ilə təqdim edəcəklərini razılaşdırmalıdırlar. Kompleks tapşırığın şərtini şagirdin ehtiyaclarına əsasən uyğunlaşdırmaq olar. Həmin mərhələdə yaradıcılıq materialı təhlil edilməlidir.<br><br>Resurs/fəallıq:<br>Şərtlə və materialla tanışlıqdan sonra müəllim çağırış mərhələsini suallarla mini formatda aparmalıdır:<br>1. Məktub yazmaq təcrübən varmı?<br>2. Məktub necə yazılır?<br>3. Məktub yazarkən hansı tövsiyələr nəzərə alınmalıdır?<br>Bundan sonra müəllim sinifdə şagirdlərə yazılı layihənin xüsusiyyətlərini izah edir və anlamaq üçün resurslar təklif edir.<br>1. Məktubun yazılması üçün tövsiyələr<br>https://files.fm/f/r8289d48g<br><br>2. Tarixi məktubun nümunəsi<br> </td>
<td><br>Təsəvvür et ki, VII əsrdə yaşayan gürcü döyüşçüsüsən. Yərmuk döyüşündə Bizans tərəfində vuruşurdun və sonra da ərəblərin Suriya və Fələstini necə fəth etdiklərini öz gözlərinlə görmüsən. Fələstinin gürcü savannasından - Xaç monastırından soydaşlarına xəbər vermək məqsədilə, Kartli knyazına məktub yazıb Suriya və Fələstində gördüyün hadisələr barədə ona məlumat verməlisən; dünyanın nizamını dəyişdirən yeni xalqı, onların mənşəyini, dinini, xüsusiyyətlərini təsvir et. Yaxşı olar ki, məktubda knyaza ərəblərin Kartlidə peyda olduğu halda, onlarla hansı siyasət yürüdəcəyi haqqında məsləhət verəsən. Variantını əsaslandır.<br><br>Məktubda xüsusilə göstərməlisən:<br>• Suriya-Fələstinin ərəblər tərəfindən</td>
</tr>
</table>

<table>
<tr>
<td>marağı, qayğısı var idi və davranış qaydaları və dəyərləri üzrə razılığa gəlirdilər;<br>2. Cəmiyyət daha kiçik ictimai qruplara bölünürdü;<br>3. Kiçik cəmiyyətlər daha böyük cəmiyyətin bir hissəsini təqdim edirlər;<br>4. Cəmiyyət üzvlərinin bir çox hallarda digər cəmiyyətlər (“mədəni başqa”) haqqında stereotip təsəvvürləri olur.</td>
<td>Göstərilən resursları yaxşı başa düşmək məqsədilə aşağıda verilən cədvəli doldurun:
<table>
<tr><th>Məktubun yazılma mərhələləri</th><th>Xüsusiyyətlər</th></tr>
<tr><td></td><td></td></tr>
<tr><td></td><td></td></tr>
</table>
II mərhələ. Kompleks tapşırığın məzmunu üzərində iş<br>
Addım 1. Suriya-Fələstinin ərəblər tərəfindən fəth edilməsinin səbəbləri nə idi və bu hadisə region və xarici dünya üçün hansı əhəmiyyət kəsb edirdi? (Tarixi hadisə/proses 1, 3)<br><br>
Əsas təsəvvürün üzərində iş üçün lazımi resurslar<br>
• Dərslik: paraqraflar -50, 51, 52<br>
• Ərəblər və Ərəb Xilafəti #teleməktəb<br>
• https://youtu.be/LEGLmYSrDfU<br><br>
1. Məhəmmədin ölümündən sonra ərəblər hansı çətinliklərlə üzləşdilər - onların səbəbləri nə idi?<br>
2. Coğrafi mühit ərəblərin siyasətinə və iqtisadiyyatına nə kimi təsir göstərdi?<br>
3. Ərəb xilafətinin yaranmasına və onların təcavüzkarlıq siyasətinin formalaşmasına hansı tarixi hadisələr və amillər təsir göstərmişdir.<br>
4. Xilafətin siyasəti İslamın yayılmasına necə və niyə dəstək verirdi?<br>
5. Ərəblərin Yaxın Şərqi tez bir zamanda fəth etmələrini hansı amillər asanlaşdırdı?<br>
6. Bizansla İran arasındakı münaqişədən ərəblər necə faydalandılar?<br>
7. Əlverişli siyasi vəziyyət olmadan qlobal fəthlərin nə dərəcədə mümkün olacağını müzakirə et<br>
8. Ərəblərlə Sasanilər arasında davam edən müharibələrdən sonra siyasi vəziyyət necə dəyişdi?<br>
9. Öncəki materialı yadına sal və Misirin və Şərqi Aralıq dənizinin strateji və iqtisadi əhəmiyyətinin nədən ibarət olduğunu müzakirə et?<br>
10. Şərqi Yərmuq döyüşündən sonra vəziyyət necə dəyişdi?<br>
11. Ərəblərin Suriya, Fələstini və Misiri fəth etməsini hansı amillər asanlaşdırdı?<br>
12. Ərəb xilafətinin tərkibində vahid siyasi-mədəni məkanın yaranmasına hansı amillər təsir edirdi.</td>
<td>fəth edilməsinin səbəbləri nə idi və bu hadisə region və xarici dünya üçün hansı əhəmiyyət kəsb edirdi? (Tarixi hadisə/proses 1, 3)<br>
• Ərəblərin ortaya çıxdığından sonra sözügedən məkanda yaşayan xalqların dini və siyasi baxımdan vəziyyəti necə dəyişdi? (Tarixi hadisə/proses 4, cəmiyyət 1)<br>
• Ərəblər kimdir, onları birləşdirən nədir və fəth etdikləri xalqlara qarşı münasibəti necə idi? (Cəmiyyət 1, 4)</td>
</tr>
</table>

| | | |
|---|---|---|
| | **Addım 2. Ərəblərin ortaya çıxdığından sonra sözügedən məkanda yaşayan xalqların dini və siyasi baxımdan vəziyyəti necə dəyişdi? (Tarixi hadisə/proses 4, cəmiyyət 1)**<br>**Ərəblər kimdir, onları birləşdirən nədir və fəth etdikləri xalqlara qarşı münasibəti necə idi? (Cəmiyyət 1, 4)**<br><br>**Əsas təsəvvürün üzərində iş üçün lazımi resurslar**<br>• Dərslik: paraqraflar -50, 53<br>• Ərəblər və Ərəb Xilafəti #teleməktəb https://youtu.be/LEGLmYSrDfU<br><br>1. Antik dövr sivilizasiyasının Bizans üçün mədəni “başqa” kimi bərqərar olduğunu müzakirə et.<br>2. Coğrafi mühit ərəblərin həyat tərzinə və cəmiyyətinə necə təsir edirdi?<br>3. Məhəmmədə hansı sosial və iqtisadi amillər təsir edirdi?<br>4. İslamın əsas prinsiplərinin - müsəlman cəmiyyətinin hansı dəyərlərə əsaslandığını müzakirə et;<br>5. İslamı qəbul etdikdən sonra ərəb cəmiyyətini müzakirə et, onların ortaq xüsusiyyətləri nədən ibarət idi. Əsas qruplar hansılar idi və hansı meyarlara görə onları daha kiçik sosial qruplara bölmək olar<br>6. İslamdan əvvəlki və sonrakı ərəb cəmiyyətini müqayisə et - necə dəyişdi, ərəb cəmiyyətində hansı müxtəlif qruplar yarandı.<br>7. Nə üçün ərəblərin öz cəmiyyətlərində elmi inkişaf etdirmək istədiklərini müzakirə et<br>8. Bizans və ərəblərin başqa cəmiyyət və mədəniyyətlərə münasibətini müqayisə et.<br>9. Ərəb xilafətinin elm, təhsil və mədəniyyət mərkəzinə çevrilməsinə hansı amillər təsir etdi?<br>10. Əvvəlki paraqraflarda əldə edilmiş bilikləri yadına sal və elm və texnikanın inkişafının cəmiyyətin və iqtisadiyyatın tərəqqisinə necə dəstək verdiyini müzakirə et.<br>11. Ərəblərin mədəni “başqaya” münasibəti necə idi?<br>12. Mütərəqqi vətəndaş həyatı inkişaf etmiş cəmiyyətin yaradılmasına nə dərəcədə dəstək verir. Nə üçün?<br>13. Ərəblər coğrafi və mədəni biliklərə yiyələnərək, öz cəmiyyətlərini necə inkişaf etdirə bildilər<br>14. Ərəb xilafətinin miqyasından irəli gələrək, eyni zamanda bir neçə mərkəzin mövcudluğu nə dərəcədə | |

| | | | |
|---|---|---|---|
| | zəruri idi və onlar hansı strateji, siyasi və mədəni əhəmiyyətə malik idilər?<br>15. Ərəb xilafətinə keçən ərazilər hansı mədəniyyətlərin və xalqların irsi idi idi və bu, ərəb mədəniyyətinə necə təsir etdi?<br><br>**Şagirdlər tərəfindən kompleks tapşırığın prezentasiyası prosesində müəllimin verdiyi suallar:**<br><br>• Tapşırıq üzərində iş prosesinin necə keçdiyini təsvir et;<br>• Hansı materialı hazırladığını təsvir et;<br>• Hazırladığın tapşırıq hansı məsələyə toxunur?<br>• Yazılı layihəni nə üçün hazırladığını izah et? Onun vasitəsilə nə demək istəyirdin?<br>• Nə üçün yaratdığın materialın həqiqətən yazılı layihə olduğunu düşünürsən?<br>• Səncə, hazırladığın kompleks tapşırıq ilə kim maraqlana bilər və nə üçün?<br>• Tapşırıq üzərində iş prosesində hansı maneələrlə qarşılaşdın?<br>• Yenidən tapşırığın üzərində işə başlasaydın, nəyi başqa cür edərdin?<br>• Başqa vaxt oxşar forma və ya məzmunda tapşırığı yerinə yetirmisənmi?<br>• Səncə, tapşırığın sinif yoldaşlarının işlərinə nə ilə bənzəyir və nə ilə fərqlənir? | | |
| **Uzunmüddətli məqsəd**<br><br>**Hədəf anlayışı və onunla bağlı əsas təsəvvürlər** | **Məsələ/Məsələlər**<br>**Bizans IX əsrdə**<br><br>**Altanlayışlar:**<br>**Narrativ mənbələr** | **Əsas sual / suallar**<br>IX əsrdə Bizansda baş verən hadisələrlə bağlı Bizans müəlliflərinin yaratdığı yazılı mənbələrin qısa xronikalar vasitəsilə tənqidini necə təqdim edə bilərəm? | **Aralıq dərs məqsədi**<br>**Kompleks tapşırığın şərti** |
| **Mənbə**<br>1. Tarixçilər keçmiş haqqında məlumatı mənbələrdən alırlar;<br>2. Tarixçilər keçmişi öyrəndikdə, müxtəlif növ mənbələrə istinad edirlər (əşyayi, etnoqrafik, yazılı, linqvistik, | **Kompleks tapşırığın üzərində iş mərhələləri (resurslar, fəallıqlar):**<br>**I mərhələ: Kompleks tapşırığın forması**<br>**Öyrənilsi məsələ ilə bağlı biliyimi necə göstərə bilərəm?**<br><br>Təhlil edilәsi məsələ və kompleks tapşırığın şərti ilə tanışlıq | | Təsəvvür et ki, IX əsr Bizans siyasətçisisən. İmperator III Mixailə yaxınsan və İmperator I Vasili tərəfindən təşkil edilən sui-qəsddən və imperator |

<table>
<tr>
<td>kino-foto-fono sənədlər);<br>3. Mənbələrin hamısı eyni şəkildə etibarlı deyil.<br>4. Mənbələrdən alınan məlumat birmənalı deyil. Buna görə də onların şərhi tarixçilər arasında diskussiyaya səbəb olur.</td>
<td>I mərhələdə şagirdlərin hamısı tapşırığı qəbul etməli və onu hansı forma ilə təqdim edəcəklərini razılaşdırmalıdırlar. Kompleks tapşırığın şərtini şagirdin ehtiyaclarına əsasən uyğunlaşdırmaq olar. Həmin mərhələdə yaradıcılıq materialı təhlil edilməlidir.<br><br>Resurs/fəallıq:<br>Tapşırığın və materialla tanışlıqdan sonra müəllim çağırış mərhələsini suallarla mini formatda aparmalıdır:<br><br>1. Qısa xronikalar haqqında nə eşitmisiniz? Bənzər yaradıcı material hazırlamısınızmı?<br>2. Xronikaların əks mətni necə yazılmalıdır?<br>3. Qısa xronikalar yaradanda nələrə diqqət etməliyik?<br>4. Xronikaların əsas xüsusiyyətləri hansılardır?<br>5. Xronikaların əks mətnlərindən mənbə kimi istifadə etmək tarixçi üçün nə dərəcədə faydalı ola bilər?<br><br>Bundan sonra müəllim sinifdə şagirdlərə xronikaların xüsusiyyətlərini izah edir, başa düşmək üçün resurslar təklif edir<br>– Tarixçilər tarixi necə öyrənirlər<br>https://files.fm/f/4as8bxnad<br>2. – Tarixi mənbələrin üzərində işlədikdə nə edirik<br>https://files.fm/f/2e95nmkt9<br>Verilən resursun üzərində işlədikdən sonra müzakirə aparın və müzakirə nəticələrini analiz cədvəlinə köçürün<br><br>
<table>
<tr><th>Tarixi mənbələr</th><th>Xüsusiyyətlər</th></tr>
<tr><td></td><td></td></tr>
<tr><td></td><td></td></tr>
<tr><td></td><td></td></tr>
<tr><td></td><td></td></tr>
<tr><td></td><td></td></tr>
</table>
</td>
<td>öldürüldükdən sonra qaçmağa məcbur olmusan. Franklarda sığınmısan.<br>Qısa bir xronika yaratmalısan. Burada Feofan Uca və İoan Skilitse (səh.208) tərəfindən yaradılmış yazılı mənbələrin bir növ əks mətnini təqdim etməlisən. Feofan tərəfindən Vasilinin mənşəyi haqqında məlumatı tənqid et və fikrini əsaslandır – nə üçün yalan deyir. Onlarla qarşılaş və İoan Skilitsin təsvir etdiyi sui-qəsdin ön şərtləri və Vasili islahatları haqqında məlumatların əks şərhlərini təqdim et.<br><br>Xronikanın əks mətnində xüsusilə göstərməlisən:<br>• Xronikan hansı mənbə növünə aiddir və onu yaratmaq üçün motivasiyan nədir? (Əs.təs. Mənbə 1; 2)<br>• Yaratdığın mənbənin etibarlılığını müəyyən edən nədir, nə üçün başqa mənbələrə deyil, sənə inanmalıdırlar. (Əs.təs. Mənbə 3)</td>
</tr>
</table>

<table>
<tr>
<td></td>
<td>
Aşağıda verilən koqnitiv sxemdən istifadə edərək, verilən resursu dərk edin:<br>

<br>
II mərhələ: Kompleks tapşırığın məzmunu<br><br>
Addım 1. Xronikan hansı mənbə növünə aiddir və onu yaratmaq üçün motivasiyan nədir? (Əs.təs. Mənbə 1; 2)<br><br>
Əsas təsəvvürün üzərində iş üçün lazımi resurslar
<ul>
<li>dərslik: paraqraf : 62-63, 64-65</li>
<li>Orta Əsrlərin Avropa istorioqrafiyası https://youtu.be/30tqfgJuGls</li>
</ul>
1. Tarixçilər tarixi hadisəni tədqiq edərkən hansı mənbələrdən istifadə edirlər?<br>
2. Əks xronikalar tarixi hadisənin tədqiqi prosesində tarixçilərə necə kömək edir?<br>
3. IX əsrin Bizans reallığını, siyasi və dini proseslərini əks etdirən mənbələrin xüsusiyyətləri hansılardır?<br>
4. Feofanın “Kralların həyatı” əsərindən Vasilinin mənşəyi və onu Arşakilər sülaləsi ilə əlaqələndirməklə hansı məqsədə xidmət edə biləcəyi haqqında məlumatı nə dərəcədə etibarlı hesab edirsiniz? Mövqeyinizi sübutlarla əsaslandırın.<br>
5. İoan Skilitse tərəfindən yaradılmış yazılı mənbəni nə dərəcədə etibarlı hesab edirsiniz? Mövqeyinizi sübutlarla əsaslandırın.<br>
6. İoan Skilitse tərəfindən gətirilən sui-qəsdin ön şərtləri və Vasilinin islahatlarının haqqında əks şərhləri təqdim edin.<br>
7. Hansı siyasi, iqtisadi və mədəni hadisələrə görə tarixçilər hesab edirlər ki, Makedonlar sülaləsinin dövrü Bizans İmperiyasının ən parlaq dövrü olub ?<br>
8. Bizansın xarici siyasəti ilə bağlı hansı növ mənbələrimiz olduğunu və onların nə dərəcədə etibarlı olduğunu müzakirə edin.
</td>
<td>
<ul>
<li>Göstərdiyin mənbə ilə Vasili tərəfdarlarının mənbələri arasında yaranmış diskussiyada gələcək şərhlər üçün hansı amillər nəzərə alınmalıdır? (Əs.təs. Mənbə 4)</li>
</ul>
</td>
</tr>
</table>

| | | |
|---|---|---|
| | 9. VII Konstantin Porfirogenetin əsəri hansı mənbə növüdür və tədqiqatçılar üçün hansı baxımdan maraqlıdır?<br>10. Əks xronikaları yaratmaq üçün tədqiq etdiyiniz mənbələrdən necə istifadə edəcəksiniz?<br><br>**Addım 2. Yaratdığın mənbənin etibarlılığını müəyyən edən nədir, nə üçün başqa mənbələrə deyil, sənə inanmalıdırlar. (Əs.təs. Mənbə 3)**<br><br>• Dərslik: paraqraf 31-32<br>• Orta Əsrlərin Avropa tarixşünaslığı https://youtu.be/30tqfgJuGls<br><br>1. Təqdim olunan mənbələrin müəllifləri kimlərdir?<br>2. Bu mənbələr necə və hansı şəraitdə yazılmış və yaradılmışdır?<br>3. Yaratdığınız əks xronikaları Bizans müəlliflərinin əsərləri ilə müqayisə edin və fərqləri müzakirə edin?<br>4. Yaratdığınız əks xronikanın məzmununun etibarlılığını hansı arqumentlərlə sübut edəcəksiniz?<br>5. Nə üçün gələcək nəsil Bizans müəlliflərinin deyil, sizin yaratdığınız əks xronikaya inanmalıdır?<br><br>**Addım 3. Göstərdiyin mənbə ilə Vasili tərəfdarlarının mənbələri arasında yaranmış diskussiyada gələcək şərhlər üçün hansı amillər nəzərə alınmalıdır? (Əs.təs. Mənbə 4)**<br>• Dərslik: paraqraf 31-32<br>• Orta Əsrlərin Avropa istorioqrafiyası<br>https://youtu.be/30tqfgJuGls<br><br>1. Xronika müəllifi əks mətnin üzərində işləyərkən hansı amillərə diqqət yetirməlidir?<br>2. Müzakirə etdiyin Bizans müəlliflərinin əsərlərinin meylini hansı amillər müəyyənləşdirdi? Fikrini arqumentlərlə əsaslandır;<br>3. Yaratdığın əks xronikaları Vasilinin tərəfdarlarının yazdığı mənbələrlə müqayisə et və aralarındakı fərqləri müzakirə et;<br>Fikrini arqumentlərlə əsaslandır;<br>4. Əks xronikanı yaradanda məqsədin nə idi?<br>5. Əks xronikaları yaradanda müəllifin məsuliyyəti nədir? Öyrənilən mənbələrə istinad edərək paralellər apar. | |

| | | |
|---|---|---|
| | **Şagirdlər tərəfindən kompleks tapşırığın prezentasiyası prosesində müəllimin verdiyi suallar:**<br><br>• Tapşırıq üzərində iş prosesinin necə keçdiyini təsvir et;<br>• Hansı materialı hazırladığını təsvir et;<br>• Hazırladığın tapşırıq hansı məsələyə toxunur?<br>• Əks xronikanı nə üçün hazırladığını izah et? Onun vasitəsilə nə demək istəyirdin?<br>• Nə üçün yaratdığın materialın həqiqətən əks xronika olduğunu düşünürsən?<br>• Səncə, hazırladığın kompleks tapşırıq ilə kim maraqlana bilər və nə üçün?<br>• Tapşırıq üzərində iş prosesində hansı maneələrlə qarşılaşdın?<br>• Yenidən tapşırığın üzərində işə başlasaydın, nəyi başqa cür edərdin?<br>• Başqa vaxt oxşar forma və ya məzmunda tapşırığı yerinə yetirmisənmi?<br>• Səncə, tapşırığın sinif yoldaşlarının işlərinə nə ilə bənzəyir və nə ilə fərqlənir? | |

| **Uzunmüddətli məqsəd**<br>**Hədəf anlayışı və onunla bağlı əsas təsəvvürlər** | **Məsələ/yarımməsələlər:**<br>**Frank İmperiyası**<br>**Altanlayışlar:**<br>**İdarəetmə formaları; gündəlik məişət həyatı** | **Əsas sual/suallar**<br><br>Orta əsrlərə xas olan idarəetmə və cəmiyyət formalarını xronikalar vasitəsilə necə təqdim etmək olar? | **Aralıq dərs məqsədi**<br><br>**Kompleks tapşırığın şərti** |
|---|---|---|---|
| **Hakimiyyət**<br>1. Hakimiyyət uğrunda mübarizə tarixin ayrılmaz hissəsidir;<br>2. Hakimiyyət uğrunda mübarizə həm şəxslər, eləcə də ictimai qruplar arasında aparılır. Onlar mübarizədə ölkədə mövcud ictimai-siyasi | **Kompleks tapşırığın üzərində iş mərhələləri (resurslar, fəallıqlar):**<br>**I mərhələ: Kompleks tapşırığın forması**<br>**Öyrənilməsi məsələ ilə bağlı biliyimi necə göstərə bilərəm?**<br><br>Təhlil ediləsi məsələ və kompleks tapşırığın şərti ilə tanışlıq<br>I mərhələdə şagirdlərin hamısı tapşırığı qəbul etməli və onu hansı forma ilə təqdim edəcəklərini razılaşdırmalıdırlar. Kompleks tapşırığın şərtini şagirdin ehtiyaclarına əsasən uyğunlaşdırmaq olar.<br>Həmin mərhələdə yaradıcılıq materialı təhlil edilməlidir. | | Təsəvvür et ki, IX əsrdə Turda fəaliyyət göstərən din xadimisən. Gözünün önündə elə bir proses gedir ki, burada Karlın yaratdığı dövlət idarəetmə sisteminin çökdüyü aydın görünür. Dövlət normanlar tərəfindən hücuma məruz qalır və dövlətin hərbi və siyasi |

<table>
<tr>
<td>
strukturlardan istifadə edirdilər;<br>
3. Hakimiyyətin əldə edilməsi və qorunub saxlanılması üçün lzımi vasitələr resurslara (maliyyə, insan resursları) malik olmaq, simvollar və ideologiyadır;<br>
4. Bəzi cəmiyyətlərdə hakimiyyət bir nəfər tərəfindən idarə edilir, bəzilərində isə insanlar/ictimai qruplar arasında bölünmüşdür;<br>
5. Demokratik dövlətdə hakimiyyət qaynağı xalqdır.<br>
<br>
Cəmiyyət<br>
1. Tarixən çoxlu cəmiyyət mövcud idi, amma bunlardan hər birini ümumi əlamətlər xarakterizə edirdi: onların üzvlərinin ümumi identikliyi, marağı, qayğısı var idi və davranış qaydaları və dəyərləri üzrə razılığa gəlirdilər;<br>
2. Cəmiyyət daha kiçik ictimai qruplara bölünürdü;<br>
3. Kiçik cəmiyyətlər daha böyük
</td>
<td>
Resurs/fəallıq:<br>
Tapşırığın şərti və materialla tanışlıqdan sonra müəllim çağırış mərhələsini suallarla mini formatda aparmalıdır:<br>
1. Xronikalar haqqında nə eşitmisiniz? Müvafiq təcrübəniz varmı?<br>
2. Xronikalar yaradarkən hansı məsələləri nəzərə almalıyıq?<br>
3. Xronika necə yaradılır?<br>
4. Oxşar material yaratmaq üçün nəyə diqqət etməliyik?<br>
5. Hökmranlığın istinad etdiyi amillər onda necə təqdim olunmalıdır? Sosial təbəqələr? Hərbi və iqtisadi sistem?<br>
<br>
Bundan sonra müəllim sinifdəki şagirdlərə xronikaların mahiyyətini izah edir (Mənbə 1) və başa salmaq üçün xronika nümunəsini təklif edir (Resurs 2, 3),<br>
Müəllim dərsdə mənbədən parçalar oxuyur, nəticədə isə şagirdlər xronikanın xüsusiyyətlərini müəyyənləşdirməlidirlər.<br>
<br>
1. Xronika nədir<br>
http://www.nplg.gov.ge/saskolo/index.php?a=term&d=46&t=4410<br>
<br>
3. Mesxetili Davitin xronikası<br>
https://bit.ly/3fuvgaQ<br>
<br>
Verilən resursların üzərində işlədikdən sonra, xronikanın xüsusiyyətlərini və onu yaratmaq üçün tələb olunan addımları müəyyənləşdir. İşlənmiş məlumatları aşağıdakı cədvəl şəklində təqdim et.
<table>
<tr><th>Xronikanın xüsusiyyətləri</th><th>Addımlar</th></tr>
<tr><td></td><td></td></tr>
<tr><td></td><td></td></tr>
<tr><td></td><td></td></tr>
<tr><td></td><td></td></tr>
<tr><td></td><td></td></tr>
</table>
</td>
<td>
strukturlarında islahatlar aparmaq lazımdır. Böyük Karl dövründə feodal quruluşunun necə olduğunu, normanların ortaya çıxdığından sonra dünyanın necə dəyişdiyini və Frank dövlətinin normanların öhdəsindən gələ bilməsi üçün feodal quruluşunun necə dəyişdirilməsi lazım olduğunu təsvir edən bir xronika hazırla. Xronikada imperiya hakimiyyətinin hansı amillərə istinad etməsi təsvir edilməlidir; hansı sosial qruplar vurğulanmalı və hərbi və iqtisadi sistem necə dəyişdirilməlidir.<br>
<br>
Yazılı layihədə xüsusilə göstərməlisən:<br>
• Qeyd edilən dövr üçün hansı hakimiyyət növü xarakterikdir və imperator öz təbəələrini qeyd-şərtsiz sadiq saxlamaq üçün öz hakimiyyətini nə ilə əlaqələndirməlidir. (Hakimiyyət 3, 4, 2)<br>
• Cəmiyyət neçə təbəqəyə bölünür və normanlara qarşı effektiv müqavimət göstərmək üçün hansı təbəqə nə
</td>
</tr>
</table>

| | | |
|---|---|---|
| cəmiyyətin bir hissəsini təqdim edirlər;<br>4. Cəmiyyət üzvlərinin bir çox hallarda digər cəmiyyətlər (“mədəni başqa”) haqqında stereotip təsəvvürləri olur. | **I mərhələ. Kompleks tapşırığın məzmunu üzərində iş**<br>**Addım 1**. Qeyd edilən dövr üçün hansı hakimiyyət növü xarakterikdir və imperator öz təbəələrini qeyd-şərtsiz sadiq saxlamaq üçün öz hakimiyyətini nə ilə əlaqələndirməlidir. (Hakimiyyət 3, 4, 2)<br><br>**Əsas təsəvvürün üzərində iş üçün lazımi resurslar**<br>• dərslik:paraqraf -53, 55, 56<br>• Merovinqlərin və Karolinqlərin Frank Krallığı https://youtu.be/OHivjjXIHV8<br><br>1. Romanın süqutundan sonra Avropa necə və niyə dəyişdi?<br>2. Frank krallığında hakimiyyət strukturunu müzakirə et. Hakimiyyət kimin əlində idi və hakimiyyətin mənbəyi nə idi?<br>3. Nə üçün Papa hökmranlıq və kral legitimliyinin mənbəyi idi?<br>4. Karolinqlər sülaləsinin yaranmasına hansı amillər şərait yaradırdı?<br>5. Nə üçün Karl öz müharibələrində xristian motivlərini vurğulayırdı və nə üçün avarlar və saksların xristianlığı qəbul etməsi vacib idi?<br>6. Böyük Karlın imperator titulu uğrunda mübarizəsi və onu kral titulundan fərqləndirən simvollar hansı ideoloji və ictimai siyasi strukturlara əsaslanırdı.<br>7. Böyük Karl imperator titulunu hansı şəraitdə aldı və hakimiyyətin legitimliyi baxımından nə dəyişdi?<br>8. Nə üçün din hökmranlıq mənbəyi idi və bu dövrün hökmdarları üçün dini legitimliyin əhəmiyyəti nə idi?<br>9. Öncəki materialı yadına sal və Frank krallığında hansı hökmranlıq modelinin mövcud olduğunu müzakirə et. Bu modeli qədim dünyadan tanıdığınız digər idarəetmə formaları ilə müqayisə et.<br>10. Karlın dini məsələlərə aktiv müdaxiləsində məqsəd nə idi?<br>11. Müasir Qərb dünyasının dini və siyasi hakimiyyəti necə ayırdığını müqayisə edin. Bunun səbəblərini müzakirə edin.<br>12. Nə üçün Roma İmperiyasını bərpa etmək üçün Papaya və Böyük Karla etibar etmək olardı?<br>13. Roma İmperiyasını yenidən qurmaq nə üçün mümkün deyildi?<br>14. Karl ictimai və dövlət islahatları zamanı dini amildən hansı məqsədlə istifadə edirdi?<br>15. Karl inzibati islahatlar vasitəsilə hakimiyyəti necə bölüşdürdü? | etməlidir. (*Cəmiyyət* 2, 3)<br>• Krallığın siyasi və iqtisadi (maliyyə və hərbi sahələrdə) inkişafı üçün hansı strukturlara ehtiyacı olacaq. (*Tarixi had.2, 4)* |

| | | |
|---|---|---|
| | 16. Feodal dövründə hansı hakimiyyət növü üstünlük təşkil edirdi, təkbaşına və ya bölünmüş?<br>17. Sözügedən dövrə uyğun gələn hakimiyyət növünü seç və onu öz hakimiyyətinizlə əlaqələndir.<br><br>**Addım 2. Cəmiyyət neçə təbəqəyə bölünür və normanlara qarşı effektiv müqavimət göstərmək üçün hansı təbəqə nə etməlidir. (Cəmiyyət 2, 3) Krallığın siyasi və iqtisadi (maliyyə və hərbi sahələrdə) inkişafı üçün hansı strukturlara ehtiyacı olacaq. (Tarixi had.2, 4)**<br><br>**Əsas təsəvvürün üzərində iş üçün lazımi resurslar**<br>• dərslik: paraqraflar: 57, 58, 59<br>• Orta Əsrlərin Feodal Cəmiyyəti # teleməktəb https://files.fm/f/pk3rxnsdb<br><br>1. Orta əsrlər Avropasında əsas sosial təbəqələr hansılardır - onların birləşməsi, fəaliyyətləri, maraqları və dəyərləri nədən ibarət idi?<br>2. Orta əsrlər Avropasında hakimiyyət necə bölüşdürülürdü?<br>Orta əsrlər cəmiyyətində kilsə hansı hökmranlığa malik idi? Niyə kilsə hakimiyyət mənbələrindən biri idi?<br>3. Orta əsrlər cəmiyyətində torpaq mülkiyyətinin əhəmiyyəti nə idi - torpaq mülkiyyətinin hakimiyyətlə əlaqəsi necə idi?<br>4. Feodal sistemi nəyə əsaslanırdı və necə işləyirdi?<br>5. Fərdlərin və sosial qrupların hökmranlığını nə müəyyənləşdirdi və onlar bunu əldə etmək üçün necə mübarizə aparırdılar?<br>6. Feodal dövründə hakimiyyəti əldə etmək və saxlamaq üçün əsas mənbə nə idi?<br>7. Feodal cəmiyyəti hansı kiçik sosial qruplara bölünürdü və feodal cəmiyyətinə daxil olan müxtəlif sosial təbəqələrin ümumi xüsusiyyətləri, qayğıları, davranış qaydaları, maraqları nədən ibarət idi?<br>8. Cəmiyyət üzvlərinin digər sosial təbəqələrə münasibəti necə ola bilərdi?<br>9. Orta əsrlərdə qadın və kişilərin qeyri-bərabər sosial funksiyasını nə müəyyənləşdirdi? Bu, süni şəkildə yaradılmış sistem idimi, yoxsa təbii göstərici.<br>10. Orta əsrlər cəmiyyətində kübar və sadə qadınların həyatı nə qədər fərqli idi.<br>11. Nə üçün cəngavərlər feodallar üçün güc mənbəyi idi? Onlar feodallardan necə asılı idilər | |

| | | |
|---|---|---|
| | 12. Müasir Qərb dünyasının dini və siyasi hakimiyyəti necə ayırdığını müqayisə edin. Bunun səbəblərini müzakirə edin.<br>13. Feodal cəmiyyətinin təfəkkürünü və həyat tərzini hansı amillər müəyyən edirdi?<br><br>**Şagirdlər tərəfindən kompleks tapşırığın prezentasiyası prosesində müəllimin verdiyi suallar:**<br><br>• Tapşırıq üzərində iş prosesinin necə keçdiyini təsvir et;<br>• Hansı materialı hazırladığını təsvir et;<br>• Hazırladığın tapşırıq hansı məsələyə toxunur?<br>• Yazılı layihəni nə üçün hazırladığını izah et? Onun vasitəsilə nə demək istəyirdin?<br>• Nə üçün yaratdığın materialın həqiqətən yazılı layihə olduğunu düşünürsən?<br>• Səncə, hazırladığın kompleks tapşırıq ilə kim maraqlana bilər və nə üçün?<br>• Tapşırıq üzərində iş prosesində hansı maneələrlə qarşılaşdın?<br>• Yenidən tapşırığın üzərində işə başlasaydın, nəyi başqa cür edərdin?<br>• Başqa vaxt oxşar forma və ya məzmunda tapşırığı yerinə yetirmisənmi?<br>• Səncə, tapşırığın sinif yoldaşlarının işlərinə nə ilə bənzəyir və nə ilə fərqlənir? | |

# MÜƏLLİFİN ŞƏRHLƏRİ

## MÜƏLLİFİN MÜƏLLİMƏ TÖVSİYƏLƏRİ:

**Paraqraf §33-34-35 – Nə üçün Roma İmperiyası böhrana uğradı?**

Paraqrafı öyrəndikdə, öncəki bilikləri aktivləşdirmək lazımdır. Şagirdlərə I-II əsrlərdə Roma imperiyasında vəziyyətin necə olduğunu xatırlatmalı və sonra III əsrdəki dəyişikliklərə keçmək lazımdır. Senatın hüquqlarının zəiflədilməsi baxımından Kommodun islahatlarının əhəmiyyətini vurğulayın. Roma İmperiyasının üzləşdiyi problemləri və imperatorların həyata keçirdiyi islahatları təsvir etmək lazımdır. Hansı islahatın uğurlu olduğunu və bu uğurun nəyə səbəb olduğunu, hansı islahatın problemi həll etmədiyini və nə üçün olduğunu müəyyən etmək lazımdır. Xarici siyasi hissədə diqqət iki coğrafi əraziyə - Dunay bölgəsinə və Suriyaya yönəldilməlidir.
Roma və Sasani İranı arasında mübahisəli ərazilərin hansı coğrafi ərazini əhatə etdiyi və münaqişənin necə aparıldığı barədə müzakirə təklif edin. Roma İmperiyasında imperatorun gücünün zəifləməsi və imperatorların təyin edilməsi və taxtdan salınması prosesində ordunun rolunu müzakirə edin. İqlim dəyişikliklərinin həmin dövrün dünyasına təsirinə və onun Roma İmperiyasında necə əks olunduğuna diqqət yetirin.
Nəticələri təqdim edirik. Göstərilən paraqrafı öyrəndikdən sonra, nəticələrin əldə edilmiş hesab edilməsi üçün şagirdin **əsas təsəvvürlər** şəklində növbəti biliyi olmalıdır:

- II əsr Roma tarixində sabit və xoşbəxt bir dövr idi, III əsrdə vəziyyət dəyişir, siyasi və iqtisadi problemlərlə dolu bir dövr yetişir. *(vaxt)*
- İmperator Kommodun hakimiyyəti və özbaşına islahatları Roma qurumlarının dağılmasına və siyasi qeyri-sabitliyə səbəb oldu. *(hakimiyyət)*
- III əsrin əvvəllərində Senatın siyasi hakimiyyəti zəifləyir və ordu hakimiyyəti ələ keçirir, imperatorlara qarşı üsyanlar və onların qətlləri sistematik xarakter alır. *(zaman; hakimiyyət)*
- III əsrdə Roma İmperiyasında hakimiyyət ənənəvi Roma aristokratiyasından əyalətlərin məmurlarına keçir. *(hakimiyyət)*
- Dunay bölgəsi və Suriya xarici siyasət baxımından ən aktiv coğrafi məkanı təqdim edirdi. Dunay bölgəsi german tayfalarının hücumuna məruz qalır və şərqdə Sasani İranı fəallaşırdı. *(tarixi hadisə; məkan)*

**Paraqraf §36 – Diokletian Roma böhranını necə dayandırdı?**

Qeyd olunan paraqrafı öyrənərkən əvvəlki paraqrafda öyrənilən materialı və əvvəlki bilikləri aktivləşdirmək lazımdır. Diokletian hakimiyyətə gəlməzdən əvvəl Roma İmperiyasının ümumi şəkli təqdim edilməlidir. Dərs müzakirələri Diokletian hakimiyyətinin ümumi mozaik mənzərəsini təqdim etməlidir, Roma İmperiyasının daxili siyasət baxımından hansı problemlərlə üzləşdiyi və hansı coğrafi ərazilərin xarici siyasətdə daha çox fəal olduğu barədə məlumat verilməlidir.

Qeyd olunan paraqrafda Roma imperiyasının şərq siyasəti və Sasanilərin İranla qarşıdurmasının səbəbləri, coğrafi ərazi və ümumi cərəyanı ayırd etmək lazımdır. Gürcü dünyasının kontekstini də burada göstərmək olar. Diokletian tərəfindən Avqustin dövründən bəri prinsipatın dominatla əvəz edilməsini, eləcə də tetrarxiyanın formalaşmasını vurğulamaq lazımdır. Bu islahatların səbəbləri və xarakteri müəyyən edilməlidir.

Xristianların amilinə diqqət yetirilməlidir. Nə üçün xristianlar Roma İmperiyası üçün təhlükəli idilər? Dövlətin qarşısında duran çağırışların və problemlərin həlli üçün mərkəzi hakimiyyəti gücləndirməyin nə qədər vacib olduğunu da göstərmək lazımdır. Sonda, şagirdlərdən Diokletianı islahatçı bir imperator kimi qiymətləndirmələrini xahiş edin.

Nəticələri təqdim edirik. Göstərilən paraqrafı öyrəndikdən sonra, nəticələrin əldə edilmiş hesab edilməsi üçün şagirdin **əsas təsəvvürlər** şəklində növbəti biliyi olmalıdır:

- III əsrdə imperator Diokletian Roma imperiyasının qarşısında duran hərtərəfli problemləri islahatlar yolu ilə həll etməyə çalışırdı. *(vaxt)*
- 293-cü ildə imperator Diokletian Roma İmperiyasını daha səmərəli idarə etmək üçün onu 4 inzibati hissəyə bölür. Bu hadisə Tetrarxiya adlanırdı. *(tarixi hadisə)*
- Əvvəlki imperatorların əsas və qeyri-sabit dayağı ordu idisə, Diokletian sabit bürokratik və inzibati aparatı imperator hakimiyyətinin dayağına çevirdi. *(hakimiyyət)*
- Diokletianın Sasani İranına qarşı uğurlu hərbi yürüşlərindən sonra, Kartli və Armeniya Romanın təsiri altına düşür ki, bu da qeyd olunan məkanda xristianlığın yayılmasına dəstək verir. *(məkan; tarixi hadisə)*
- Diokletian dövrü xristianların amansız təqibləri və repressiyaları ilə səciyyələnir, amma bu, Roma cəmiyyətində xristian dininin yayılmasına mane ola bilmir. *(zaman; cəmiyyət)*

**Paraqraf §37 – Nə üçün İmperator Konstantin Roma İmperiyasında xristianlara qarşı siyasətini dəyişir?**

Yaxşı olardı ki, qeyd olunan paraqraf üzərində işləyərkən əsasən xristianlığın yeni bir din kimi fərqli mahiyyətinə diqqət yetirilsin. Xristianlığın dini, siyasi, sosial və iqtisadi xarakterini vurğulamaq lazımdır. O, nəyi təbliğ edirdi və ənənəvi Roma dinindən nə ilə fərqlənirdi? Xristianların Roma İmperiyasının hakim dairələri üçün hansı növ problemlər yaratdıqları və onlara qarşı sərt siyasətin və təqiblərin səbəbinin nə ola biləcəyi ilə bağlı müzakirələrin təşkili məqsədəuyğundur. Roma cəmiyyəti üçün xristianlığın cəlbedici amillərini müzakirə edin. O, hansı sosial təbəqənin maraqlarını ifadə edirdi? Xristianlığın nəyi təbliğ etdiyinə və niyə cəmiyyətin aşağı təbəqələri üçün məqbul olduğuna diqqət edin. Böyük tarixi hadisənin bir çox səbəblərinin vəhdəti ilə müəyyən edilməsi amilini aydın şəkildə təsvir edin və Böyük Konstantinin xristian inancı ilə bağlı qərarını bir çox səbəblər müəyyənləşdirirdi.
Milan fərmanına böyük diqqət yetirməli və şagirdlərdən bu sənədin əhəmiyyətini müzakirə etmələrini xahiş etməliyik. Onun qəbul edilməsinin bir neçə səbəbi göstərilməli və bu sənədin dünya tarixinin gələcək inkişafını necə dəyişdiyi sualı qoyulmalıdır.
Mərkəzin şərqə köçürülməsinin və Roma dünyasında Konstantinopolun qurulmasının siyasi, iqtisadi və ideoloji əhəmiyyətini ayırmaq yaxşı olardı. Bu qərarın səbəbi nə idi və sonda hansı nəticə verdi.
Nəticələri təklif edirik. Göstərilən paraqrafı öyrəndikdən sonra, nəticələrin əldə edilmiş hesab edilməsi üçün şagirdin **əsas təsəvvürlər** şəklində növbəti biliyi olmalıdır:

- İsa Məsihin fəaliyyəti və yeni dinin - xristianlığın yaranması Roma İmperiyasının və dünyanın gələcəyini dəyişdirən Şərqi Roma əyaləti olan İudeya ilə bağlıdır. *(tarixi hadisə; məkan)*
- Xristianlıq Roma cəmiyyətini öz düşüncə tərzini və həyat tərzini dəyişməyə sövq etdi, Roma imperator hakimiyyəti isə buna amansız üsullarla qarşı çıxırdı. *(cəmiyyət; tarixi hadisə)*
- Xristianlıq insanların bərabərliyini və xeyriyyəçiliyi təbliğ edirdi ki, bu da imperiyanın aşağı sosial təbəqələrinin ürəyini tez bir zamanda fəth edir. *(cəmiyyət)*
- 313-cü ildə Milan fərmanı ilə xristianlar Roma İmperiyasında sərbəst etiqad hüququ əldə etdilər, bu hadisəyə bir çox amillər səbəb olurdu, bir tərəfdən, Konstantinin siyasi təşəbbüsü, digər tərəfdən isə xristianların daha da möhkəmlənmiş mövqeləri. *(tarixi hadisə)*
- 325-ci ildə Nikeya Məclisinin çağırılması xristianlar arasında teoloji mübahisənin həllinə xidmət edirdi, çünki xristianlar arasında baş verən münaqişə Roma imperiyasında böyük sosial və siyasi problemlər yaradacaqdı. *(tarixi hadisə)*
- Şərq əyalətlərində xristianların mövqeləri daha güclü idi və onlar iqtisadi və siyasi cəhətdən daha sabitlik ilə xarakterizə olunurdu, bu səbəbdən də Konstantin siyasi mərkəzi şərqə köçürdü və Konstantinopolun əsasını qoydu. *(məkan, cəmiyyət, tarixi hadisə)*

**Paraqraf §38-39. Qərbi Roma İmperiyası niyə süqut etdi?**

Qeyd olunan paraqraf üzərində işləyərkən IV əsrin sonunda Roma imperiyasının iki yerə bölünməsinin səbəbləri və hər bir imperiyanın coğrafi və siyasi xüsusiyyətləri xüsusi vurğulanmalıdır. Şagirdlərə hər iki imperiyanın hansı problemlərlə üzləşdiyini izah edin. “İnsanların böyük miqrasiyasının” hansı hadisə və prosesə aid olduğu ətraflı izah edilməlidir. Köçəri cəmiyyətin xüsusiyyətləri hansılardır? Şagirdlərlə insanların böyük miqrasiyasının səbəblərini və onun nəticələrini müzakirə edin. Dərsin əsas məqsədi Qərbi Roma İmperiyasının süqutunun səbəb və nəticələrini aydın şəkildə təqdim etmək və təhlil etməkdir. German tayfalarının Roma İmperiyasının sərhədlərini keçərkən motivasiyalarını və romalıların onlara münasibətini göstərin, xüsusilə də 10-cu mənbədə təqdim olunan materialı müzakirə edin. Roma dünyasının cəmiyyətin qalan hissəsinə qarşı stereotipik münasibətlərini aydın şəkildə vurğulamaq və bu stereotiplərin çox vaxt tarixi reallığa uyğun gəlmədiyini, bunun nə üçün problemli olduğunun aspektlərini vurğulamaq lazımdır. Şagirdlərdən Qərbi Roma İmperiyasının niyə süqut etdiyini və Şərqi Romanın nə üçün öz mövqeyini saxladığını müqayisə etməyi xahiş edin.

Roma imperatorunun süqutunun nəticələrini və Roma imperiyasının siyasi sonunu göstərmək lazımdır. Lakin şagirdlərə izah edilməlidir ki, siyasi sonluq Roma dünyasının tamamilə yox olması demək deyildi və bu da Avropanın dini və mədəni nizamını yaradırdı.

Nəticələri təqdim edirik. Göstərilən paraqrafı öyrəndikdən sonra, nəticələrin əldə edilmiş hesab edilməsi üçün şagirdin **əsas təsəvvürlər** şəklində növbəti biliyi olmalıdır:

- IV əsrin sonlarında imperator Feodosi Roma imperiyasını iki hissəyə bölür, bundan sonra Qərbi və Şərqi Roma İmperiyaları fərqli dünyalarda formalaşır və müxtəlif yollarla inkişaf edirdi. *(tarixi hadisə; məkan)*
- e.ə II əsr - eramızın IV əsri xalqların böyük köç dövrü kimi tanınır. Bu dövrdə iqlim dəyişikliyi və köçəri tayfaların hərəkətinə görə, xalqların böyük köçü Şərqdən Qərbi Avropa istiqamətində yerini dəyişərək, Roma İmperiyasının sərhədləri ilə qarşılaşır. *(tarixi hadisə; vaxt)*
- Almandilli qəbilələrin qərbə miqrasiyası və Roma İmperiyasının ərazilərinin işğalı Qərbi Roma İmperiyasının zəifləməsinə və nəticədə süqutuna səbəb oldu. *(tarixi hadisə)*
- V əsrdə Roma şəhəri üç dəfə german tayfaları tərəfindən tutuldu və nəhayət, onun siyasi varlığına 476-cı ildə ostqotların lideri Odoakr son qoyur. *(zaman, tarixi hadisə)*
- Roma İmperiyasının siyasi süqutuna baxmayaraq, Roma Qərb dünyasının mədəni, dini və iqtisadi mərkəzi olaraq qalır və Qərb məkanının gələcəyini Roma irsi müəyyən edirdi. *(məkan)*
- Müasir Avropa dünyasının əsası bu dövrdə qoyulmuş. O, Roma irsinin german elementi ilə xristianlığın birləşməsi nəticəsində formalaşmışdı. *(məkan; tarixi hadisə)*

**Paraqraf §40-41. Romanın süqutundan sonra barbar krallıqları necə yaranır və Frank feodal monarxiyası necə yüksəlir?**

Sözügedən paraqraf üzərində işləyərkən, mərkəzi hakimiyyətin fəaliyyətinin pozulmasının hansı növ xaosa səbəb ola biləcəyi ilə bağlı müzakirələrin aparılması arzu edilir. Buna uyğun olaraq, Roma İmperiyasının süqutundan sonra Avropada hansı növdə nizam-intizam məhv edilir və bu prosesi hansı yolla sabitləşdirmək mümkün olur. Cəmiyyətin qəbilə mərhələsi ilə dövlət mərhələsi arasındakı fərqi şagirdlərə aydın şəkildə izah etmək vacib bir detaldır. Alman tayfaları Roma mədəniyyətinə yaxınlaşdıqdan sonra german krallıqlarını qurarkən hansı yolu keçiblər?
Əsas vurğu Roma dünyasının Avropa cəmiyyətlərinə hansı mirası qoyduğuna yönəldilə bilər. Şərqi Roma İmperiyasının alman monarxları üçün siyasi əhəmiyyətini də göstərin. Qanuniləşdirmə vasitələri necə idi və bunu haradan əldə edirdilər?
Paraqrafın əsas ideyası frankların digər alman krallıqlarından üstün ola bildikləri xüsusiyyətləri qeyd etməkdir. Hlodviqin xristianlaşmasının və katolik inancını qəbul etməsinin ideoloji və siyasi-praktik əhəmiyyətinə xüsusi diqqət yetirilməlidir. Franklar krallığında coğrafi amilin iqtisadiyyatın inkişafına necə dəstək verdiyi və feodalizm quruluşunun necə qurulduğuna diqqət edilməlidir.
Nəticələri təklif edirik. Göstərilən paraqrafı öyrəndikdən sonra, nəticələrin əldə edilmiş hesab edilməsi üçün şagirdin **əsas təsəvvürlər** şəklində növbəti biliyi olmalıdır:

- Qərbi Roma İmperiyasının süqutundan sonra sözügedən coğrafi məkanda Roma irsinin təsiri ilə german krallıqları formalaşır. *(məkan; tarixi hadisə)*
- Xristian dünyası dini mərkəz rolunu saxlasa da, Romanın süqutundan sonra o, siyasi mərkəz funksiyasını itirir. *(tarixi hadisə)*
- Alman krallıqları arasında franklar ən çox uğur qazanmışdılar ki, bu da əsasən onların kralı Hlodviqin siyasi hesablamalarının nəticəsi idi. *(tarixi hadisə)*
- Hlodviq öz krallığının dayağı olaraq xristian inancını seçir və digər german tayfalarından fərqli olaraq o, katolik olaraq xaç suyuna salınır və bununla da Papanın və Bizans imperatorunun dəstəyini qazanır. *(tarixi hadisə, hakimiyyət)*
- Katolik etiqadını qəbul etdikdən sonra franklar üçün katolik etiqadlı Roma vətəndaşlarının yaşadığı Roma İmperiyasının ərazilərini işğal etmək daha asan olur. *(cəmiyyət; məkan)*

**Paraqraf §42. Roma İmperiyasının davamlı ənənəsi Şərqdə necə davam edirdi?**

Bu paraqrafın məqsədi Bizans İmperiyasında idarəetmə növünü, imperatorun özünəməxsus idarəçilik modelini və onun xüsusiyyətlərini müzakirə etmək və öyrənməkdir. Əvvəllər öyrənilmiş materialı aktivləşdirmək, yəni antik Roma imperatorunun hakimiyyətinin legitimasiya vasitələrini və digər xüsusiyyətlərini xatırlatmaq və onun orta əsrlərdə necə dəyişməsi fonunu göstərmək lazımdır.
Üç vacib detalı ayırmaq lazımdır. Xristianlığın qəbulundan sonra imperiya hakimiyyətinin qanuniləşdirilməsi vasitələrinin transformasiyasını göstərmək lazımdır. Eləcə də üç ictimai qrupun - senatın, ordunun və xalqın - yeni imperatorun seçilməsində rolu, həmçinin imperatorun hakimiyyətinin ötürülməsi qaydası. İmperatorun vəzifəsinin sülalə varisliyi şəklində ötürülməməsinin Bizans İmperiyasının siyasi həyatına nə kimi təsirinin olması məsələsini müzakirə etmək lazımdır.
Paraqrafın əsas diqqəti iki aspektə yönəldilməlidir. VII əsrdən sonra Bizans hökumət sisteminin dəyişməsini, Bizans imperiyasında ruhani hakimiyyətin dünyəvi hakimiyyətin təsiri altında olduğunu vurğulamaq vacibdir. İmperator ən yüksək ruhani və dünyəvi hakimiyyəti öz əlində birləşdirir. Bizans ilə Qərbdə bərqərar olunan idarəçilik üslubu arasındakı fərq vurğulanmalıdır.
Nəticələri təklif edirik. Göstərilən paraqrafı öyrəndikdən sonra, nəticələrin əldə edilmiş hesab edilməsi üçün şagirdin **əsas təsəvvürlər** şəklində növbəti biliyi olmalıdır:

- ● Bizans İmperiyası özünəməxsus idarəetmə forması, iqtisadi və siyasi sistemləri ilə səciyyələnirdi. *(hakimiyyət; cəmiyyət)*
- Birinci mərhələdə Bizans qədim dövrlərin idarəçilik sistemlərini toxunulmaz saxlayır, VI əsrdə imperator Yustinian Roma hüququnu xristian cəmiyyətinin həyat tərzinə uyğunlaşdırır. *(zaman; tarixi hadisə; hakimiyyət)*
- Bizans imperatorunun seçilməsi üç ictimai qrupun - Senatın, ordunun və Konstantinopol əhalisinin səlahiyyətində idi. *(cəmiyyət; hakimiyyət)*
- Bizans İmperiyasında iki ictimai qrup – venetlər (göylər) və prasinlər (yaşıl) siyasi hüquqlar uğrunda mübarizə aparırdı. Göylər əsasən iri əkinçilər idilər, yaşıllar isə - zəngin tacirlər *(cəmiyyət)*
- Bizans imperatoru həm dünyəvi, həm də kilsə hakimiyyətini öz hakimiyyəti altında birləşdirir. *(hakimiyyət)*

**Paraqraf §43-44. Yustinian Qədim Roma ideyasını necə bərpa etməyə çalışırdı?**

Qeyd olunan paraqrafın öyrənilməsi və işlənməsi prosesində bir neçə əsas aspektə diqqət yetirmək lazımdır. Xüsusilə Yustinian islahatları, müharibələri və onun haqqında mövcud mənbələrin müxtəlif şərhləri haqqında. İlk öncə, şagirdlərin diqqətini Kalkedon Məclisinə, diofizitlərlə monofizitlər arasındakı fərqə və imperiya hökmdarlarının müxtəlif dini qruplarla münasibətdə siyasətinə yönəltmək lazımdır. Bizansda dini dözümsüzlüyün hansı tip problemləri yaratdığını müzakirə etmək məqsədəuyğundur.

Ən mühüm və diqqətəlayiq hissə Yustinianın hüquqi islahatları və qanunlar toplusunun redaktəsidir. Bu halda da düzgün hüquq sisteminin dövlət və cəmiyyət üçün əhəmiyyətindən bəhs etmək məqsədəuyğundur. Yustinianın xarici siyasətinin üç əsas istiqamətinə və Roma imperiyasının antik dövrün coğrafi sərhədləri daxilində bərpasına yönəlmiş xarici siyasət məqsədinə diqqət yetirilməlidir. Qərbdə qotlar və vandallarla, şərqdə isə farslarla müharibənin gedişinə.

Qeysəriyyəli Prokopinin mənbələrindən əldə etdiyimiz unikal hadisəni nəzərdən qaçıra bilmərik. Şagird kitabında mənbələrdən əks xarakterli və məzmunlu parçalar təqdim olunur, bu parçaların əsasında müxtəlif növ interaktiv fəaliyyətləri təşkil etmək vacibdir.

Nəticələri təklif edirik. Göstərilən paraqrafı öyrəndikdən sonra, nəticələrin əldə edilmiş hesab edilməsi üçün şagirdin **əsas təsəvvürlər** şəklində növbəti biliyi olmalıdır:

- ● İmperator Yustinianın hakimiyyəti - 527-565-ci illər bir çox şəraitə görə, Bizans imperiyasının qızıl dövrü adlanır. *(vaxt)*
- İmperator Yustinianın təşəbbüsü ilə xristian dünyagörüşü ilə birləşdirilən 5 minə yaxın Roma qanunlarını özündə əks etdirən mülki qanunlar toplusu yaradılmışdır. *(Tarixi hadisə, cəmiyyət)*
- Yustinian dövründə imperiya Afrikada vandallara, İtaliyada ostqotlara və Şərqdə iranlılara qarşı müharibə aparır və nəticədə uğur qazanır. *(məkan; tarixi hadisə)*
- Yustinianın hakimiyyəti dövrü möhtəşəm tikililərlə səciyyələnirdi ki, bunlardan ən mühümü Aya Sofiyanın tikintisi idi. *(zaman, tarixi hadisə)*
- Yustinian dövrü və hakimiyyəti haqqında məlumat əsasən Qeysəriyyəli Prokopi tərəfindən verilir, onun qeydlərində ziddiyyətli məzmun var və müxtəlif şərhlərə imkan verir. *(mənbə)*

**Paraqraf § 45. Sasani İranı necə yaranıb? Bölgənin ticarət əlaqələrində hansı rol oynayırdı?**

Bir neçə detala görə, bu paraqrafı xüsusi diqqətlə öyrənmək vacibdir. Birincisi, III-VII əsrlər dünyasında İran məkanının və ümumiyyətlə, dünyanın böyük mədəni və siyasi rolunu göstərməkdir. İkincisi, Sasani İranının gürcü məkanında çox yaxın münasibəti və təsiri olan bir dövlət olmasıdır. Paraqrafı öyrəndikdə, diqqəti Sasani İranının dini və onun özünəməxsus xarakteri və xüsusiyyətlərinə yönəltmək məqsədəuyğundur. Ümumiyyətlə, zərdüştiliyin xristianlıqla qarşıdurması və onun İran cəmiyyətinə və siyasi həyatına təsirini. Bizans və Sasanilərin əsrlər boyu bir-biri ilə mübarizə apardıqları coğrafi məkana və onun xüsusiyyətlərinə diqqət yetirmək vacibdir.
Coğrafi ərazini və onun geostrateji əhəmiyyətini müəyyən etmək lazımdır. İranın mədəni və iqtisadi inkişafını nə müəyyənləşdirirdi və burada coğrafi mövqe amilinin rolu nədən ibarət idi. Sasani dövlətinin və cəmiyyətinin xüsusiyyətlərindən, Sasani İranının dini siyasəti və onun gürcü dünyasına təsirindən da bəhs etmək məqsədəuyğundur.
Nəticələri təqdim edirik. Göstərilən paraqrafı öyrəndikdən sonra, nəticələrin əldə edilmiş hesab edilməsi üçün şagirdin **əsas təsəvvürlər** şəklində növbəti biliyi olmalıdır:

- III-VII əsrlərdə Sasani İranı Şərq dünyasının əsas siyasi və mədəni gücünü təqdim edirdi. *(vaxt)*
- Coğrafi mövqeyi, onun ərazisində əvvəlki dövrlərdə bir çox sivil dövlət və cəmiyyətlərin mövcud olması amilləri. Eləcə də Şərqlə Qərb arasında ticarət yolları onun üzərindən keçərək onu iqtisadi və mədəni cəhətdən güclü dövlətə çevirirdi. *(məkan)*
- Sasani İranının dini, monoteist inancı zərdüştilik idi, ibadət obyekti günəş və od idi. *(cəmiyyət)*
- Sasani İranı cəmiyyəti 4 əsas təbəqəyə bölünmüşdü ki, onların sosial fərqi fəaliyyətlərinin bölgüsü ilə müəyyən edilirdi. *(cəmiyyət)*
- Sasani İranı əsrlər boyu hökmranlıq uğrunda əvvəlcə Roma İmperiyası, daha sonra Bizans, Suriya və Mesopotamiya, eləcə də Qafqaz regionu ilə qarşılaşırdı. *(məkan; tarixi hadisə)*

**Paraqraf §46. Sasani İranı və Bizans İmperiyası niyə bir-birinə qarşı çıxırdı?**

Qeyd olunan paraqrafın üzərində işləyərkən öncəki paraqraflarda öyrənilən materialı yada salmaq və əvvəlki bilikləri aktivləşdirmək çox vacibdir. Bizans İmperiyasının və Sasani İranının xüsusiyyətlərini ayırmaq üçün, müqayisə kimi iki sütunlu formatda göstərmək lazımdır. Dövlətlərin idarəetmə tərzi, sosial təbəqələri, dini və ideologiyası və ən əsası, ümumi maraq dairəsi. Müqayisədən sonra bu iki qüvvə arasında çoxəsrlik demək olar ki, daimi qarşıdurmaya səbəb olan cəhət vurğulanmalıdır. Bizans İmperiyası ilə Sasani İranı - Suriya, Mesopotamiya və Qafqaz arasında davam edən müharibələrin mərkəzi və döyüş meydanı olmuş coğrafi məkanın xüsusiyyətlərinə xüsusi diqqət yetirmək məqsədəuyğundur. Şagirdlərdən bu coğrafi məkanın siyasi cəhətdən nə üçün dominant olan bu iki dövlət üçün vacib olduğunu müzakirə etmələrini xahiş edin.
Bu münaqişənin Bizans və İran cəmiyyətinə və siyasi həyatına və münaqişənin mərkəzində yaşayan icmalara necə təsir etdiyini təfərrüatları ilə izah etmək lazımdır. Onların münaqişəsinin fəal mərkəzlərindən birinin gürcü məkanı olması və münaqişənin nəticəsinin İberiya və Eqrisi cəmiyyətinin inkişafına böyük təsir göstərməsinin təfərrüatlarını vurğulamaq xüsusilə vacibdir.
Nəticələri təklif edirik. Göstərilən paraqrafı öyrəndikdən sonra, nəticələrin əldə edilmiş hesab edilməsi üçün şagirdin **əsas təsəvvürlər** şəklində növbəti biliyi olmalıdır:

- III-VII əsrlərdə Bizans İmperiyası ilə Sasanilər İranı Suriya-Mesopotamiya və Qafqaz regionu üzərində siyasi nüfuz əldə etmək üçün demək olar ki, davamlı olaraq bir-biri ilə mübarizə aparırdılar. *(zaman; məkan)*
- VI əsrdə xüsusilə fəal hərbi münaqişələr Yustinian və I Xosrov Ənuşirəvanın hakimiyyəti dövrü ilə bağlıdır. *(zaman, tarixi hadisə)*
- Bizansla Sasanilər arasında mübahisə sahəsi Suriya və Fələstinin, eləcə də Qafqazın mədəni və iqtisadi cəhətdən zəngin bölgəsi idi, çünki Şərqdəki bütün dominant dövlətlər üçün Qafqazın keçidlərinə nəzarət etmək və bu yolla ticarət yollarının və ərazilərinin təhlükəsizliyini təmin etmək vacib idi. *(məkan; tarixi hadisə)*

**Paraqraf §47-48. Böyük I Yustinian dövründən sonra siyasi vəziyyət necə olur?**

Qeyd edilən paraqrafın anlaşılması və üzərində işlənməsi prosesində öncəki bilikləri aktivləşdirmək vacibdir. Yustinian dövrünü xarakterizə etdikdən və ümumiyyətlə, dövrün xüsusiyyətlərini nəzərdən keçirdikdən sonra, Bizans İmperiyasının üzləşdiyi problemlərin ümumi konturlarını çəkmək lazımdır. Qeyd olunan paraqrafda 2 əsas aspektə diqqət yetirmək lazımdır. Birincisi, imperiyanın üzləşdiyi xarici siyasi problemlərə, aktiv coğrafi məkanlara və kəskinlik dərəcəsinə. Eləcə də İmperator Mavrikiy dövründə imperiyanın dəyişməsinə.
Yustinian hakimiyyəti dövründə Bizans imperiyasının hansı növ siyasi təhlükələrlə üzləşdiyini və imperiyanın xarici və daxili siyasi vəziyyətinin necə köklü şəkildə dəyişdiyini vurğulamaq məqsədəuyğundur. İmperiyanın iqtisadi zəifliyinin və avarların və slavyanların Balkan məkanında imperiyanın əyalətlərinə davamlı basqınlarının səbəbi nə idi.
İmperiyanın nə üçün belə tez zəifləməsi ilə bağlı əsas sualı müzakirə etmək lazımdır. Balkan məkanından sonra, Yustiniandan sonra Sasanilərlə qarşıdurmanın necə baş verdiyini müzakirə etmək lazımdır.
Paraqrafı öyrənən zamanı əsas diqqət imperator Mavrikiy dövründə imperiyada həyata keçirilən dəyişikliklərə yönəldilməlidir. İmperator ideyası və yanaşması, Bizans İmperiyası necə dəyişdi. Mavrikiy və Yustinian arasında müqayisəli analizdən istifadə etmək də olar. Mavrikinin iranlılara və avarlara qarşı necə uğurlu siyasət yeritməsinin təfərrüatlarına vaxt ayırmaq məqsədəuyğun olardı. Nəticələri təklif edirik. Göstərilən paraqrafı öyrəndikdən sonra, nəticələrin əldə edilmiş hesab edilməsi üçün şagirdin **əsas təsəvvürlər** şəklində növbəti biliyi olmalıdır:

- Yustinian hakimiyyətindən sonra Bizans İmperiyası çətin iqtisadi və siyasi problemlərlə üzləşir. *(vaxt)*
- Yustinianın varisləri dövründə əsas xarici siyasi istiqamət Balkan məkanı olur ki, burada imperiyanın əyalətləri avarlar və slavyanlar tərəfindən hücuma məruz qalır, eləcə də şərqdə Suriya və Mesopotamiya, Sasanilərin ənənəvi fəallıq göstərdiyi yerlərdir. *(məkan; tarixi hadisə)*
- İmperator Mavrikiy dövrü avarlar və sasanilərin yaratdığı problemlərin həlli və imperiyanın dəyişməsi ilə xarakterizə olunur. *(vaxt)*
- VI-VII əsrlərin əvvəllərində Bizans İmperiyasında dil və mədəniyyət baxımından, Roma-Latın dilindən daha çox yunan dili istifadə olunurdu və bu, cəmiyyətin bütün təbəqələrinə təsir edirdi. *(tarixi hadisə; cəmiyyət)*
- Mavrikiy Sasani şahzadəsi Xosrova İran taxtını ələ keçirməyə kömək edir, beləliklə də, İranla problemlər müvəqqəti olaraq həll olunur, Mavrikiy öldürüldükdən sonra İran şahı Mavrikinin oğlu Feodosini taxta çıxarmaq istədiyini bildirir və bu səbəbdən Bizans İmperiyası ilə müharibəyə başlayır. *(tarixi hadisə; hakimiyyət)*
- Mavrikiy dövründə Roma İmperiyasının antik forması sona çatır və orta əsr Yunan İmperiyası yaranır. *(zaman, tarixi hadisə)*

**Paraqraf §49. Nə üçün Herakl Sezar Sasani İranı ilə döyüşürdü?**

Qeyd olunan paraqraf əvvəlki paraqrafın nəzəri və xronoloji davamını təqdim edir, buna görə də əvvəlki bilikləri aktivləşdirmək və Herakl Sezarın imperiya taxtını hansı şəraitdə tutduğunu yada salmaq lazımdır. Bir neçə aspekti, ilk növbədə, Sasani İranı tərəfindən şərq əyalətlərinin hərbi işğalı və Yerusəlimin alınmasının Bizans cəmiyyəti üçün əhəmiyyətini qeyd etmək vacibdir. O dövrün cəmiyyətinin inanclarını və dünyagörüşünü yaxşı ifadə etmək üçün Şagird kitabında Bizansda yaranan siyasi və iqtisadi problemlərin ilkin şərtlərini təqdim edən və səbəbləri haqqında məlumat verən mənbə hissələrinə diqqət yetirmək lazımdır.

Mühüm detallardan biri Konstantinopolun sasanilər və avarlar tərəfindən mühasirəyə alınması və onun müqavimət vasitələri və əhəmiyyətidir. O dövrdə Herakl fiqurunun nə qədər əhəmiyyətli olduğunu və vəziyyəti necə dəyişdirə bildiyini müzakirə edin. Heraklın Qafqaza yürüşünə və Tbilisiyə hücumuna, Qafqaz regionunun Bizans üçün əhəmiyyətinə və gürcü dünyasının mövqeyinə xüsusi diqqət yetirməliyik.

Müharibədən və barışıqdan sonra Heraklın Şərqdə çəkdiyi siyasi konturları yaxşı ayırmaq məqsədəuyğundur. Çünki bu detalla ərəblərin Şərqdə hansı şəraitdə meydana çıxdığını vurğulamaq lazımdır.

Nəticələri təklif edirik. Göstərilən paraqrafı öyrəndikdən sonra, nəticələrin əldə edilmiş hesab edilməsi üçün şagirdin **əsas təsəvvürlər** şəklində növbəti biliyi olmalıdır:

- VII əsrin əvvəllərində imperiya hökumətində məcburi dəyişikliklər siyasi iğtişaşlara səbəb oldu, buna şərqdən Sasanilərin hücumu əlavə edildi, bundan sonra imperiya fəlakətlə üzləşdi və məhz bu zaman Herakl Sezar taxta çıxır. *(zaman, tarixi hadisə)*
- VII əsrin 20-ci illərində Konstantinopol Sasanilər və onların müttəfiqləri olan avarlar və slavyanlar tərəfindən hücuma məruz qalır, lakin şəhər müqavimət göstərir və imperiya əks hücuma keçir. *(tarixi hadisə; vaxt)*
- İran-Bizans qarşıdurmasının fəal mərhələlərindən biri Qafqazda, xüsusilə də Xəzər dövlətinin Bizans tərəfində döyüşdüyü Kartlidə baş verir. *(məkan; tarixi hadisə)*
- VII əsrin 30-cu illərində Yaxın Şərqdə ərəblərin timsalında yeni bir qüdrətli qüvvə meydana çıxır, uzun sürən müharibədən zəifləmiş Bizans və Sasani İranı yeni düşmənlə qarşılaşır. *(zaman, məkan; tarixi hadisə)*

**Paraqraf §50. İslam ərəb cəmiyyətini necə dəyişdi?**

Qeyd olunan paraqraf bir neçə aspekti vurğulamaqla təhlil edilməlidir. Burada, ilk növbədə, monoteist dinin, İslam dininin xüsusiyyətləri diqqətlə nəzərdən keçirilməlidir. O, nəyi təbliğ edir və İslam ərəb xalqlarının dünyagörüşünü və həyat tərzini necə dəyişib. İslamdan əvvəl ərəb cəmiyyətinin xüsusiyyətlərini və İslamdan sonra necə dəyişdiyini qeyd etmək vacibdir.

Ərəbistan yarımadasının coğrafi xüsusiyyətlərini müzakirə etmək və ayırmaq, eləcə də coğrafi mühitin cəmiyyətin inkişafına necə təsir etdiyi məsələsini vurğulamaq çox vacibdir. Məhəmmədin şəxsiyyətini və İslamın yeni bir din kimi xüsusiyyətlərini ətraflı müzakirə etmək də lazımdır. İslam və xristianlıq arasındakı oxşarlıqlar və fərqlər ayrılmalıdır. Şagird kitabının mənbə parçalarında verilən məlumatlara əsaslanaraq, İslam dininin dünyagörüşü hansı dəyərlər sisteminə əsaslanırdı.

İslam dininin uğuruna nəyin səbəb olduğunu, müsəlmanların qeyri-müsəlman cəmiyyətlərə münasibəti məsələsinin nə qədər vacib olduğunu təfərrüatları ilə müzakirə etmək lazımdır. İslamın yaranması və ərəb istilaları dinin və ümumilikdə tarixin sonrakı inkişafını necə dəyişir. Ərəb cəmiyyəti necə bölünmüşdü və təbəqələrin fərqləndirilməsi hansı amillərə əsaslanırdı.

Nəticələri təklif edirik. Göstərilən paraqrafı öyrəndikdən sonra, nəticələrin əldə edilmiş hesab edilməsi üçün şagirdin **əsas təsəvvürlər** şəklində növbəti biliyi olmalıdır:

- İslamın yaranmasından öncə ərəblər yığıcı təsərrüfatla məşğul olan köçəri tayfalar idilər və daimi yaşayış əraziləri yox idi. *(zaman; cəmiyyət)*
- Coğrafi mövqeyindən irəli gələrək, Ərəbistan yarımadasından zəngin ticarət yolları keçirdi ki, bu da yerli tayfaların ticarət fəaliyyətinə cəlb olunmasına və qonşu xalqlarla əlaqələrin artmasına səbəb olurdu. *(məkan; cəmiyyət)*
- İslam dininin formalaşması və təbliği Məkkə şəhərində yaşayan tacir Məhəmmədin adı ilə bağlıdır. *(tarixi hadisə)*
- Məhəmmədə görə dünya yəhudilərin və xristianların sitayiş etdiyi tək Allah tərəfindən yaradılmışdır və o, Allahın kəlamını təbliğ edir və onun elçisi idi. *(tarixi hadisə)*
- İslam cəmiyyətinin dünyagörüşünü İslam dini müəyyən edirdi və onun mənbəyi Qurani-Kərim idi. *(cəmiyyət)*

**Paraqraf §51-52. Ərəblər nə üçün işğalçı müharibələrə başlamışdılar?**

Qeyd olunan paraqraf üzərində işləyərkən öncəki bilikləri aktivləşdirmək çox vacibdir, çünki ərəb işğallarını təhlil etməzdən öncə, Suriyanın Mesopotamiya bölgəsində ərəblərin meydana çıxmasından əvvəl baş vermiş siyasi vəziyyəti və tarazlığı, Bizans və Sasani İranında vəziyyəti yada salmaq lazımdır. Eləcə də islamın xüsusiyyətlərini və yeni dinin ərəb istilalarına təsirini şagirdlərə xatırlatmaq yaxşı olardı.

Dərs fəallıqlarında ərəb istilalarının səbəbləri ilə yanaşı, onların uğurunu şərtləndirən amillərə də əsas diqqət yetirilməlidir. İslamın ərəb cəmiyyətini necə dəyişdirdiyinə və onların fəthlərinin səbəblərinə diqqət yetirmək məqsədəuyğundur. Birləşmiş ərəb tayfalarına yeni ərazilər əldə etmələrinin nə üçün lazım olduğunu coğrafi və iqlim amillərini vurğulamaq vacibdir. Ərəb fəthlərində İslamın rolunu göstərmək vacibdir.

Dərs prosesində fəallığı təşkil etmək lazımdır ki, bu fəallıq çərçivəsində ərəb istilalarının uğur qazanmasına və İslamın sürətlə yayılmasına səbəb olan əsas məqamlar müzakirə edilib, sadalanmalıdır. Bizansın şərq vilayətlərini (Suriya, Fələstin, Misir) fəth etməyin və qoruyub saxlamağın ərəblər üçün daha asan olduğunun səbəblərini göstərmək lazımdır. Eləcə də nə üçün güclü Sasani İranı ərəb istilalarının öhdəsindən gələ bilmədiyini. Sual vermək lazımdır - ərəb istilaları dünyanın gələcək inkişafını necə dəyişdi?

Nəticələri təklif edirik. Göstərilən paraqrafı öyrəndikdən sonra, nəticələrin əldə edilmiş hesab edilməsi üçün şagirdin **əsas təsəvvürlər** şəklində növbəti biliyi olmalıdır:

- Məhəmmədin ölümündən sonra "Dörd saleh xəlifə" dövründə üç qitənin, Asiya, Avropa və Afrikanın ərazilərini əhatə edən ərəb istilaları başlayır. *(məkan; tarixi hadisə)*
- Ərəblərin İslamın və xəlifənin hökmranlığı ətrafında birləşməsindən sonra, bir tərəfdən, islamı yaymaq fikri, digər tərəfdən isə, iqtisadi ehtiyaclar yeni torpaqları fəth etmək zərurətini yaradır. *(tarixi hadisə)*
- VII əsrin 30-cu illərində ərəblər Sasani İranını darmadağın edərək, Bizans imperiyasının şərq əyalətlərini, Misir, Suriya və Fələstini fəth edirlər. *(məkan; zaman)*
- Əvvəlcə ərəblər fəth edilmiş xalqlara qarşı nisbətən tolerant siyasət yeridirdilər və bu da, onların uğur qazanmasına səbəb olurdu. *(cəmiyyət)*
- Ərəb xilafətini əvvəlcə 4 saleh xəlifə idarə edirdi, sonra hakimiyyəti Dəməşqin Əməvi xəlifələri ələ keçirir, onları isə Bağdad Abbasi xəlifələri əvəz edir. *(hakimiyyət; tarixi hadisə)*

**Paraqraf §53. İslam sivilizasiyası nədir?**

Bu paraqraf əvvəlki iki paraqrafın tematik tamamlanmasını və onun davamını əks etdirir. Məsələnin əhəmiyyətindən asılı olaraq, şagirdlərin diqqətini bir neçə aspektə yönəltmək lazımdır. Ümumiyyətlə, ərəb və islam sivilizasiyası, geniş spektrdə üzərində işlənəcək bir məsələdir. İlk növbədə, İslamın və buna uyğun olaraq ərəb cəmiyyətinin təhsilə münasibətinin hansı şəraitdə olduğuna diqqət yetirməli və İslam dünyasında xüsusilə inkişaf etmiş elm sahələrini vurğulamalıyıq.
Ərəb mədəniyyətinin və İslam sivilizasiyasının inkişafına səbəb olan şəraitə xüsusi diqqət yetirmək lazımdır. Bir tərəfdən müzakirə edək ki, ərəblər fəth edilmiş ərazidə yaşayan cəmiyyətlərdən, İrandan, Fələstindən, Misirdən və s. hansı irsi alıb qəbul edirlər. Eləcə də ərəb mədəniyyəti qəbul edilən irsdən hansı yeni xüsusiyyətləri qazanır və onu hansı xüsusi cəhətlər fərqləndirir. Şagirdlərdən ərəb dünyasının aşağıdakı cəmiyyətlərə və müasir cəmiyyətə mirasını müzakirə etmələrini xahiş edin. Nəticələri təklif edirik. Göstərilən paraqrafı öyrəndikdən sonra, nəticələrin əldə edilmiş hesab edilməsi üçün şagirdin **əsas təsəvvürlər** şəklində növbəti biliyi olmalıdır:

- Ərəb fəthlərindən sonra ərəb dili, İslam dini və ərəb mədəni xüsusiyyətləri Şimali Afrika, Yaxın Şərq və İspaniyada bərqərar olur. Qeyd olunan amillər Vahid Xilafətin siyasi süqutundan sonra da bu məkana təsirini itirməmişdir. *(cəmiyyət; məkan)*
- Məhəmmədin təliminə görə, müsəlmanın ən mühüm vəzifəsi elmə yiyələnməkdir, bu amil ərəblərin müxtəlif xalqların nailiyyətlərini tanıyıb mənimsəməsinə kömək etmişdir. *(cəmiyyət; tarixi hadisə)*
- Ərəblər İran, Yunanıstan və Latın mədəniyyətləri ilə tanışlıq nəticəsində İslama uyğunlaşdırılmış mədəniyyətlər yaratmış, əldə etdikləri bilikləri yeni zirvəyə qaldırmışlar. *(tarixi hadisə)*
- Ərəb cəmiyyətində tibb, astronomiya və riyaziyyat kimi elm sahələri xüsusilə inkişaf etmişdi. *(cəmiyyət)*
- Ərəb dili, İslam dini və ərəb mədəniyyəti bu gün də Yaxın Şərq və Şimali Afrikanı, eləcə də dünyada yaşayan bir çox xalqların və ölkələrin siyasi və dini həyatını müəyyən edir. *(zaman; məkan)*
- Ərəb dünyasının mədəni və siyasi mərkəzi şəhərləri idi: Məkkə, Mədinə, Dəməşq, Bağdad, Qahirə, Kordova. Tbilisi də ərəb dünyasında mühüm yer tuturdu. *(məkan)*

**Paraqraf §54-55. VIII-IX əsrlərdə Bizans imperiyasının problemləri nədən ibarət idi?**

Qeyd olunan paraqrafda vurğulanan tarixi məsələlər iki əsas istiqamətdə əhəmiyyət kəsb edir. Bir tərəfdən siyasi, digər tərəfdən də dini prosesləri təsvir etmək və anlamaq baxımından. Paraqrafda Bizans İmperiyasında İsavrilər sülaləsi dövrü ilə bağlı gedən proseslər haqqında məlumat verilir. Bu dəfə də əvvəlki bilikləri aktivləşdirmək və VII əsrin ikinci yarısında ərəb istilaları nəticəsində Bizans imperiyasının sərhədlərinin və siyasi mövqelərinin necə dəyişdiyini şagirdlərə xatırlatmaq məqsədəuyğun və vacibdir.
Ərəblərin meydana çıxmasından sonra Bizansın itirdiyi əraziləri və şərq əyalətlərinin imperiyanın siyasi və dini dairələri üçün hansı iqtisadi və dini əhəmiyyətə malik olduğunu müəyyən etmək lazımdır. Xarici siyasi problemlərin bir neçə istiqamətini müəyyən etmək məqsədəuyğundur.
Ərəb yürüşlərinin əhəmiyyətini və İsavrilər imperatorlarının Konstantinopolu ərəb təhdidindən necə qoruya bildiklərinin şərtlərini nəzərə almaq lazımdır. Ərəblərin Konstantinopolu ələ keçirməməsinin Bizans İmperiyası və ümumiyyətlə xristian dünyası üçün əhəmiyyətini də müzakirə edin.
İkonomaxiya (ikonalara qarşı mübarizə) kimi tanınan fenomenə xüsusi diqqət yetirilməlidir.
Dərs prosesində ikonomaxiyanın başlanmasının nəzəri və praktiki səbəblərini sxem şəklində təqdim etməliyik. Bu dini islahata başlayan imperatorların arqumentləri nə idi və bunun arxasında hansı motivlər dayanırdı. Bu hadisənin mahiyyətinin aspektini və yalnız dini sahə ilə məhdudlaşıb-məhdudlaşmadığını nəzərə almaq lazımdır. Şagirdləri məsələni müzakirə etməyə dəvət edin - ikonaları qadağan etmək və monastır həyatını gözdən salmaqdan imperiya hakimiyyəti hansı siyasi faydalar əldə edə bilərdi.
Nəticələri təklif edirik. Göstərilən paraqrafı öyrəndikdən sonra, nəticələrin əldə edilmiş hesab edilməsi üçün şagirdin **əsas təsəvvürlər** şəklində növbəti biliyi olmalıdır:

- VIII-IX əsrlərdə Bizansda İsavrilər sülaləsinin nümayəndələri hökmranlıq etmiş və bu dövr böyük siyasi və dini hadisələrlə xarakterizə edilirdi. *(zaman, tarixi hadisə)*
- İsavrilər sülaləsi ərəblərə qarşı uğurlu müharibələrlə və ikinomaxiya kimi tanınan dini islahatlarla əlaqələndirilir. *(zaman, tarixi hadisə)*
- İsavri imperatorları ikonaların qeyri-xristian olduğunu, bütpərəstliyin qalığı olduğunu elan edərək, onların kilsələrdən çıxarılmasını əmr edirlər ki, bu da həm xristian dünyasında, həm də imperiya daxilində böyük narazılıqlara səbəb olur. *(tarixi hadisə; cəmiyyət)*
- İkonalara qarşı mübarizənin dini ilə yanaşı, siyasi və iqtisadi motivləri də var idi. Kilsə əmlakı və ianələr dövlət xəzinəsinə daxil olacaq və kilsə iqtisadi cəhətdən zəifləyəcək və imperiya hökumətindən daha çox asılı olacaqdı. *(cəmiyyət; tarixi hadisə)*
- İsavrilərin siyasi fəaliyyəti uğurlu alınır, ərəb təhlükəsini zərərsizləşdirirlər, eləcə də Kiçik Asiya və Balkanlarda mövqelərini möhkəmləndirirlər. Onların dini siyasəti Bizans cəmiyyətini iki yerə bölərək, Qərbi Xristian dünyasına qarşı qoyur. *(zaman; məkan; cəmiyyət)*

**Paraqraf § 56-57. Nə üçün Makedonlar sülaləsinin hakimiyyəti Bizansın yüksəlişi və qüdrət dövrü hesab olunur?**

Qeyd olunan paraqrafda kifayət qədər geniş xronoloji dövrün tarixi hadisələrinin təsviri və səciyyələndirilməsi yer alır. Makedonlar sülaləsinin hakimiyyəti dövrü bir neçə nöqteyi-nəzərdən önəmlidir. Makedonların dövründə imperatorun seçilməsi metodunun və imperiya hakimiyyətinin ötürülməsinin necə dəyişdiyinə, həmçinin siyasi mirasın sülalə qaydası ilə ötürülməsinin Bizans İmperiyasına nə gətirdiyinə xüsusi diqqət yetirmək lazımdır.

Bir neçə aspekti gündəmə gətirmək vacibdir, Makedonlar dövründə siyasi və iqtisadi sabitliyin bərqərar olmasına nəyin səbəb olduğu və Ərəb xilafətində münaqişənin əhəmiyyətinin nədən ibarət olduğu və xarici siyasi amillərin müzakirəsi məqsədəuyğundur. İmperator I Vasilinin şəxsiyyətini müzakirə etmək və qiymətləndirmək, həmçinin onun siyasətini Yustinianın xarici və daxili siyasi kursu ilə müqayisə etmək vacibdir.

II Vasilinin hakimiyyəti və onun xarici və daxili siyasi kursu, Bolqarıstan dövləti ilə qarşıdurması xüsusi vurğulanmalıdır. Gürcü amillərini müzakirə etmək lazımdır. Xüsusilə III Davitin Vasilinin imperatoru edilməsində və imperiya hakimiyyətinin saxlanmasında rolunu. Bundan əlavə, Bizans İmperiyası ilə Gürcüstan dövləti arasında qarşıdurmanın baş verdiyi coğrafi ərazini vurğulamaq məqsədəuyğundur.

Nəticələri təklif edirik. Göstərilən paraqrafı öyrəndikdən sonra, nəticələrin əldə edilmiş hesab edilməsi üçün şagirdin **əsas təsəvvürlər** şəklində növbəti biliyi olmalıdır:

- Makedonlar sülaləsi IX-XI əsrlərdə Bizans İmperiyasını idarə edirdi, bu dövr siyasi və iqtisadi sabitlik ilə xarakterizə olunur. *(vaxt)*
- Makedonlar sülaləsinin imperatorları imperator mövqeyini irsi etdilər, hakimiyyət atadan oğula keçirdi, bu da siyasi vəziyyəti daha da sabitləşdirdi və imperatorun hakimiyyətini gücləndirdi. *(hakimiyyət)*
- Makedonlar sülaləsinin hakimiyyəti dövründə Bizans imperiyasının məqsədi İtaliyanın cənubunda və Aralıq dənizinin şərqində itirilmiş mövqelərini hərbi yolla bərpa etmək idi. *(məkan; tarixi hadisə)*
- Sülalənin nümayəndəsi imperator VII Konstantin Porfirogenet o dövrün dünya xalqlarını və onların tarixini təsvir edən, eləcə də gələcək imperatorların kiminlə necə siyasət aparacağına dair məsləhət və tövsiyələri özündə əks etdirən “İmperatorluğun idarə edilməsi haqqında” əsərini yaratmışdır. *(mənbə)*
- Makedonlar sülaləsinin nümayəndəsi II Vasilinin hakimiyyəti dövrü bolqarlara və gürcülərə qarşı müharibələrlə xarakterizə olunur. *(məkan; tarixi hadisə)*

**Paraqraf §58-59-60 Böyük Karl Frank İmperiyasını necə yaratdı?**

Qeyd olunan paraqrafın həcmi böyükdür və onda təqdim olunan hər bir detal çox mühümdür, ona görə də müəllimin dərs zamanı heç bir alt mövzunu nəzərdən qaçırmaması, hər bir mənbədə və ya haşiyədə verilən məlumatlara diqqətlə yanaşması tövsiyə olunur. Birinci mərhələdə Frank krallığının nə olduğunu və hansı vasitələrlə Qərbin ən qüdrətli dövlətinə çevrildiyini xatırlatmaqla, əvvəlki biliklər aktivləşdirilməlidir. Feodalizmin iqtisadi və siyasi sistem kimi formalaşması üçün zəruri şərait göstərilməli və onun nə üçün formalaşması məsələsi ətrafında müzakirə aparılmalıdır. Nə üçün feodalizm birinci Frank krallığında formalaşmış və bu prosesə hansı amilləri təsir etmişdi. Diqqət yetirilməli olan növbəti ən mühüm məsələ Karl Martel və Gödək Pippinin dövründəki mühüm proseslərin müzakirəsidir.
Məsələn, Frank monarxiyasında mərkəzləşmə baxımından hansı növdə problemlər var idi və Karl Martel onları necə həll edə bildi. Həmçinin 732-ci ildə Puatye döyüşünün və Frank Krallığı və ümumilikdə xristian dünyası üçün ərəblərin məğlubiyyətinin əhəmiyyəti. Pippin hissəsində onunla Papa arasındakı əlaqələri və motivasiyaları müzakirə etmək lazımdır. Pippinin artıq əlində olan hakimiyyəti rəsmiləşdirmək üçün Papanın dəstəyinə niyə ehtiyac duyduğunu vurğulamaq vacibdir. Böyük Karlı öyrənərkən hər bir detal vacibdir, konkret olaraq üç əsas istiqamətə diqqət yetirilməlidir, onun xarici siyasətinin və müharibələrinin istiqamətinə və xarakterinin müəyyənləşdirməsinə və müzakirəsinə. Onun mədəni və maarif siyasəti və nəhayət, imperator kimi tacqoyması və bu aktın siyasi və ideoloji əhəmiyyəti və nəticələri müzakirə olunmalıdır. Böyük Karl və Frank İmperiyasının Avropanın gələcək inkişafında hansı rola malik olması və birləşmiş Frank İmperiyasının özəyindən hansı dövlətlərin yaranması ilə bağlı müzakirələrin aparılması məqsədəuyğundur.
Nəticələri təklif edirik. Göstərilən paraqrafı öyrəndikdən sonra, nəticələrin əldə edilmiş hesab edilməsi üçün şagirdin **əsas təsəvvürlər** şəklində növbəti biliyi olmalıdır:

- Romanın süqutundan sonra Avropada mövcud nizam pozuldu və bu da siyasi və iqtisadi, eləcə də mədəni geriliyə səbəb oldu. Yeni nizam Karolinqlər dövründə franklar tərəfindən yaradılır. *(zaman; tarixi hadisə; məkan)*
- V-IX əsrlərdə Frank krallığı/imperiyası Avropa qitəsində siyasi və mədəni cəhətdən inkişaf etmiş dövləti təqdim edirdi. *(zaman; məkan)*
- Avropa dünyasına xas olan siyasi və iqtisadi forma olan feodalizm Franklar Krallığında formalaşıb inkişaf etmişdi. *(cəmiyyət; tarixi hadisə)*
- VIII əsrdə Frank krallığında nüfuzlu saray əyanları majordomlar olur və kralın hakimiyyəti zəifləyir. Seçilmiş majordomlardan biri olan Karl Martelin adı ilə feodal islahatı və benefisin tətbiqi, ağır zirehli ordunun yaradılması və ərəblərin məğlubiyyəti bağlıdır. *(zaman, tarixi hadisə)*
- 750-ci ildə majordom Gödək Pippin Papadan razılıq və legitimasiya alır, bundan sonra özünü kral elan edir və bununla da Karolinqlər sülaləsinin əsasını qoyur. *(zaman, tarixi hadisə)*
- Frank imperiyasının siyasi və mədəni inkişafının zirvəsi Böyük Karlın 768-814-cü illərdə hakimiyyəti ilə bağlıdır. *(vaxt)*

- Böyük Karl dövründə franklar avarlara, saksonlara, lanqobardlara və ispan ərəblərinə qarşı işğalçılıq müharibələri aparırdılar, bu müharibələr əsasən dini motivlərlə müəyyən edilirdi. *(məkan; tarixi hadisə)*
- 800-cü ilin dekabrın 25-də, Romada, Roma Papası tərəfindən Böyük Karlın imperator tacqoyma mərasimi keçirilir. Böyük Karl bu titulu qəbul etməklə özünü xristian aləmində ali siyasi hökmdar elan edir və bu da Bizans imperatorlarının böyük etirazı ilə qarşılanır. *(hakimiyyət; tarixi hadisə)*
- 843-cü ildə Verden müqaviləsi nəticəsində Frank imperiyası Karlın varisləri arasında üç yerə bölünür və bununla da üç Avropa dövləti yaranır; Fransa, Almaniya, İtaliya. *(tarixi hadisə; məkan)*

**Paraqraf §61-62-63 Orta əsrlər cəmiyyəti necə idi?**

Qeyd olunan paraqrafda təqdim olunan hər bir məsələni anlamaq və təhlil etmək çox vacibdir. Bu dəfə də əvvəlki bilikləri aktivləşdirmək və sonra onun üzərində yeni material qurmaq böyük əhəmiyyət kəsb edəcək. Şagirdlərə Roma İmperiyasının son əsrlərində cəmiyyətlərin hansı xüsusiyyətlərə malik olduğunu və Romanın süqutundan sonra cəmiyyətin necə dəyişdiyini xatırlatmaq məqsədəuyğundur. Orta əsrlər Avropa cəmiyyətinin xüsusiyyətlərini başa düşmək üçün feodal quruluşunun xüsusiyyətlərini müəyyən etmək vacibdir, çünki feodalizm sistemi Orta əsr cəmiyyətinin bütün sahələrini əhatə edirdi. Feodal quruluşunun yaradılması zərurətinin nədən ibarət olduğunu müəyyən etmək lazımdır. Feodalizmin cəmiyyətin həyatının hansı sahələrini birləşdirdiyini sxemlər şəklində müəyyən etmək məqsədəuyğundur. Hərbi, inzibati və dini sistemlər baxımından hansı rola malik idi və feodal münasibətləri və quruluşu iqtisadiyyatın hansı formasına əsaslanırdı?
Hər bir sosial təbəqənin feodal quruluşunda hansı funksiyalara malik olduğunu və fəaliyyət sahələrinin necə bölündüyünü, habelə hər bir təbəqənin iqtisadi və siyasi imtiyazını nəyin müəyyən etdiyini müəyyən etmək məqsədəuyğundur. Siyasi liderin ictimai funksiyasını, eləcə də legitimləşdirmə vasitələrini vurğulamaq lazımdır. Eləcə də cəmiyyətin ayrı-ayrı qruplarının fəaliyyətini və onların gündəlik həyatını təsvir etmək lazımdır.
Nəticələri təklif edirik. Göstərilən paraqrafı öyrəndikdən sonra, nəticələrin əldə edilmiş hesab edilməsi üçün şagirdin **əsas təsəvvürlər** şəklində növbəti biliyi olmalıdır:

- Roma imperiyasının süqutundan sonra Avropa dünyasında mərkəzi hökumət və iqtisadi və siyasi-inzibati sistem ləğv edildi. Krallığın iqtisadi, hərbi və siyasi ehtiyaclarını qarşılayacaq yeni sistem feodalizm kimi tanınır. *(zaman, tarixi hadisə)*
- Feodalizm torpaq mülkiyyətinə əsaslanan bir sistem idi, torpaqlar hərbi qulluqçulara verilirdi və aqrar, istehsalçı iqtisadiyyat və vergi sisteminə əsaslanırdı. *(cəmiyyət; tarixi hadisə)*
- Feodal quruluşu and və şərti asılılıq üzərində qurulmuşdu və bu anda isə kilsə tərəfindən legitimlik verilirdi. *(hakimiyyət)*

- Feodal cəmiyyəti təbəqələrə bölünürdü, təbəqələr isə ictimai fəaliyyətlərinə, kimin idarə etdiyinə, kimin dua etdiyinə, kimin döyüşdüyünə və kimin işləməsinə görə bölünürdü. *(cəmiyyət)*
- Feodal münasibətləri təbəqələrin qarşılıqlı ehtiyacı prinsipi əsasında qurulmuşdu, kəndlilər feodallara işləyir, feodallar isə onları müdafiə edir və torpaqlar verirdilər. *(cəmiyyət)*
- Dini inanclar orta əsrlər cəmiyyətinin təfəkkürünü və həyat tərzini müəyyən edirdi. *(cəmiyyət)*
- Cəngavərlər orta əsrlərdə Avropa cəmiyyətinin mühüm təbəqəsini təqdim edirdilər. Onların fərqli həyat tərzi və dəyərlər sistemi var idi. *(cəmiyyət)*

**Paraqraf §64-65. Normanlar nə üçün işğalçı müharibələrə başlayırlar?**

Sözügedən paraqraf bir çox nöqteyi-nəzərdən, ilk növbədə, şagirdlərin marağı baxımından əhəmiyyətlidir, çünki normanlarla bağlı bir çox məsələlər şagirdlər arasında məşhurdur. Şagirdlərin diqqətini bir neçə aspektə yönəltmək lazımdır. Üç əsas istiqaməti vurğulamaq məqsədəuyğundur: norman cəmiyyətinin formalaşması və ona coğrafi mühitin və iqlim amillərinin təsiri, Avropa krallıqları daxilində normanların meydana çıxması və hərbi sahənin güclənməsi və nəhayət, normanların xristianlaşması və Avropa qitəsinin müxtəlif yerlərində Norman siyasi vahidlərinin formalaşması. Dərs zamanı qeyd olunan paraqrafı yaxşı təqdim etmək, Skandinaviya yarımadasının coğrafi və iqlim xüsusiyyətlərini və Normanların ilkin məskunlaşdığı ərazini müzakirə etməyə vaxt ayırmaq arzu edilir. Həmçinin, coğrafi mühitin Norman cəmiyyətinin inkişafında hansı rol oynadığını və onların fəaliyyətində təfərrüatı vurğulanmalıdır. Norman dininin mahiyyəti və onların dünyagörüşünü müzakirə etmək də arzu edilir. Norman cəmiyyətinə hansı fəaliyyət sahələri xas idi və nə üçün onlar Avropa ətrafında köç etməyə başlamışdılar.
Norman fəthlərinin əsas səbəblərini, coğrafi mühitin dəyişdirilməsi zərurətini, onların həyat tərzini və yaxşı dənizçiliyini sxematik şəkildə təqdim etmək lazımdır. Norman fəthlərinin coğrafi ərazisinin müzakirəsi və onların Avropanın gələcək inkişafındakı rolunu. Normanların xristianlaşması və onların Avropa feodal sisteminə inteqrasiyası prosesi təsvir edilməli və səciyyələndirilməlidir.
Nəticələri təklif edirik. Göstərilən paraqrafı öyrəndikdən sonra, nəticələrin əldə edilmiş hesab edilməsi üçün şagirdin **əsas təsəvvürlər** şəklində növbəti biliyi olmalıdır:

- Normanlar, məskunlaşdıqları ərazi Skandinaviya və Yutland yarımadasını əhatə edən, Romanın siyasi və mədəni təsirinə məruz qalmamış və ənənəvi dinlərini saxlayan alman mənşəli insanlar idi. *(məkan; cəmiyyət)*
- Soyuq iqlim, dağlıq və meşəlik ərazi əkinçiliyin inkişafına imkan vermirdi. Normanların fəaliyyəti müharibə və yığıcılıq tipli iqtisadiyyat sahələri ilə təqdim olunurdu. *(cəmiyyət; məkan)*
- Normanlar arasında onların cəmiyyətinə xas olan formalaşmış monarxiya tipi yox idi, burada hökmranlıq döyüşçü liderlərin əlində idi. *(hakimiyyət)*
- Normanların dini ənənəvi german panteonuna mənsub idi, çoxallahlı tanrılar və döyüşçü kultu geniş yayılmışdı. Döyüş Norman düşüncəsini və dünyagörüşünü müəyyən edirdi. *(cəmiyyət)*

- Normanların yürüşləri VIII-XI əsrləri əhatə edir və üç əsas mərhələyə bölünürdü. Birinci mərhələdə onların yürüşlərinin məqsədi qarətçilik, ikinci mərhələdə müxtəlif torpaqlarda məskunlaşmaq idi, son mərhələdə isə Norman dövlətləri yarandı. *(zaman, tarixi hadisə)*
- Normanların yürüşləri müharibələrlə yanaşı, həm də kəşflərlə səciyyələnir, onların adı ilə Qrenlandiya, İslandiya və Amerika ərazilərində yeni şəhərlərin salınması bağlıdır. *(məkan; tarixi hadisə)*

**Paraqraf §66. Nə üçün xristian dünyası XI əsrdə iki yerə parçalanmışdı?**

Qeyd edilən paraqraf bir çox cəhətdən vacibdir. O, Qərb və Şərq Xristian dünyasının bölünməsi prosesini, onun səbəblərini və yekun bölünmənin konkret motivlərini təsvir edir. Qeyd olunan paraqrafı öyrənərkən onun tarixi kontekstdə başa düşülməsi vacibdir və dərs prosesində dini rəğbət və hisslərin nümayiş etdirilməsi ilə bağlı heç bir narahatçılığa yol verilməməlidir.
Şagird kitabında təqdim olunan materiallarda müqayisənin bir çox nümunəsi təqdim edilir. Bizans və Qərbi Avropa xristianlığının müxtəlif inkişaf yollarının aspektləri vurğulanmışdır. Bu iki dünyanın inkişafına hansı siyasi, linqvistik, mədəni proseslərin təsiri olub. Siyasi proseslərin Qərb və Bizans dünyasının antaqonist münasibətinin artmasına səbəb olan aspektini ayırd etmək vacibdir. Böyük Karlın imperator kimi tacqoyulmasından sonrakı reaksiya və Patriarx Fotimin hərəkətlərinin kilsə məkanının vəhdətinə təsiri xüsusilə diqqətəlayiqdir.
Yunan və Latın dünyaları arasında ənənəvi qarşıdurma xüsusilə vurğulanmalıdır. Eləcə də Bizans dünyasının başqa xalqlara etnosentrik münasibəti və onun xristian məkanının birliyinə mənfi təsiri. Bölünmənin siyasi və insani amillərinə xüsusi diqqət yetirilməsi arzuolunandır. Roma və Yunan Xristianlığı arasındakı oxşarlıqları və fərqləri göstərən sxematik fəallıq dərs prosesini rəngarəng edəcək.

- Roma və Konstantinopol arasında dini məsələlərlə bağlı mübahisə hələ IV əsrdə özünü büruzə verirdi və bundan sonra zaman keçdikcə bu münaqişə daha da dərinləşir. *(zaman, tarixi hadisə)*
- Qərb xristian dünyası dini cəhətdən vahid idi və ona Papa rəhbərlik edirdi, Şərqi xristian məkanı isə bir neçə mərkəzdən ibarət idi. *(məkan)*
- Xristian dünyasında Papa ali ruhani hakimiyyət, Roma/Bizans imperatoru isə dünyəvi hakimiyyət hesab olunurdu. Mübahisə Papa tərəfindən Böyük Karlın tacqoyma mərasimi ilə daha da dərinləşdi. Bizans imperatorları Konstantinopol Patriarxını dünya patriarxı adlandırırdılar. *(məkan; hakimiyyət)*
- Parçalanmaya dini səbəbdən savayı, siyasi, dil, mədəni və insan amilləri də səbəb idi. *(tarixi hadisə)*
- Latın və Yunan xristianlığı arasında əsas mübahisəli teoloji məsələ “filiokve” idi. *(tarixi hadisə)*
- 1054-cü ildəki Böyük parçalanma əsrlər boyu inkişaf edən və dərinləşən prosesin məntiqi sonu olur. *(tarixi hadisə; vaxt)*